RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 17 (10037) 29 yanvar 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Sülh Şurası Azərbaycanı təsisçi üzv kimi salamlayıb







ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının "X" sosial mediasında səhifəsi yaradılıb.

AZƏRTAC xəbər verir ki, səhifədə Sülh Şurası təsisçi üzv kimi Azərbaycanı salamlayıb. Azərbaycanla yanaşı, səhifədə Sülh Şurasına üzv olan digər ölkələrə dair salamlama posterləri də yerləşdirilib.

Xatırladaq ki, Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən biri olub.

## Müasir çağırışlara cavab verən uğurlu strategiya

### Azərbaycan bərpaolunan enerjiyə keçiddə də liderlik edir



Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimində bununla bağlı bildirib: "Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək".

Bu gücün 21 faizdən bir qədər çox hissəsi artıq bərpaolunan enerji mənbələrinin payına düşür. Bu göstərici bir neçə il əvvəlki vəziyyətlə müqayisədə əhəmiyyətli irəliləyiş deməkdir və "yaşıl enerji" sahəsində aparılan institusional islahatların, eləcə də investisiya siyasətinin effektivliyini təsdiqləyir. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, son beş il ərzində günəş enerjisi istehsalı on dəfədən çox artıb, hidroenerji istehsalında isə təxminən üç dəfə genişlənmə qeydə alınıb. Bu dinamika ölkənin mövcud təbii resurslarından daha rasional və səmərəli şəkildə istifadə etməyə başladığını göstərir və enerji sektorunda struktur dəyişikliklərinin artıq praktiki mərhələyə keçdiyini sübut edir.

Azərbaycanın "yaşıl enerji" strategiyası əsasən üç istiqamət üzərində qurulub: günəş, külək və hidroenerji. Bu seçim ölkəmizin coğrafi mövqeyi, iqlim xüsusiyyətləri və təbii resurs potensialı ilə birbaşa bağlıdır. Günəş enerjisi sahəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası xüsusi əhəmiyyət daşıyır. Yüksək günəş radiasiyası səviyyəsi bu ərazilərin "yaşıl enerji" zonaları kimi formalaşdırılmasına imkan verir. Bu, eyni zamanda postmünaqişə dövründə azad edilmiş ərazilərin dayanıqlı inkişaf modelinin qurulmasına xidmət edir.

4



# Sənaye zonaları - dayanıqlı inkişafın möhkəm dayağı

## Prezident İlham ƏLİYEV: "Sənaye zonaları iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun sürətli inkişafı üçün əsas rol oynayır"

Dövlət başçısının təşəbbüsü və nəzarəti ilə yaradılan sənaye parkları və məhəllələri ölkənin müxtəlif regionlarını əhatə edir. Bu, regional inkişafın sürətlənməsinə, bölgələrdə yeni iş yerlərinin açılmasına və əhalinin sosial rifahının yüksəlməsinə səbəb olur. Prezidentin sənaye zonalarına mütəmadi səfərləri, rezident statusu almış müəssisələrin açılışında iştirakı, istehsal müəssisələrinin fəaliyyəti ilə yerində tanışlığı və qarşıya qoyulan vəzifələrin icrasına şəxsi nəzarəti yüksək səviyyədə bu sahəyə göstərilən diqqət və qayğının göstəricisidir. Dövlət başçısının iki gün öncə Sumqayıt Sənaye Parkında "Azərmirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun, "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirakı, həmçinin "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyması sübut edir ki, ölkədə fəaliyyət göstərən sənaye zonaları və məhəllələri formal deyil, real iqtisadi nəticələr verən mexanizmdir.

Bu mexanizmin uğurla işləməsi və iqtisadiyyata konkret töhfələr verməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü sənayeləşmənin dövlət siyasətinin əsas prioritetinə çevrilməsinin bariz nəticəsidir. Bu gün sənaye zonalarında fəaliyyət göstərən müəssisələr üçün vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlığın inkişafını stimullaşdırır. Həmin güzəştlər nəticəsində yerli istehsal güclənir, daxili bazar keyfiyyətli məhsullarla təmin olunur, eyni zamanda Azərbaycanın ixrac potensialı əhəmiyyətli dərəcədə artır. Çünki dövlət başçısının əsas hədəfi dayanıqlı iqtisadi inkişafı təmin etmək, neftdənkənar sektoru gücləndirərək rəqabətqabiliyyətli məhsul istehsalını təşviq etmək və Azərbaycanı regional sənaye mərkəzinə çevirməkdir.

Sənaye zonalarının inkişafı həm də ölkənin iqtisadi təhlükəsizliyini möhkəmləndirir. İşğaldan azad olunmuş ərazilərdə sənaye zonalarının yaradılması təşəbbüsü isə Prezident İlham Əliyevin uzaqgörən və strateji baxışının daha bir göstəricisidir. Bu addımlar həmin ərazilərin iqtisadi dirçəlişini təmin etməklə yanaşı, onların ölkə iqtisadiyyatına inteqrasiyasını təmin edir. Bu baxımdan, Ağdam Sənaye Parkı və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı işğaldan azad olunmuş ərazilərin dayanıqlı inkişafında xüsusi əhəmiyyət daşıyır. Həmin parklar müasir infrastrukturla təmin olunaraq sənaye, logistika, kənd təsərrüfatı məhsullarının emalı və ixracyönümlü istehsal sahələrinin formalaşdırılmasına geniş imkanlar yaradır.

7

## Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2026-cı ildə böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illiyi tamam olur.

Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır. Zəmanəsinin ən müxtəlif elmlərini dərindən bilən və Şərqin çoxəsrlik mədəni ənənələri zəminində əzəmətlə yüksələn qüdrətli söz ustası şeiriyyətin zirvəsində dayanan sənət nümunələrindən ibarət zəngin bir irs qoyub getmişdir. Ədalətə çağırış, mübarizə ruhu və şəxsiyyət azadlığı, mənəvi ucalıq, insan ləyaqəti və idrakın gücünə inam bu nadir irsin səciyyəvi cəhətləridir. Mütəfəkkir sənətkar ictimai-fəlsəfi və didaktik-əxlaqi düşüncələrdən yoğrulan, yüksək estetik dəyərə malik humanist məzmunlu əsərlərində sosial-tarixi hadisələri özünə məxsus bədiiliklə mənalandırmış və bunlardan ibrət almağı tövsiyə etmişdir. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür. Əsrinin mədəni həyatı ilə heyrətamiz dərəcədə sıx bağlı olan Xaqani Şirvani klassik ədəbiyyata qazandırdığı yeniliklərlə bütövlükdə Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Sonrakı yüzilliklərin ustad şairləri Xaqani dühasına həmişə ehtiramla yanaşmış, məktəb kimi ondan bəhrələnmişlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2026-cı il*

## Ağ Evin Cənubi Qafqaz prioritetləri

### ABŞ vitse-prezidentinin Azərbaycana gözlənilən səfəri yeni mərhələyə keçidin təsdiqidir




Prezident İlham Əliyev ilə Donald Tramp arasında Davos Forumu çərçivəsində baş tutan görüş əlaqələrin gələcək dinamikasını müəyyənləşdirdi. Görüşdə xüsusilə vurğulandı ki, enerji təhlükəsizliyi və terrorizmə qarşı birgə mübarizə əməkdaşlığın onurğa sütununu təşkil edir. Beynəlxalq sabitliyin qorunmasında Azərbaycanın rolu Vaşinqton tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın ABŞ Prezidentinin şəxsi dəvəti ilə Sülh Şurasına təsisçi üzv kimi daxil olması da Bakının artan geosiyasi çəkisinin təsdiqidir.

Vensin Bakıya gözlənilən səfəri və Azərbaycan-ABŞ yaxınlaşması Ermənistandakı müəyyən siyasi dairələrdə və revanşist qüvvələrdə ciddi təşvişə səbəb olub. Erməni politoloq Suren Sarkisyan iddia edib ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan lideri ilə Davosda görüşündən öncə vitse-prezident Ceyms Devid Vensin Bakıya səfər məsələsi gündəmdə olmayıb. Onun sərsəmləməsinə görə, Vensin təkcə Ermənistana səfəri gözlənilirmiş: "ABŞ-nin vitse-prezidentinin Bakını ziyarətini xüsusilə izləmək lazımdır". Ermənistandakı radikal dairələr uzun müddətdir ki, ABŞ-nin regiondakı siyasətinin yalnız İrəvanın maraqlarına xidmət edəcəyi barədə illüziya formalaşdırmağa çalışıblar. Vensin Bakı səfəri bu mifi dağıdacaq. Ermənilər üçün Vaşinqtonun Bakını Sülh Şurası və "TRIPP" layihəsi kimi qlobal təşəbbüslərdə əsas tərəfdaş seçməsi diplomatik balansın tamamilə Azərbaycanın xeyrinə dəyişməsi deməkdir.

6

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 13-cü və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 99-4.5-ci maddəyə "244-1," rəqəmlərindən sonra "246, 246-1," rəqəmləri əlavə edilsin;

1.2. 246-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 246. Mədəni sərvətləri qəsdən korlama və ya məhv etmə**

246.1. Dövlət tərəfindən qorunan daşınar və ya daşınmaz mədəni sərvətləri qəsdən korlama, xeyli miqdarda ziyan vurmaqla törədildikdə -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

246.2. Dövlət tərəfindən qorunan daşınar mədəni sərvətləri qəsdən məhv etmə -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

246.3. Dövlət tərəfindən qorunan daşınmaz mədəni sərvətləri qəsdən məhv etmə -

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə və ya üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

246.4. Bu Məcəllənin 246.1-246.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

246.4.1. təkrar törədildikdə;

246.4.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

246.4.3. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

246.4.4. milli, irqi və ya dini düşmənçilik, dini fanatizm zəminində törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Bu Məcəllənin 246-cı və 246-1-ci maddələrində "dövlət tərəfindən qorunan mədəni sərvətlər" dedikdə "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mədəni sərvətlərin mühafizə siyahısına daxil edilmiş mədəni sərvətlər, habelə həmin siyahıya daxil edilənədək və ya həmin siyahıya daxil edilməsindən imtina edilənədək barəsində mədəni sərvətin müəyyən olunması haqqında qərar qəbul edilmiş mədəni sərvətlər başa düşülür.

2. Bu Məcəllənin 246.1-ci maddəsində "xeyli miqdar" dedikdə, üç min manatdan yuxarı olan məbləğ başa düşülür.";

1.3. aşağıdakı məzmunda 246-1-ci maddə əlavə edilsin:

**"Maddə 246-1. Mədəni sərvətləri ehtiyatsızlıqdan məhv etmə**

Dövlət tərəfindən qorunan mədəni sərvətlərin qanunvericiliklə müəyyən edilmiş qorunması, tədqiqi və istifadəsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların məhv edilməsinə səbəb olduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**Maddə 2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I);2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, №2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741) 231-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 231.1-ci maddənin sanksiyasında "min beş yüz" sözləri "üç min" sözləri ilə, "üç" sözü "altı" sözü ilə, "on" sözü "iyirmi" sözü ilə əvəz edilsin;

2.2. 231.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"231.2. Mədəni sərvətlərin mühafizə siyahısına daxil edilmiş mədəni sərvətlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsinə, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına görə -

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər altı min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.";

2.3. 231.3-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər yeddi yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.";

2.4. aşağıdakı məzmunda 231.3-1-ci və 231.3-2-ci maddələr əlavə edilsin:

"231.3-1. Bu Məcəllənin 231.2-ci və ya 231.3-cü maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi nəticəsində mədəni sərvətlərin korlanmasına görə, bu az miqdarda ziyan vurduqda -

fiziki şəxslər beş min manat məbləğində, vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər otuz min manat məbləğində cərimə edilir.

231.3-2. İnşaat və digər təsərrüfat işləri görülərkən tarix və ya mədəniyyət abidəsi aşkar edildikdə dərhal işləri dayandıraraq, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməməsinə, habelə dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələrin dövlətə təhvil verilməməsinə görə -

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.";

2.5. 231.4-cü maddənin sanksiyasında "iki yüz" sözləri "min" sözü ilə, "beş" sözü "min beş" sözləri ilə, "üç" sözü "altı" sözü ilə əvəz edilsin;

2.6. "Qeyd" hissənin mətni 1-ci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

"2. Bu Məcəllənin 231.3-1-ci maddəsində "az miqdarda" dedikdə, üç min manatdan yuxarı olmayan məbləğ başa düşülür.".

**Maddə 3.** "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365 (Cild I); 2024, № 5 (I kitab), maddə 499; 2025, № 6, maddə 530) 10-cu maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"Abidələrin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

**Maddə 4.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddə 499) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.0.25-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.26-cı və 1.0.27-ci maddələr əlavə edilsin:

"1.0.26. **mədəni sərvətləri korlama** - mədəni sərvətlərin tarixi və mədəni dəyərinin qismən itirilməsinə, bədii-estetik görkəminin dəyişdirilməsinə, ilkin vəziyyətinin təhrif olunmasına, yeni quruluşa və ya qismən yararsız hala salınmasına səbəb olan qanunsuz müdaxilələrin və ya digər qanunsuz əməllərin törədilməsi;

1.0.27. **mədəni sərvətləri məhv etmə** - mədəni sərvətlərin dəyərinin həmişəlik itirilməsinə və ya ilkin vəziyyətinin bərpasının qeyri-mümkün olduğu tam yararsız hala salınmasına səbəb olan qanunsuz olaraq dağıdılması, parçalanması, yandırılması, partladılması və ya digər təsir üsullarının qanunsuz tətbiq edilməsi.";

4.2. 39.1-ci və 39.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"39.1. Mədəni sərvətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.

39.2. Dövlət tərəfindən qorunan mədəni sərvətlərin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.";

4.3. 43.0.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"43.0.8. bu Qanunun 39.2-ci maddəsi nəzərə alınmaqla, dövlət tərəfindən qorunan mədəni sərvətlərin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına.".

**Maddə 5.** Bu Qanun 2026-cı il fevralın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 231.2-ci və 231.3-2-ci maddələrinin dispozisiyasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 231.2-ci və 231.3-2-ci maddələrinin dispozisiyasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;

1.3. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;

1.5. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 39.1-ci, 39.2-civə 43.0.8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 39.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.7. həmin Qanunun 39.2-ci və 43.0.8-ci maddələrində "orqan (qurum)"dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 386 (Cild I); 2025, № 6, maddə 545) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "hallarda," sözündən sonra "10-cu maddəsində," sözləri əlavə edilsin;

3.2. 2.4-cü bəndə birinci halda "birinci hissəsində," sözlərindən sonra "10-cu maddəsində," sözləri əlavə edilsin.

4. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanı) 3-cü hissəsinin ikinci abzasında "245-246" rəqəmləri "245-246-1" rəqəmləri ilə əvəz edilsin.

5. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə birinci halda "ikinci cümləsində,"sözlərindən sonra "39.1-ci," sözləri əlavə olunsun və həmin bənddə "45.1-ci maddəsində" sözləri "43.0.8-ci və 45.1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

5.2. 2.2-ci bənddən ", 39.1-ci" sözləri çıxarılsın;

5.3. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 39.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

5.4. 2.3-1-ci bənddə "45.1-ci maddəsində" sözləri "43.0.8-ci və 45.1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

6."Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4-cü hissə üzrə:

6.1.1. 4.1-ci bəndə "231.2," rəqəmlərindən sonra "231.3-2," rəqəmləri əlavə edilsin;

6.1.2. 4.23-cü bənddə "maddəsində" sözü "və 231.3-2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

6.2. 5-ci hissə üzrə:

6.2.1. 5.13-cü bənddə "maddəsində" sözü "və 231.3-2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

6.2.2. 5.14-cü bəndə "231.3" rəqəmlərindən sonra ", 231.3-1 (baxılması səlahiyyətlərinə aid edilmiş maddələr üzrə)" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 16.0-cı bənddə "maddəsində" sözü "və 231.3-1-ci maddələrində" sözləri ilə əvəz olunsun və həmin bəndə "231.3-cü" sözlərindən sonra ", 231.3-2-ci" sözləri əlavə edilsin;

7.2. 21.0-cı bənddə "maddəsində" sözü "və 231.3-1-ci maddələrində" sözləri ilə əvəz olunsun və həmin bəndə"231.3-cü" sözlərindən sonra ", 231.3-2" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1520 (Cild I) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsi"nin 3.1.3-5-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.3-5. dövlət tərəfindən qorunan mədəni sərvətlərin başqa yerə köçürülməsinə, tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına razılıq vermək;".

9. "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddə 662) aşağıdakı dəyişikliklər edilsin:

9.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.2.12-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.2.12. dövlət tərəfindən qorunan mədəni sərvətlərin başqa yerə köçürülməsinə, tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına razılıq verir;";

9.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.33-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.0.33. dövlət tərəfindən qorunan mədəni sərvətlərin başqa yerə köçürülməsinə, tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına razılıq vermək;".

10. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938, № 12 (II kitab), maddə 1373; 2025, № 7, maddə 659, № 10, maddə 901) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"nin 3.0.36-2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.0.36-2. dövlət tərəfindən qorunan mədəni sərvətlərin başqa yerə köçürülməsinə, tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına razılıq vermək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2026-cı il*

# "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Gürcüstanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il noyabrın 21-də Tbilisi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Gürcüstanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2026-cı il*

# Azərbaycan ilə Çin siyasi, iqtisadi və təhlükəsizlik əməkdaşlığını genişləndirir



**Yanvarın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Çin Xalq Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Van İ ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Çin arasında ikitərəfli və çoxtərəfli münasibətlərin cari vəziyyəti ilə inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq məsələlər müzakirə olunub.

Nazirlər siyasi dialoqun yüksək səviyyədə olduğunu, 2025-ci ildə iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasının əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə töhfə verdiyini məmnunluqla qeyd ediblər. Azərbaycan Prezidentinin ötən ilin aprel ayında Çinə dövlət səfəri zamanı imzalanmış çoxsaylı müqavilələrin bir sıra istiqamətlərdə əməkdaşlığa əlavə təkan verdiyi vurğulanıb.

Tərəflər qarşılıqlı etimad və hörmətə əsaslanan əməkdaşlığın ticarət-iqtisadi, nəqliyyat-logistika, enerji, bərpaolunan enerji, sənaye, rəqəmsal transformasiya, kənd təsərrüfatı, humanitar və təhsil sahələrində daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Orta dəhliz, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə görülən işlərdə birgə əməkdaşlıq təqdir olunub.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsinin önəmi qeyd olunub, regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. BMT, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), Qoşulmama Hərəkatı və digər çoxtərəfli formatlar çərçivəsində əməkdaşlıq əlaqələri nəzərdən keçirilib.

Tərəflər həmçinin xalqlararası əlaqələrin möhkəmləndirilməsi, təhsil, mədəniyyət, turizm və gənclər arasında mübadilələrin genişləndirilməsinin ikitərəfli münasibətlərin dayanıqlı inkişafında mühüm rol oynadığını qeyd ediblər.

Görüşdə daha sonra qlobal və regional təhlükəsizlik məsələləri, Mərkəzi Asiya formatı çərçivəsində əməkdaşlıq planları nəzərdən keçirilib. Görüşdə həmçinin postmünaqişə dövründə bərpa-quruculuq işləri və mina təhdidi barədə qarşı tərəfə məlumat verilib, minasızlaşdırma fəaliyyətində ANAMA-ya dəstəyə görə Çin tərəfinə təşəkkür ifadə olunub.

Bundan başqa, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Omana səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 28-də Oman Sultanlığına rəsmi səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Məsqət Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini Oman Sultanlığı Şura Məclisinin Azərbaycanla parlament dostluq qrupunun üzvü Məhəmməd bin Salim Əs-Süleymani, Şura Məclisinin üzvləri, Azərbaycanın Omandakı səfiri Rəşad İsmayılov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Sahibə Qafarovanın ölkə rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

# "Uşaq hüquqları haqqında" yeni qanun layihəsi hazırlanıb

**Yanvarın 28-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib. İclası açan komitə sədri Hicran Hüseynova bildirib ki, gündəliyə iki məsələ daxildir.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanun layihəsi birinci oxunuşda təqdim olunub. Komitə sədri vurğulayıb ki, uşaq hüquqlarının təmin edilməsi və müdafiəsi ölkədə həyata keçirilən dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Yeni qanun layihəsinin hazırlanmasında məqsəd mövcud qanunvericiliyin müasir çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi, uşaq mənafelərinin daha effektiv qorunması, sosial təminat mexanizmlərinin gücləndirilməsi və beynəlxalq konvensiyaların tələblərinə uyğunlaşdırılmasıdır. Layihəyə əsasən, 11 yeni anlayışın ayrıca maddədə təsbiti nəzərdə tutulub.

İclasda iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qanun layihəsi barədə məlumat verərək bildirib ki, sənəd 8 fəsil və 63 maddədən ibarətdir. Layihədə uşaqlara qarşı cismani cəza anlayışı ayrıca təsbit olunur və bu cür halların yolverilməzliyi açıq şəkildə vurğulanır. Eyni zamanda uşaq hüquqları ilə bağlı qərarlar qəbul edilərkən qanun layihəsinin 61-ci maddəsində əksini tapmış 8 tələb əsas götürüləcək və bununla da müvafiq çərçivə konkret müəyyənləşdiriləcək. Yeni qanun layihəsi uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin gücləndirilməsinə xidmət edəcək.

Sonra insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva bildirib ki, qanun layihəsi uşaq hüquqlarının daha səmərəli müdafiəsi ilə bağlı normaları özündə ehtiva edir. Qeyd olunub ki, ombudsman tərəfindən qanun layihəsi ətraflı təhlil edilib və erkən evliliklərin qarşısının alınması, uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququnun, şərəf və ləyaqətinin, fərdiliyinin və sosial müdafiəsinin təmin edilməsi, eləcə də uşaq alveri və istismarının qadağan olunması və digər məsələlər ilə bağlı irəli sürülən təkliflər sənəddə öz əksini tapıb.

İclasda çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübə nəzərə alınıb. Qanun layihəsində uşaqlara qarşı zorakılıqla, müasir texnologiyalarla bağlı maddələr öz əksini tapıb.

Qanun layihəsinin müzakirəsində Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, üzvləri İlham Məmmədov, Mehriban Vəliyeva, Tamam Cəfərova, Könül Nurullayeva, Günay Ağamalı, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov, "Ümidli Gələcək" İctimai Birliyinin sədri Kəmalə Aşumova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova çıxış edərək məsələ ilə bağlı qeyd və təkliflərini bildiriblər.

Daha sonra komitə sədri Hicran Hüseynova gündəliyin ikinci məsələsini - Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib.

O bildirib ki, qanun layihəsinin əsas məqsədi uşaq hüquqlarının təminatı sahəsində mövcud qanunvericiliyi beynəlxalq standartlara uyğunlaşdırmaq, uşaqların fikrinin nəzərə alınmasını, fərdi məlumatlarının qorunmasını və zorakılıqdan müdafiəsini gücləndirən yeni hüquqi mexanizmlər yaratmaqdır. Layihə həmçinin çətin həyat şəraitində olan uşaqların vaxtında aşkarlanmasını, onların maraqlarının səmərəli müdafiəsini və bu sahədə dövlət nəzarətinin genişləndirilməsini təmin etməyə yönəlib.

Qanun layihəsinin müzakirəsində komitənin üzvləri Sevinc Hüseynova və Müşfiq Məmmədli iştirak edərək fikirlərini bildiriblər, təkliflərini səsləndiriblər.

Sonda hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Yanvarın 28-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. Tədbirdə əvvəlcə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası qanununun layihəsinə baxılıb. Sənədi təqdim edən komitə sədri Zahid Oruc uşaqların sağlam, savadlı yetişdirilməsinin, vətənpərvər ruhda böyüməsi, şəxsiyyət kimi formalaşmasının vacibliyindən söhbət açıb.

Diqqətə çatdırılıb ki, qanun layihəsində Azərbaycanda uşaq siyasətinin əsas prinsipləri, onların hüquq və azadlıqları, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatları və dövlət nəzarətinin əsasları müəyyən edilir. Layihədə əsas anlayışlar, qanunun tətbiq dairəsi göstərilir, uşaqlar barəsində dövlət siyasətinin məqsədləri təsbit olunur. Sənəddə habelə uşaqların hüquq və azadlıqlarının təmin edilməsi sahəsində dövlətin əsas vəzifələri, uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi üzrə dəstək proqramlarının həyata keçirilməsi, uşaqların mənafelərinin üstünlüyünün əsas təminatları, onların yaşamaq və inkişaf etmək hüququ ilə bağlı məsələlər öz əksini tapıb. Bununla yanaşı, uşağın fərdiliyinin qorunması, tərbiyə almaq, həyat və sağlamlığının qorunması, azadlıq və şəxsi toxunulmazlıq, şərəf və ləyaqətinin müdafiəsi hüququ müvafiq maddələrdə qeyd edilir.

Layihədə hərbi münaqişələr dövründə, habelə təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalar nəticəsində zərər çəkmiş uşaqların müdafiəsi, uşaqların çətin həyat şəraitinə düşməsinin qarşısının alınması üzrə profilaktik tədbirlər, çətin həyat şəraitində olan uşaqların aşkarlanması və onların sosial müdafiəsi, əlilliyi olan, valideyn himayəsindən məhrum olmuş, baxımsız, kimsəsiz və ya sosial təhlükəli vəziyyətdə olan uşaqların hüquqları yer alıb.

Bildirilib ki, yeni qanun layihəsində uşaq hüquqları üzrə dövlət təminatları daha geniş formada əks olunur, çətin həyat şəraitində olan uşaqların hüquq və mənafelərinin qorunması üçün kompleks yanaşmanı özündə əks etdirən hüquqi tənzimləmə müəyyən edilir. Həmçinin layihəyə uşaqlarla bağlı icraata dair beynəlxalq normalardan irəli gələrək prinsipial məsələlər, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti mexanizmi daxil edilib.

Sonra iclasda Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib.

Qeyd olunub ki, sənəddə "Uşaq hüquqları haqqında" qanun layihəsindən irəli gələn uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, uşaq hüquqlarının təminatının hüquqi əsaslarının formalaşdırılması məqsədilə bir sıra qanunvericilik aktlarında uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur. Təklif edilən dəyişikliklər uşaqlarla bağlı ədalət mühakiməsinin həyata keçirilməsi zamanı onların üstün mənafelərinin nəzərə alınması, fərdi məlumatlarının qorunması, çətin həyat şəraitində olan uşaqların aşkar edilməsi mexanizmi, uşaqların zorakılıqdan qorunması ilə bağlı qanunvericilikdə yeni təminatların müəyyən edilməsinə imkan verəcək.

Məsələlər ətrafında müzakirələrdə komitənin sədr müavini Arzuxan Əlizadə, deputatlardan Razi Nurullayev, Bəhruz Məhərrəmov, Naqif Həmzəyev, Mübariz Qurbanlı, Sevil Mikayılova, Hikmət Məmmədov, Vüqar Rəhimzadə, Tural Gəncəliyev, Elman Nəsirov, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, habelə iclasda iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov çıxış edərək, layihə ilə bağlı fikirlərini açıqlayıblar, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Çıxışlarda yeni qanun layihəsinin üstünlüklərindən, sənəddə təsbit olunan məsələlərin aktuallığından söhbət açılıb, uşaqların fiziki, mənəvi, intellektual baxımdan formalaşmasının vacibliyi, rəqəmsal mühitin uşaqların inkişafına təsiri və digər məsələlər barədə danışılıb.

Müzakirələrin yekununda təqdim edilən hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Azərbaycan və Vyetnam etibarlı strateji tərəfdaşlardır

## YAP Sədrinin müavini Tahir Budaqov Vyetnamda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbirdə iştirak edib

**Azərbaycan Respublikasının Vyetnamdakı səfirliyinin təşkilatçılığı ilə Hanoyda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbir keçirilib.**





Tədbirdə Vyetnamın dövlət və hökumət rəsmiləri, diplomatik missiya təmsilçiləri, Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, Azərbaycanda təhsil almış vyetnamlı məzunlar, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Vyetnamdakı fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə iki ölkə arasında tarixi köklərə əsaslanan səmimi dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırıb. O, 1959-cu ildə Vyetnam xalqının öndəri Ho Şi Minin Azərbaycana, 1983-cü ildə isə Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Vyetnama səfərlərinin xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında müstəsna rol oynadığını deyib. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ötən ilin may ayında Azərbaycana səfərini xatırladan səfir iki ölkə arasında münasibətlərin uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyasının (VKP) 14-cü qurultayının uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb.

Tahir Budaqov qeyd edib ki, müdrik dövlət xadimi Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi zaman Vyetnam ilə münasibətlərin inkişafına böyük önəm verib. Onun sözlərinə görə, Heydər Əliyev siyasətini müasir çağırışlara uyğun zənginləşdirərək uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir: "İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin genişlənməsini şərtləndirir. Bu gün etibarlı strateji tərəfdaşlar olan Azərbaycan ilə Vyetnam qlobal müstəvidə bir-birinin maraqlarının müdafiəsinə böyük əhəmiyyət verirlər".

YAP Sədrinin müavini strateji tərəfdaşlıq münasibətlərinin irəliyə aparılması üçün ayrı-ayrı qurumların üzərinə mühüm vəzifələrin düşdüyünü, bu kontekstdə sıx əməkdaşlığın vacibliyini vurğulayıb.

Tahir Budaqov daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına mühüm töhfələr verdiyini söyləyib. Qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edən YAP Sədrinin müavini Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini deyib: "2023-cü ildə YAP ilə VKP arasında imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin icrası istər partiyalarımız, istərsə də ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir".

Tahir Budaqov milli maraqlara əsaslanan birgə fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına əminliyini ifadə edib.

Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong inkişaf yolunda əmin addımlarla irəliləyən hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduqlarını vurğulayıb. O, Azərbaycan ilə Vyetnamın müxtəlif sahələrdə işbirliyini genişləndirməsinin vacibliyinə toxunaraq statistika qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. Nguyen Thi Hong 2024-cü ilin dekabr ayında Bakıda imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələrək sistemli fəaliyyətin həyata keçirildiyini söyləyib. O, bir neçə gün əvvəl statistika sahəsində 2026-2028-ci illər üçün İş Planının imzalanmasının qurumlararası əlaqələri daha da dərinləşdirəcəyinə əminliyini bildirib.

Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri Dang The Vin Azərbaycan-Vyetnam münasibətlərinin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu söyləyib. O, vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı gənclərin bir çoxunun Vyetnamın ictimai-siyasi həyatında fəal rol oynadıqlarını, iki xalq arasında əlaqələrin möhkəmləndirilməsinə mühüm töhfələr verdiklərini bildirib.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Dövlət Neft Fondu BƏƏ şirkətinə investisiya yatırıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və Ərəb Enerji Fondu ("TAEF") CVC DIF ilə tərəfdaşlıq çərçivəsində, DIF VII fondunun "PAL Cooling Holding" ("PAL") şirkətində 50 faizlik pay əldə etməsi məqsədilə yaradılmış müştərək investisiya strukturuna sərmayə yatırıb.**

AZƏRTAC ARDNF-nin yaydığı məlumata istinadən xəbər verir ki, TAEF və ARDNF arasında bu əməkdaşlıq regionda enerji səmərəliliyini artıran infrastruktur layihələrinin inkişafına yönəlmiş ortaq strateji yanaşmanı əks etdirir.

2025-ci ilin iyununda qlobal özəl bazarlar üzrə aparıcı investisiya meneceri CVC-nin infrastruktur strategiyası olan CVC DIF və "Tabreed" dünyanın aparıcı mərkəzləşdirilmiş soyutma şirkətlərindən biri olan "PAL Cooling Holding"in alınması ilə bağlı razılığa gəlib. Beləliklə, CVC DIF və "Tabreed" tərəfindən yaradılmış birgə müəssisə vasitəsilə PAL şirkəti 50/50 faizlik pay bölgüsü əsasında əldə olunub, sövdələşmənin kapital dəyəri isə təxminən 3,8 milyard BƏƏ dirhəmi təşkil edib.

"PAL Cooling Holding" Birləşmiş Ərəb Əmirliklərində mərkəzləşdirilmiş soyutma xidmətləri üzrə ikinci ən böyük operatordur. Şirkət orta hesabla 25 il müddətinə qüvvədə olan səkkiz uzunmüddətli konsessiya çərçivəsində fəaliyyət göstərir və 45 mindən çox müştəriyə xidmət edir. "PAL" ölkənin əsas inkişaf zonalarında etibarlı, səmərəli və dayanıqlı soyutma infrastrukturunun qurulmasında mühüm rol oynayır.

TAEF və ARDNF-nin CVC DIF ilə birgə əməkdaşlığı kapital imkanları və sahə üzrə dərin təcrübəsi ilə seçilən üç institusional investoru vahid platformada birləşdirərək PAL-ın əməliyyat dayanıqlığını gücləndirməklə yanaşı, şirkətin uzunmüddətli inkişaf strategiyasının icrasına dəstək verir.

"Tabreed" isə CVC DIF ilə birgə müəssisədə 50 faizlik payını saxlayaraq mərkəzləşdirilmiş soyutma sahəsindəki geniş təcrübəsini layihəyə cəlb edir. 1998-ci ildə təsis edilən "Tabreed" BƏƏ-də bu sahədə fəaliyyət göstərən ilk şirkətlərdən biridir, "Dubai Financial Market"də listinqdədir və hazırda altı ölkədə 99 obyektə sahib olmaqla onları idarə edir.

TAEF-in baş icraçı direktoru Xalid Al-Ruvey bildirib: "PAL layihəsi üzrə bu əhəmiyyətli investisiya çərçivəsində CVC və Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə tərəfdaşlıq etməkdən məmnunuq. Mərkəzləşdirilmiş soyutma enerji səmərəliliyinin artırılmasında mühüm rol oynayır və biz əməliyyat baxımından yüksək göstəricilərə malik bir platformaya dəstək veririk. Bu əməkdaşlıq "TAEF"in uzunmüddətli dəyər və real təsir yaradan keyfiyyətli investisiya platformalarına və tərəfdaşlıqlara yönəlmiş strateji yanaşmasını əks etdirir".

ARDNF-nin İcraçı direktorunun müavini Rövşən Cavadov qeyd edib: "Bu mühüm layihədə iştirakımız ARDNF-nin Birləşmiş Ərəb Əmirliklərinə və ümumilikdə Körfəz regionuna olan strateji marağının bariz göstəricisidir. Mərkəzləşdirilmiş soyutma enerji səmərəliliyinə əsaslanan müasir şəhərsalmanın vacib tərkib hissəsidir və bu investisiya transmilli iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, eləcə də strateji tərəfdaşlıqların qurulması ilə bağlı məqsədlərimizə xidmət edir. Etibarlı tərəfdaşlarla birlikdə, regionun daha geniş dayanıqlılıq hədəflərinə töhfə verən konsorsium çərçivəsində Əbu-Dabidə investisiya fəaliyyətimizi genişləndirməkdən məmnunuq".

CVC DIF-in investisiya üzrə direktoru və partnyoru Allard Ruis bildirib: "ARDNF və TAEF ilə qurduğumuz bu tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu əməkdaşlıq CVC-nin regiona, xüsusilə də Birləşmiş Ərəb Əmirliklərinə olan uzunmüddətli öhdəliyi və ölkə üzrə inkişafı dəstəkləyən bizneslərə investisiya strategiyası ilə tam uzlaşır. "PAL Cooling" yüksək keyfiyyətli investisiya layihəsidir və bütün investorlarımız üçün sabit gəlirlilik təmin etməklə yanaşı, uzunmüddətli artım və dayanıqlı dəyər yaradılması baxımından da əhəmiyyətli potensiala malikdir".

# Azərbaycanın xarici siyasətinin uğurları

## Təhlükəsizliyimiz yüksək peşəkarlıqla təmin olunur

**Azərbaycanın beynəlxalq səviyyədə mövqeyi gücləndiyi bir dövrdə, təbii ki, ona qarşı müxtəlif mənbələrdən təhdidlərin artması gözləniləndir. Regionda yeni geosiyasi reallıqlar formalaşıb. Azərbaycanın enerji və nəqliyyat təhlükəsizliyi sahəsində artan rolu ölkəni həm tərəfdaşlar, həm də burada maraqlı olan zidd dairələr üçün diqqət mərkəzinə çevirir.**



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət ərazi bütövlüyümüzün, suverenliyimizin, müstəqilliyimizin qorunmasına, eyni zamanda Azərbaycan vətəndaşının rifahının yüksəldilməsinə yönəlib. İndiki şəraitdə bizə güclü ordu, güclü xüsusi xidmət və hüquq-mühafizə orqanları mütləq şəkildə lazımdır və vacibdir. "Azərbaycan müdafiə qabiliyyəti baxımından son illərdə çox sistemli, məqsədyönlü şəkildə addımlar atır. Ordunun modernləşdirilməsi, yüksək texnologiyaların, yeni silahların alınması, yeni silah sistemlərinin, PUA-ların tətbiqi, kəşfiyyat və rabitə xidmətlərinin inkişafı müdafiə gücünü keyfiyyətcə yeni mərhələyə çıxarıb. 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan canlı qüvvələrin say üstünlüyünə deyil, strateji planlaşdırmada texnoloji üstünlüyə nail olmaq üçün addımlar atır. Məhz bu baxımdan hərbi sənaye kompleksimizin inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir. Azərbaycan bu sahədə artıq idxalçı ölkədən ixracatçıya çevrilib", - deputat əlavə edib.

A.Nağıyevin sözlərinə görə, təhlükəsizlik xidmətlərinin bacarığı və çevikliyi bu sistemin əsas sütunlarından biridir. Burada Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, hüquq-mühafizə orqanları terrorizmə, kibercinayətkarlığa, diversiya, hibertəhdidlərə və informasiya müharibələrinə qarşı peşəkar şəkildə preventiv tədbirlər həyata keçirən qurumlardır. Bu və digər dövlət orqanları yüksək səviyyədə koordinasiyalı şəkildə öz işlərini görür və əsas məqsəd də təhlükələrə reaksiya yox, onları öncədən görərək, aradan qaldırmaqdır.

Komitə sədri qeyd edib ki, ümumiyyətlə, xüsusi xidmət orqanlarının əsas işi məlumatı əvvəlcədən əldə etmək, xəbərdarlıq etmək və onu lokallaşdırmaqdan ibarətdir: "Eyni zamanda Azərbaycanın təhlükəsizlik konsepsiyası yalnız hərbi və xüsusi xidmətlər müstəvisində məhdudlaşmır. Diplomatik balans, beynəlxalq əməkdaşlıq, strateji tərəfdaşlıq, daxili sabitliyin qorunması milli təhlükəsizliyin ayrılmaz hissələridir. Dövlətin gücü məhz bu kompleks yanaşmada özünü göstərir. İstər hökumət, istər müxtəlif dövlətlərlə olan parlamentlər səviyyəsində, istərsə də hökumətlərarası komissiyalarda bu istiqamətdə işlər qurulur və ciddi addımlar atılır".

A.Nağıyev vurğulayıb ki, nəticə etibarilə təhdidlər nə qədər artsa da, Azərbaycan bu çağırışlara cavab verə bilən, özünü müdafiə etməyi bacaran, təhlükəsizliyini təmin etmək üçün bütün resurslarını səfərbər edən dövlətdir. Burada xüsusi xidmət orqanlarının rolu danılmazdır, hüquq-mühafizə orqanları bu istiqamətdə ciddi tədbirlər görürlər. "Bütün bunlar ölkənin həm regionda, həm də beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsinə xidmət edir. Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aparılan son əməliyyat da sübut etdi ki, Azərbaycan digər dövlətlərin səfirliklərinə, nümayəndəliklərinə qarşı olan təhdidlərin qarşısının alınması istiqamətində də ciddi addımlar atır. Bu, təbii ki, koordinasiyalı şəkildə olan məsələlərdir, eyni zamanda xüsusi xidmət orqanları tərəfindən Azərbaycanda əməliyyat şəraitinə tam nəzarətin olduğundan xəbər verir. Bütün bu proseslər Ali Baş Komandan, Prezident İlham Əliyevin apardığı siyasətə birbaşa bağlıdır və onun nəzarəti altında həyata keçirilir", - deyə komitə sədri əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Müasir çağırışlara cavab verən uğurlu strategiya

### Azərbaycan bərpaolunan enerjiyə keçiddə də liderlik edir

**XXI əsrin ikinci onilliyindən etibarən dünya miqyasında enerji siyasətində köklü dəyişikliklər müşahidə olunur. Qlobal iqlim dəyişikliklərinin sürətlənməsi, atmosferə atılan karbon emissiyalarının artması və bu proseslərin yaratdığı ekoloji və sosial risklər dövlətləri enerji istehsalı və istehlakı modellərinə yenidən baxmağa vadar edir. Bu mənada bərpaolunan enerji mənbələri, günəş, külək, hidroenerji və digər alternativ enerji növləri ekoloji seçim olmaqla yanaşı, strateji prioritet kimi də çıxış edir.**



Azərbaycan bu qlobal çağırışlara cavab verən ölkələr sırasındadır. Uzun illər ərzində neft və qaz sektorunda formalaşmış iqtisadi potensialdan və institusional təcrübədən istifadə edən ölkəmiz son dövrdə enerji siyasətində şaxələndirmə xəttini gücləndirərək "yaşıl enerji"nin inkişafını milli strateji məqsəd səviyyəsinə yüksəldib. Bu, həm enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, həm də uzunmüddətli sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edir.

Milli enerji strategiyasında bərpaolunan enerji mənbələrinin payının artırılması əsas hədəf kimi müəyyən edilib. Rəsmi planlara əsasən, 2030-cu ilədək elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payının 30-35 faiz səviyyəsinə çatdırılması nəzərdə tutulur. Bu məqsədə nail olmaq üçün yaxın illərdə günəş və külək enerjisi üzrə 2250 meqavatdan artıq yeni gücün istismara verilməsi planlaşdırılır.

Son illərin statistik göstəriciləri Azərbaycanın enerji sektorunda baş verən transformasiyanın real nəticələr verdiyini nümayiş etdirir. Hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsal gücü təxminən 10 min meqavat təşkil edir. Prezident İlham Əliyev "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimində bununla bağlı bildirib: "Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək".

Bu gücün 21 faizdən bir qədər çox hissəsi artıq bərpaolunan enerji mənbələrinin payına düşür. Bu göstərici bir neçə il əvvəlki vəziyyətlə müqayisədə əhəmiyyətli irəliləyiş deməkdir və "yaşıl enerji" sahəsində aparılan institusional islahatların, eləcə də investisiya siyasətinin effektivliyini təsdiqləyir. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, son beş il ərzində günəş enerjisi istehsalı on dəfədən çox artıb, hidroenerji istehsalında isə təxminən üç dəfə genişlənmə qeydə alınıb. Bu dinamika ölkənin mövcud təbii resurslarından daha rasional və səmərəli şəkildə istifadə etməyə başladığını göstərir və enerji sektorunda struktur dəyişikliklərinin artıq praktiki mərhələyə keçdiyini sübut edir.

Azərbaycanın "yaşıl enerji" strategiyası əsasən üç istiqamət üzərində qurulub: günəş, külək və hidroenerji. Bu seçim ölkəmizin coğrafi mövqeyi, iqlim xüsusiyyətləri və təbii resurs potensialı ilə birbaşa bağlıdır. Günəş enerjisi sahəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası xüsusi əhəmiyyət daşıyır. Yüksək günəş radiasiyası səviyyəsi bu ərazilərin "yaşıl enerji" zonaları kimi formalaşdırılmasına imkan verir. Bu, eyni zamanda postmünaqişə dövründə azad edilmiş ərazilərin dayanıqlı inkişaf modelinin qurulmasına xidmət edir.

Külək enerjisi üzrə isə Abşeron yarımadası və Xızı bölgəsi əsas mərkəzlər kimi çıxış edir. Bu ərazilərdə külək potensialının yüksək olması iri güclü elektrik stansiyalarının tikintisini iqtisadi cəhətdən səmərəli edir.

Bununla yanaşı, dağlıq və dağətəyi regionlarda mövcud çay resurslarından istifadə etməklə kiçik və orta güclü hidroelektrik stansiyaların qurulması da enerji siyasətinin mühüm komponentlərindən biridir. Bu isə regionların enerji təminatını gücləndirir və mərkəzləşdirilmiş enerji sisteminə düşən yükü azaldır.

Hazırda ölkəmizdə bərpaolunan enerji stansiyaları fəaliyyət göstərir. 2027-ci ilədək ümumi gücü 2 min meqavatdan artıq olan "yaşıl enerji" layihələrinin icrası nəzərdə tutulur.

Bütün bunlar bir tərəfdən ölkənin daxili enerji tələbatının daha dayanıqlı və ekoloji cəhətdən təmiz mənbələr hesabına ödənilməsinə imkan yaradır, digər tərəfdən isə karbon emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasına şərait formalaşdırır. Daha uzunmüddətli perspektivdə, yəni 2031-2037-ci illər üçün Azərbaycanın bərpaolunan enerji sahəsində əlavə 21 qiqavat güc yaratmaq niyyəti ölkənin regional enerji xəritəsində mövqeyini köklü şəkildə dəyişə biləcək ambisiyalı hədəf kimi qiymətləndirilir.

Ölkəmizin "yaşıl enerji" strategiyasında beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Aparıcı maliyyə institutları və qlobal enerji şirkətləri ilə qurulan tərəfdaşlıqlar yeni texnologiyaların, müasir idarəetmə modellərinin və maliyyə resurslarının cəlb edilməsinə imkan verir. Avropa Bərpa və İnkişaf Bankının artıq 1,2 qiqavat gücündə bərpaolunan enerji layihələrinə maliyyə dəstəyi göstərməsi bu sahədə beynəlxalq etimadın göstəricisidir. Həmçinin Qarabağ bölgəsində iri günəş-elektrik stansiyasının tikintisi üzrə xarici enerji şirkətləri ilə imzalanan sazişlər Azərbaycanın etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir.

Bununla yanaşı, planlaşdırılan "yaşıl enerji" dəhlizləri vasitəsilə elektrik enerjisinin Avropa və Mərkəzi Asiya bazarlarına ixracı ölkəni tədricən "yaşıl enerji" ixracatçısına çevirməyi hədəfləyir. Azərbaycan 2050-ci ilədək emissiyaların 40 faizədək azaldılması üzrə könüllü öhdəlik götürüb, COP29 çərçivəsində isə enerji saxlanması, "yaşıl enerji" zonaları və hidrogen üzrə qlobal təşəbbüslərlə çıxış edərək beynəlxalq iqlim gündəliyində fəal mövqeyini ortaya qoyub. Bütün bu təşəbbüslər Avropa İttifaqı üçün enerji mənbələrinin şaxələndirilməsi baxımından strateji əhəmiyyət daşımaqla yanaşı, Azərbaycanın enerji təhlükəsizliyini və iqtisadi dayanıqlılığını da gücləndirir.

Onu da qeyd edək ki, Azərbaycanın "yaşıl enerji" siyasəti möhkəm normativ-hüquqi əsaslar üzərində qurulub. 2019-cu il 29 may tarixli "Energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" sərəncam enerji bazarının liberallaşdırılması, rəqabətli mühitin formalaşdırılması və bərpaolunan enerjiyə keçidin etibarlı idarəetmə bazasının əsasını yaradıb. 2021-ci il 31 may tarixli "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun isə "yaşıl enerji" layihələrinin hüquqi, iqtisadi və təşkilati mexanizmlərini müəyyənləşdirərək dövlət dəstək alətlərini tənzimləyən əsas normativ sənəd kimi çıxış edir. Bu, 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasında aşağı karbonlu iqtisadiyyatın qurulması hədəfləri ilə tamamlanır.

"Yaşıl enerji" siyasətində innovativ texnologiyaların tətbiqi də prioritet istiqamətlərdəndir. Böyükşor gölündə istifadəyə verilmiş üzən günəş panelləri ölkəmizdə bu sahədə ilk pilot nümunədir və gələcəkdə su hövzələri üzərində iri həcmli layihələrin icrasına zəmin yaradır.

Azərbaycan "yaşıl enerji" sahəsində regional inteqrasiyanı da fəal şəkildə genişləndirir. "Xəzər-Qaradəniz-Avropa", "Mərkəzi Asiya-Azərbaycan" və "Azərbaycan-Türkiyə-Avropa" "yaşıl enerji" dəhlizləri üzrə imzalanmış çoxtərəfli sazişlər ölkəmizi qitələrarası "yaşıl enerji" ötürülməsində mühüm tranzit mərkəzinə çevirir.

Aparılan təhlillər göstərir ki, Azərbaycanın "yaşıl enerji" siyasəti artıq konseptual mərhələni geridə qoyaraq praktik icra mərhələsinə keçib. Enerji balansında bərpaolunan mənbələrin payının artması, irimiqyaslı layihələrin reallaşdırılması və beynəlxalq əməkdaşlığın genişlənməsi ölkəmizi regionda "yaşıl enerji" liderlərindən birinə çevirir. "Yaşıl enerji" bu gün Azərbaycan üçün enerji təhlükəsizliyinin ekoloji məqsədlərə xidmət edən fəaliyyətin və geosiyasi mövqelərin möhkəmləndirilməsinin mühüm alətidir. Bu sahədə 2030-cu il və sonrakı dövr üçün müəyyən edilən strateji hədəflər isə ölkəmizin davamlı enerji inkişafı yolunda güclü idarəetmə əsaslarına və texniki zəminə malik olduğunu göstərir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

## Yüksək nüfuzun göstəricisi

**Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Şeyx Zayed Fondunun "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsinin tam əsası var. Birincisi, bu gün dinc dünya quranların sayının kifayət qədər az olduğu, müharibə və münaqişə ocaqlarının artdığı mənfi tendensiyaların fonunda Azərbaycan çoxəsrlik düşmənçiliyə son qoyur, sadəcə iki xalqı deyil, regionun bütün xalqlarını əməkdaşlığa səsləyir. Dünyanı əməkdaşlıq ruhu üzərində quranların yoluna işıq salmaq üçün müəyyən təqdimatlar mövcuddur. Bu baxımdan, "Zayed İnsan Qardaşlığı Mükafatı" mühüm əhəmiyyətə malikdir.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" məhz bu mükafatlara namizədləri seçməyə son dərəcə dəqiqliklə yanaşır: "Bu mükafata layiq görülən şəxslər qardaşlıq prinsiplərini və dəyərlərini öz əməllərində göstərməlidirlər. Ancaq bu meyarlara cavab verənlər mükafata layiq görülürlər. Qlobal qardaşlıq, bəşəri həmrəylik, ədalət, dünyada sülhün təşviqinə verilən töhfələr bu gün daha da aktuallıq qazanıb. Habelə, yerli, regional, qlobal dünyaya təsir imkanları güclü olan şəxslərin dəyərləndirilməsi vacib amillərdəndir. Birgəyaşayış, əməkdaşlıq, qardaşlıq kimi müsbət tendensiyaları inkişaf etdirmək üçün yeni yollar axtarılmalıdır. Bu istiqamətdə beynəlxalq təşkilatların, qurumların, ayrı-ayrı şəxslərin töhfə vermək üçün çalışdığını görürük. Hər nə qədər cəhdlər olsa da, hər kəs bu işin öhdəsindən gələ bilmir. Prezident İlham Əliyevin yürütdüyü siyasətə nəzər yetirərkən isə bunun sadəcə Azərbaycanın milli maraqlarını təmin etməklə məhdudlaşmadığını görmək mümkündür. Dövlət başçımız yürütdüyü siyasətlə həm Azərbaycan xalqının maraqlarını təmin edir, həm regional əməkdaşlığa, həm də qlobal sülhə fundamental töhfə verir".

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın müstəqil qlobal mükafat olduğunu diqqətə çatdıran deputat bildirib ki, bu mükafat dünyada sülhün, harmoniyanın, mədəniyyətlərarası dialoqun təşviqi sahəsində fərqlənən liderlərə verilir. Bu liderlərin xeyirxah səyləri davamlı xarakter daşıyır, bəşəriyyətin inkişafı üçün cəmiyyətləri və dövlətləri bir araya gətirməyi bacarırlar. Yəni bu mükafat xalqlar arasında körpü quranları və insan əlaqələrini gücləndirənləri, nümunə göstərənləri, irəliləyişlər əldə edənləri, habelə bəşəriyyət üçün fədakarcasına və yorulmadan xidmət göstərənləri dəyərləndirir. Tərəqqiyə doğru irəliləyiş əldə etmək liderlərin əsas qayəsi olmalıdır.

A.Badamov qeyd edib ki, Prezident İlham Əliyev savadı, dünyagörüşü, daşıdığı və ötürdüyü dəyərləri, nümunəvi şəxsiyyəti etibarilə "Şeyx Zayed İnsan Qardaşlığı Mükafatı" da daxil olmaqla, ən ali mükafatlara layiqdir. "Dövlət başçımızın regiona dayanıqlı sülh və əməkdaşlıq gətirməyə çalışmasına baxmayaraq, bu yüksək amalların qarşısında duran məkrli insanlar və maraqlı qruplar da var. Ölkəmizin rəhbəri onların da öhdəsindən məharətlə gəlir. Prezident İlham Əliyev həm müharibədə qalib gələn sərkərdə, həm də sülhün təşəbbüskarıdır. Dövlət başçısının uğurlu daxili və xarici siyasəti sayəsində Azərbaycan diktə edən dövlətə çevrilib", - deyə deputat bildirib.

2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən görüşü xatırladan A.Badamov əlavə edib ki, Azərbaycan mütləq qələbəsi ilə həm də münaqişənin həll edilməsində nümunəvi təcrübə nümayiş etdirib. Prezident İlham Əliyevin sülh gündəliyi dünya tərəfindən təqdir edilir. Ermənistanı revanşizmə və regionu yeni qarşıdurmaya sürükləyən cəhdlər iflasa məhkumdur. Buna qadir olan amil Prezident İlham Əliyevin qətiyyəti və prinsipial mövqeyidir. "Zayed İnsan Qardaşlığı Mükafatı"na Azərbaycan Liderinin layiq görülməsi Prezidentin dünyada olan nüfuzundan və Azərbaycan xalqının Şanlı Zəfərinin nümunə olduğundan xəbər verir.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda görülən işləri öz hesabına həyata keçirdiyini vurğulayan A.Badamov deyib ki, dövlətimiz investorları və qlobal aktorları regiona dəvət edir, quruculuq prosesində əməkdaşlıq ruhunu təşviq edir: "Dünya sanki bir burulğandan keçir. Belə bir vəziyyətdə sabitlik dövlətlər üçün ən böyük sərvət qismində çıxış edir. Bu reallıqlar kontekstində düşmənçiliyə son qoymaq, sülhə nail olmaq və bunu dayanıqlı hala çevirmək hər siyasətçinin bacaracağı iş deyil. Azərbaycan Lideri isə hər zaman olduğu kimi, bu çətin missiyanın da öhdəsindən son dərəcə uğurla gəlir".

Deputat sonda qeyd edib ki, Azərbaycan dünyada sülhün və həmrəyliyin davamlı xarakter almasında maraqlıdır. Bu, xalqımızın sülhsevər niyyətindən bir daha xəbər verir.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "ABŞ ilə Azərbaycan arasında davamlı etimadın artdığını görəcəyik"

**"Dəhliz və ölkələr arasında digər münasibətlər inkişaf etdikcə, ABŞ ilə Azərbaycan və Ermənistan arasında davamlı etimadın artdığını görəcəyik".**




Bu sözləri AZƏRTAC-a açıqlamasında Xəzər Siyasət Mərkəzinin tədqiqat direktoru Erik Rudenşold deyib. O, TRIPP layihəsi ilə bağlı imzalanmış çərçivə sənədinin çox böyük əhəmiyyət kəsb etdiyini və bir sıra növbəti addımları müəyyən etdiyini bildirib.

"Son bir neçə ayda region ölkələri arasında gömrük, enerji və qida baxımından əməkdaşlığın gücləndiyini gördük ki, bu da paytaxtlarda bir-biri ilə əlaqə qurmaq istəyinin artdığını göstərir. TRIPP layihəsi göstərir ki, Vaşinqton uzun müddətdir davam edən bu problem üzərində işləmək və həll yolunu tapmağa kömək etmək üçün davamlı öhdəlik və iştiraka malikdir. Mən qarşıdakı ilə çox nikbin baxıram. Düşünürəm ki, biz bəzi yaradıcı həllərə şahid olacağıq", - deyə ekspert əlavə edib.




**"Bu, son dərəcə vacib və qeyri-adi bir görüşdür. Bu, ilk birgə tədbir olmaqla yanaşı, həm diqqətəlayiq, həm də olduqca sevindirici bir hadisədir".**

## Azərbaycanın və Ermənistanın əldə etdiyi nəticələr dünya üçün nümunəvi xarakter daşıyır

Bu fikri Berlində "Cənubi Qafqazda dönüş nöqtəsi: Azərbaycan və Ermənistan arasında tarixi sülh" mövzusunda keçirilən konfransda iştirak edən Münxen Lüdviq-Maksimilian Universitetinin professoru Karsten Fişer AZƏRTAC-a açıqlamasında deyib.

Görüşün dünyada çoxsaylı münaqişələrin hökm sürdüyü bir şəraitdə keçirilməsini xüsusi vurğulayan professor bildirib: "Bu görüşü xüsusilə əhəmiyyətli edən məqam ondan ibarətdir ki, o, artıq razılaşdırılmış və həyata keçirilmiş sülh tədbirləri fonunda baş tutub. Məhz bu səbəbdən o, çoxsaylı münaqişələrin hökm sürdüyü bir dövrdə həm seçilən, həm də nadir xarakter daşıyan bir hadisəyə çevrilib. Azərbaycanın və Ermənistanın bu çərçivədə əldə etdikləri nəticələr bütün dünya üçün nümunəvi xarakter daşıyır. Məhz bu məsələləri biz ətraflı təhlil etdik və qarşılıqlı anlaşma şəraitində geniş müzakirələr apardıq. Məqsədimiz bu prosesi gələcəkdə də ardıcıl şəkildə davam etdirməkdir".

Qeyd edək ki, Almaniyada bu formatda ilk dəfə təşkil olunan tədbirdə bu ölkənin hökumət təmsilçiləri, Bundestaqın üzvləri, ekspertlər, jurnalistlər, Almaniyanın siyasi, iqtisadi və elmi həyatında tanınmış şəxslər iştirak ediblər. Tədbirdə Almaniyanın xarici işlər naziri Yohan Vadeful, Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet, eləcə də Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev və Ermənistanın Almaniyadakı səfiri Viktor Yengibaryan çıxış ediblər.

# Baş Prokurorluqda 2025-ci ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə dair geniş kollegiya iclası keçirilib

**Yanvarın 28-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Prokurorluğu orqanları tərəfindən 2025-ci ildə qanunla prokurorluq orqanlarının səlahiyyətinə aid bütün fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**






Baş Prokurorluğun kollegiya üzvləri tərəfindən ilk öncə Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, xatirəsi böyük ehtiramla anılıb.

Həmçinin iştirakçılar tərəfindən kollegiya iclasının başlanğıcında Ümummilli Lider Heydər Əliyevin, vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Giriş nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev 2025-ci ilin dövlətimiz və xalqımız üçün bir neçə mənada rəmzi əhəmiyyət kəsb etməsi ilə yanaşı, eyni zamanda mühüm tarixi, siyasi və iqtisadi əhəmiyyətə malik hadisələrlə zəngin bir il olduğunu qeyd edib.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə təsadüf edən 2025-ci ilin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı əsasında Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi, ali qanunumuz olan, müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulunun 30, habelə ərazi bütövlüyü və suverenliyimizin bərpası uğrunda aparılmış şanlı mübarizədə əldə etdiyimiz tarixi Zəfərin 5 illiyinin məhz həmin ilə təsadüf etməsi onu bizlər üçün rəmziləşdirib və tarixi anlamına dəyər qatıb.

Vurğulanıb ki, dövlətimizə və xalqımıza tarixi Zəfər sevinci yaşatmaqla, ərazi bütövlüyümüzü və suverenliyimizi uzun illər sonra bərpa etmiş Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində mürəkkəb beynəlxalq şəraitə baxmayaraq, 2025-ci ildə də ölkəmiz beynəlxalq siyasi arenada mühüm nailiyyətlər əldə edib, iqtisadi əməkdaşlığın inkişafı istiqamətində mühüm nəticələrə nail olunub.

Belə ki, bir çox xarici dövlətlərin rəhbər şəxslərinin iştirakı ilə 8 noyabr 2025-ci ildə Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi parad keçirilməsi əldə etdiyimiz tarixi qələbənin əbədiləşdirilməsi ilə yanaşı, dövlət suverenliyimizin əsas təminatçısı olan peşəkar şəxsi heyətdən və müasir dövrün tələbinə cavab verən silah və texnika ilə təchiz edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi potensialının inkişaf səviyyəsinə və qüdrətinə bariz göstərici olub.

Bundan əlavə, 2025-ci ilin avqust ayının 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanması və bunun nəticəsi olaraq hər iki dövlət arasında vaxtılə aşılmaz bir mane olaraq görülən iqtisadi əməkdaşlıq və nəqliyyat əlaqələrinin qurulması istiqamətində ilkin addımların atılması ölkə rəhbərinin başçılığı altında həyata keçirilən xarici siyasətin qüdrətinin növbəti təzahürü, dövlətimizin beynəlxalq siyasi müstəvidə və diplomatiya sahəsində əldə etdiyi uğurlarının kulminasiya nöqtəsi olub.

Qeyd olunub ki, bu nailiyyət ölkəmizin və xalqımızın gələcək təhlükəsizliyinə hesablanmaqla uzun illər ikili siyasət zəminində müzakirə predmeti olmuş milli maraqlarımızın beynəlxalq hüquqi müstəvidə rəsmiləşdirilməsini təmin etməklə yanaşı, həmçinin regional iqtisadi münasibətlərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

1992-ci ildən ABŞ hökumətinin Azərbaycana birbaşa dövlət yardımını qadağan edən "Azadlığa Dəstək Aktı"na daxil edilmiş 907-ci düzəlişin tətbiqinin dayandırılması ilə bağlı Prezident cənab İlham Əliyevin iştirakı ilə ABŞ Prezidenti Donald Tramp tərəfindən sənəd imzalanması dövlətimizə qarşı sərgilənmiş ədalətsizlik üzərində əldə edilmiş növbəti tarixi qələbə kimi dəyərləndirilmişdir.

Eyni zamanda təsis edildiyi vaxtdan münaqişənin həllinə töhfə vermək əvəzinə prosesin uzadılmasına xidmət edən ATƏT-in Minsk qrupunun ləğvinə nail olunması cənab Prezident İlham Əliyevin növbəti diplomatik uğurudur.

19 dekabr 2024-cü il tarixində Misir Ərəb Respublikasının Qahirə şəhərində keçirilmiş D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Azərbaycan Respublikasının yekdilliklə bu nüfuzlu beynəlxalq təşkilata üzv qəbul edilməsi, 7 mart 2025-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həmin üzvlüyün ratifikasiya edilməsi ilə ölkəmiz D-8 İqtisadi Əməkdaşlıq Təşkilatında tamhüquqlu üzv statusu qazanmaqla dünya iqtisadiyyatına inteqrasiya üçün böyük imkanlar əldə edib.

Baş prokuror çıxışında 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında görülmüş işlərə toxunaraq Prezident cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə hər il olduğu kimi, 2025-ci ildə də həmin ərazilərin bərpası və inkişafı istiqamətində mühüm işlər görüldüyünü, həmin torpaqların əzəli sahiblərinin mərhələli şəkildə azad edilmiş ərazilərə qayıtmalarını diqqətə çatdırıb.

Təəssüf hissilə qeyd edilmişdir ki, 2025-ci ildə mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 33 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 2020-ci ilin noyabr ayından hazırkı vaxtadək isə ümumilikdə 417 şəxs bu hadisələrin qurbanı olmuş, onlardan 71 nəfəri həlak olmuş, 346 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, cari ildə ölkə ərazisində 31852 cinayət qeydə alınmaqla onların 90,5 %-nin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 15766 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 1063-ü prokurorluq orqanlarında istintaq edilib.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 700, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 11934 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan rədd edilmiş materiallar üzrə ümumilikdə 435 milyon 191 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 59,5 %-nin, yəni 259 milyon 95 min manat hissəsinin ödənilməsinə nail olunub.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 94 milyon 817 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 32 milyon 635 min manat hissəsinin ödənilməsinə nail olunmuş, 82 milyon 400 min manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulub.

Bundan başqa, cinayət-prosessual qanunvericiliyinin tələblərinə əsasən, icraatına xitam verilmiş cinayət işləri üzrə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 5 milyon 172 min manat pul vəsaiti ödənilməklə, həmin məbləğin 4 milyon 855 min manatı prokurorluq orqanlarında istintaqı aparılmış işlər olub.

Məlumat verilib ki, 2023-cü ildən prokurorluq orqanlarında tətbiq edilən "Elektron prokurorluq" informasiya sistemi ötən müddət ərzində daha da inkişaf etdirilmiş, prokurorluğun bütün qurumları üzrə istifadəsinə şərait yaradılmaqla digər informasiya sistemlərinə inteqrasiyası təmin olunmuş, xidməti fəaliyyətin icrası məqsədilə 47 modul yaradılmaqla istifadəyə verilib.

"Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN) tərəfindən təqdim olunan "Ən yaxşı antikorrupsiya təşəbbüsü" layihəsi üzrə Elektron Prokurorluq" informasiya sisteminin fəaliyyəti yüksək innovasiya kimi qiymətləndirilərək beynəlxalq sertifikata layiq görülüb.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 83 şəxs barəsində 61 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilmiş, bunlardan 6 şəxs barəsində 5 iş qəsdən adam öldürmə faktları ilə bağlı olub.

Kollegiya iclasında daxili işlər orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 4 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə həmin işlər üzrə ibtidai istintaqın davam etdirildiyi xüsusi vurğulanıb.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 1389 apellyasiya və 406 kassasiya protestləri verilmiş, 766 apellyasiya protesti və 74 kassasiya protestləri təmin olunmaqla nəticədə yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin olunub.

Cari il ərzində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 953 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin növbəti təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında 19 dekabr 2025-ci il tarixli Qərarın icrası istiqamətində görülən işlər barədə danışarkən baş prokuror Kamran Əliyev bildirib ki, həmin qərar ibtidai istintaq və məhkəmə baxışı mərhələsində olan cinayət işləri üzrə 429, habelə məhkum edilmiş 14160 şəxs barəsində tətbiq edilməklə ümumilikdə 14589 şəxsə şamil olunub.

2025-ci ildə prokurorluq orqanlarında cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 3066 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, hesabat dövründə Baş Prokurorluğun "Çağrı Mərkəzi"nə daxil olmuş müraciətlərdən 28183 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 4488 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılmış və həmin məlumatlar üzrə cinayət işləri başlanmış, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülüb.

Hesabat dövründə valideynlik vəzifələrini yerinə yetirməyən, tüfeyli həyat tərzi keçirən, həmçinin zərərli vərdişləri ilə əlaqədar himayələrində olan azyaşlı uşaqlarının həyatlarını təhlükəyə atan valideynlərə qarşı valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı 11 mülki iddia (16 uşağın 14 valideyni barəsində) qaldırılıb, həmin iddiaların 5-i təmin edilib, 6-sı isə hazırda məhkəmə baxışındadır.

Kollegiya iclasında qeyd edilib ki, ötən ildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 25 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 1-nə irad tutulub, 13-nə töhmət və ya şiddətli töhmət elan edilib, 5 nəfər vəzifədən azad edilib, 6 nəfər isə prokurorluq orqanlarından xaric edilib.

Baş prokuror bildirib ki, 2025-ci ildə prokurorluq orqanları tərəfindən ölkəmizdə bir sıra beynəlxalq tədbirlərin keçirilməsi təşkil edilmişdir. Belə ki, 2025-ci ilin 20 - 23 may tarixlərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - GlobE Network - çərçivəsində Altıncı Plenar İclasın Bakı şəhərində yüksək səviyyədə təşkil olunması həm ölkəmizin beynəlxalq arenada artan nüfuzuna, həm də Azərbaycan Prokurorluğunun beynəlxalq əməkdaşlıq sahəsində əldə etmiş olduğu müsbət nailiyyətlərə bariz nümunə hesab oluna bilər.

Tədbirə 92 ölkədən 120-dən artıq dövlət qurumunu təmsil edən nümayəndələr, o cümlədən prokurorluq orqanları, müstəqil antikorrupsiya təşkilatları və beynəlxalq institutlar qoşulub, ümumilikdə 300-dən çox nümayəndə tədbirə fiziki olaraq qatılmış və 100-dən çox çıxış ilə 20-dən çox panel müzakirə olunub.

Həmçinin 2025-ci ilin avqust ayının 22-də Laçın rayonunda xarici qonaqların iştirakı ilə "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir", sentyabr ayının 22-də isə Uqanda, Laos, Tanzaniya, Keniyanın prokurorluq qurumlarının rəhbərləri və Türkiyə Baş Prokurorluğunun nümayəndələrinin iştirakı ilə paytaxt Bakı şəhərində Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfranslar keçirilmişdir.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə 65 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Vurğulanıb ki, 2025-ci ildə də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və qazilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Bu müddətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq baş prokuror tərəfindən 26 şəhər və rayonlarda, o cümlədən Bakı şəhərinin rayonlarında 950-dən artıq vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmiş, həmçinin təsərrüfat, əmlak, mülki xarakterli mübahisələrə və sosial məsələlərə dair müraciətlərin müvafiq mərkəzi, yerli icra hakimiyyəti və məhkəmə orqanlarında zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilməsi təmin edilib.

Hesabat dövründə Elm-Tədris Mərkəzi tərəfindən ölkədaxili aparıcı təhsil müəssisələri, xarici ölkələrin prokurorluq, ədliyyə orqanlarının nəzdində fəaliyyət göstərən təhsil mərkəzləri ilə əməkdaşlıq münasibətlərinin uğurla davam etdirildiyi, prokurorluq və digər qurumların əməkdaşları üçün maarifləndirmə, yaxud təcrübə mübadiləsinə xidmət edən çoxsaylı seminar və treninqlərin keçirildiyi, həmçinin müxtəlif məzmunda metodiki vəsaitlərin hazırlanmaqla dərc edildiyi diqqətə çatdırılıb.

2025-ci il ərzində Baş prokuror yanında Elmi-Məsləhət Şurasının fəaliyyəti yüksək qiymətləndirilməklə qanunvericiliyin inkişafı, hüquqi təcrübədə rast gələnən ziddiyyətlərin həlli, eləcə də bu kimi digər əhəmiyyət kəsb edən sahələrdə Şura üzvləri tərəfindən göstərilmiş təşəbbüskarlıq xüsusi olaraq qeyd edilib.

Eyni zamanda kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Baş prokuror tərəfindən prokurorluq əməkdaşlarına Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılmış mübarizədə şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə həssaslıqla yanaşılması, qeyd edilən kateqoriyadan olan vətəndaşların qəbulunun dərhal təmin edilməsi və onların müraciətlərinə təxirəsalınmadan baxılması və diqqət göstərilməsinin vacibliyi xüsusi olaraq vurğulanıb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə cari ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Baş prokuror ictimaiyyətin maarifləndirilməsi, əhalinin hüquqi savadlılığının artırılması məqsədilə hazırlanmaqla icraya yönəldimiş "Prokurorluq orqanlarının 2026-cı ildə ictimaiyyətin maarifləndirilməsinə dair Yol Xəritəsi"nin əhəmiyyətini, Yol Xəritəsində yer almış hər bir tədbirin önəm kəsb etməsini xüsusi vurğulamaqla onların təxirə salınmadan müəyyən olunmuş müddətlərdə icrası ilə bağlı müvafiq göstəriş verib.

Daha sonra baş prokurorun birinci müavini Elçin Məmmədov, baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov tərəfindən edilmiş çıxışlar zamanı hesabat dövründə cavabdeh olduğu sahələr üzrə görülmüş işlər, əldə olunmuş uğurlar və yol verilmiş nöqsanlar diqqətə çatdırılıb.

İclasda çıxış edən Xızı rayon prokuroru Xəyalə Aslanova və Kəlbəcər rayon prokuroru İlkin İsmayılov tərəfindən hesabat dövründə qeydə alınmış cinayət hadisələri, onların istintaqı vəziyyəti, xidməti fəaliyyət zamanı rastlaşılan çətinliklər ətrafında məruzələr edilib.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev qanunun aliliyinin təminatçısı qismində hər zaman əzmlə xidmət aparan prokurorluq əməkdaşlarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında icra edilən dövlət siyasətinin uğurla davam etdirilməsinin əsas təminatçılarından olmaqla, ölkədaxili ictimai-siyasi sabitliyə, ərazi bütövlüyü və suverenliyimizə qarşı yönələn istənilən cinayətkar ünsürə qarşı qətiyyətlə mübarizə aparacaqlarına, bu məqsədlə qanunla üzərlərinə qoyulmuş vəzifələrin layiqli icrası üçün bütün bilik və peşə bacarıqlarını səfərbər edəcəklərinə, cari ildə yeni uğur və nailiyyətlərə imza atacaqlarına əminliyini ifadə edib.

## BƏƏ-nin "Masdar" enerji şirkəti 20 illik yubileyini qeyd edib

**Dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda "yaşıl enerji" layihələrinə sərmayə qoyan "Masdar" şirkətinin 20 illik yubileyini və Əbu-Dabi Davamlılıq Həftəsinin uğurla başa çatmasını qeyd etmək üçün "Qəsr Əl-Bəhr" sarayında Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın iştirakı ilə tədbir keçirilib.**



AZƏRTAC rəsmi "Emirates" agentliyinə istinadla xəbər verir ki, BƏƏ Prezidenti şirkətin nümayəndə heyətini bu əlamətdar hadisə münasibətilə təbrik edib və beynəlxalq tərəfdaşlığı inkişaf etdirmək, dünyada davamlı inkişafı təşviq etmək öhdəliyini əks etdirən "Masdar"ın əməkdaşlarına təşəkkürünü bildirib. O, həmçinin şirkətin BƏƏ-nin daha geniş davamlılıq gündəliyinə verdiyi töhfəni və beynəlxalq iqlim tədbirlərini dəstəkləmək, hamının rifahı naminə inkişaf problemlərini həll etmək səylərini vurğulayıb.

Tədbirdə qeyd olunub ki, son 20 ildə "Masdar" sürətlə böyüyərək dünyanın ən böyük bərpaolunan enerji şirkətlərindən birinə çevrilib və 45-dən çox ölkədə innovativ layihələrin qlobal portfelinə malikdir. Bu layihələr şirkətin enerji sektorunun transformasiyasında əsas oyunçu kimi mövqeyini möhkəmləndirməyə kömək edib.

BƏƏ tərəfindən dünyanın ən aktual davamlılıq problemlərini həll etmək üçün yaradılan və qlobal platforma olan Əbu-Dabi Davamlılıq Həftəsi hər il "Masdar" şirkəti tərəfindən təşkil olunur. Həftəyə BƏƏ Prezidenti tərəfindən qabaqcıl davamlılıq həllərini mükafatlandırmaq üçün təsis edilən qlobal mükafat - "Zayed Davamlılıq Mükafatı", eləcə də məsuliyyətli inkişafın sürətləndirilməsinə və inklüziv iqtisadi, sosial və ekoloji tərəqqinin təşviqinə yönəlmiş bir sıra forum və təşəbbüslər daxildir.

## Azərbaycan və Türkiyənin Sülh Şurasında iştirakı iki dövlətin qlobal siyasətdəki rolunu daha da artıracaq

**"Azərbaycan ilə Türkiyənin ABŞ Prezidenti Donald Trampın təklif etdiyi Sülh Şurasına qatılması hər iki müttəfiq dövlətin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, qlobal siyasətdəki rolunu da artıracaq".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi şərhçi Yakub Aslan deyib.

O bildirib ki, dünyada cərəyan edən geosiyasi proseslərdə Türkiyə ilə Azərbaycanın rolu artmaqdadır.

"ABŞ Prezidenti bu iki dövləti təsadüfən şuraya dəvət etməyib. Rəsmi Vaşinqtonda Türkiyə ilə Azərbaycanın çox yaxın strateji müttəfiq olaraq Cənubi Qafqaz və Yaxın Şərq regionunda güc mərkəzi olduğunu düzgün qiymətləndirirlər. Bu güc mərkəzinin Sülh Şurasında təmsil olunması onun qüdrətini artırmaqla yanaşı, qərarlarının da həyata keçməsini təmin edəcək. ABŞ Prezidenti Qəzza bölgəsini bərpa etmək və regionda davamlı sülhə nail olmaq istəyir və bu işdə Azərbaycan ilə Türkiyəni də yanında görmək istəyir. Hər iki dövlətin iqtisadi qüdrəti və hərbi potensialı qlobal siyasi məsələlərin həll olunmasında iştirakına imkan verir.

Azərbaycanın 44 gün ərzində torpaqlarını azad etməsi, Türkiyənin isə Suriyada terror qruplarını zərərsizləşdirməsi bu potensialı ortaya qoydu. Bütün beynəlxalq məsələlərdə vahid mövqedən çıxış edən Türkiyə və Azərbaycan Sülh Şurasında da koordinasiyalı addımlar ataraq beynəlxalq xarakterli missiyada iştirak edəcəklər", - deyə siyasi ekspert əlavə edib.

## "907-ci düzəliş birdəfəlik aradan qaldırılmalıdır"

**"907-ci düzəliş Azərbaycan və ABŞ arasında münasibətlərin erkən dövrünün qalığıdır və nəinki hər il uzadılmalı, birdəfəlik aradan qaldırılmalıdır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Saratoqa Fondunun prezidenti Qlen Hovard deyib. O bildirib ki, sənəd artıq köhnəlib və istifadə müddətini bitirib.

"Çünki Azərbaycanla Ermənistan arasında dinc münasibətlər inkişaf edir. İki ölkə arasında ticarət mövcuddur, Azərbaycan taxıl və enerji təchiz edir. Yeni münasibətlər sürətlə normallaşır. Ona görə də 907-ci düzəliş öz aktuallığını və ABŞ üçün əhəmiyyətini itirib. Deməli, onun aradan qaldırılmasının vaxtıdır", - deyə ekspert əlavə edib.

# Ağ Evin Cənubi Qafqaz prioritetləri

## ABŞ vitse-prezidentinin Azərbaycana gözlənilən səfəri yeni mərhələyə keçidin təsdiqidir

**Azərbaycan və Amerika Birləşmiş Ştatları arasındakı diplomatik münasibətlər 2026-cı ildə özünün ən dinamik və həlledici mərhələsinə qədəm qoyur. İki ölkə arasındakı strateji bağların dərinləşməsi fonunda atılan addımlar Vaşinqtonun Cənubi Qafqazda dəyişən prioritetlərinin ən bariz göstəricisidir.**



ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin fevral ayında Azərbaycana planlaşdırılan səfəri nəinki ikitərəfli əlaqələri strateji tərəfdaşlıq zirvəsinə daşıyır, həm də Bakının qlobal təhlükəsizlik və iqtisadiyyat sistemindəki əvəzedilməz rolunu bir daha təsdiqləyir. ABŞ Prezidenti Donald Tramp "Truth" sosial şəbəkəsində yazıb ki, Vensin bölgəyə səfəri Azərbaycan və Ermənistan arasında sülh prosesinin daha da irəli aparılmasına, eləcə də "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlanan layihənin sürətlənməsinə yönəlib. Tramp vurğulayıb ki, ABŞ Azərbaycanla strateji tərəfdaşlığını gücləndirmək, sülh təşəbbüsləri və iqtisadi layihələr sahəsində əməkdaşlığı inkişaf etdirmək niyyətindədir. Bundan əlavə, Ağ Ev rəhbəri ABŞ-nin Azərbaycana zirehli geyimlər, qayıqlar və digər məhsullar da daxil olmaqla ABŞ istehsalı olan müdafiə avadanlıqları satmağı planlaşdırdığını açıqlayıb.

ABŞ-nin yüksək ranqlı rəsmisinin Azərbaycana gözlənilən səfəri kifayət qədər önəmli hadisə sayılır. Xatırladaq ki, sonuncu dəfə 2008-ci ildə, 18 il öncə ABŞ-nin ozamankı vitse-prezidenti Dik Çeyni Azərbaycana səfər edib. 18 ildən sonra Ağ Evin ikinci adamının Bakıya gəlməsi Azərbaycanın regionun lider dövləti olduğunu Vaşinqtonun rəsmən qəbul etməsi anlamına gəlir. Bu, sadəcə bir vitse-prezidentin regiona səfəri yox, həm də Ağ Evin Cənubi Qafqazdakı prioritetlərinin kökündən dəyişdiyinin siqnalıdır. Bakının uzun illər boyu Qərbin bəzi ölkələrinin və təsisatlarının qərəzli yanaşmasına, ədalətsiz mövqeyinə məruz qalması sirr deyil. Vensin gəlişi Vaşinqtonun tərəfsiz və real tərəfdaş imicini bir daha təsdiqləyəcək.

Trampın qeyd etdiyi ABŞ istehsalı olan hərbi avadanlıqların Azərbaycana satışı Bakı üçün əhəmiyyətli bir yenilikdir. Uzun illər boyu müxtəlif qanunvericilik aktları və siyasi lobbi fəaliyyətləri Azərbaycana ABŞ mənşəli hərbi texnikanın ixracını məhdudlaşdırırdı. Vensin səfər planı faktiki olaraq Azərbaycana hərbi yardımı məhdudlaşdıran baryerlərin Tramp administrasiyası tərəfindən praktikada ləğv edildiyini göstərir. Həmçinin Vaşinqtonun Bakıya olan etimadının artdığını, Azərbaycanın Xəzər hövzəsində və Cənubi Qafqazda təhlükəsizlik donoruna çevrildiyini simvolizə edir. Azərbaycanın silah arsenalının diversifikasiyası baxımından ABŞ texnologiyasına çıxış əldə etməsi Bakının əlini həm masada, həm də sahədə gücləndirir. Xüsusilə kəşfiyyat, rabitə və fərdi mühafizə sahəsində ölkəmizin manevr qabiliyyətini artırır. Ən əsası isə regional rəqiblər və maraqlı tərəflər üçün Azərbaycanın hərbi təchizat coğrafiyasının genişlənməsi ciddi çəkindirici faktor rolunu oynayır.

Ötən ilin 8 avqustunda Vaşinqtonda tərəflər arasında əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinin təməli qoyuldu. Bu yeni səhifənin ən bariz göstəricilərindən biri Ağ Evdə imzalanan Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Anlaşma Memorandumudur. Bu sənədlə yaradılmış Strateji İşçi Qrupu hər iki paytaxtın əlaqələri rəsmi olaraq strateji tərəfdaşlıq zirvəsinə daşımaqda qərarlı olduğunu nümayiş etdirir. Maraqlı məqamlardan biri odur ki, Vensin Azərbaycana gözlənilən səfəri ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasının imzalanacağı dövrə təsadüf edir. Azərbaycan Prezidenti İlham Əliyev Davos İqtisadi Forumunda strateji tərəfdaşlıq xartiyasının yekunlaşmaq üzrə olduğunu, imzalanmasının növbəti ayda, yəni fevralda baş tuta biləcəyini vurğulamışdı. Vaşinqtonla münasibətlərin istiləşməsini sübut edən digər fundamental məqam Donald Tramp tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılmasıdır. Hazırda bu diskriminativ maddənin tamamilə ləğv edilməsi üçün intensiv diplomatik iş aparılır. Prezident İlham Əliyev ilə Donald Tramp arasında Davos Forumu çərçivəsində baş tutan görüş əlaqələrin gələcək dinamikasını müəyyənləşdirdi. Görüşdə xüsusilə vurğulandı ki, enerji təhlükəsizliyi və terrorizmə qarşı birgə mübarizə əməkdaşlığın onurğa sütununu təşkil edir. Beynəlxalq sabitliyin qorunmasında Azərbaycanın rolu Vaşinqton tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın ABŞ Prezidentinin şəxsi dəvəti ilə Sülh Şurasına təsisçi üzv kimi daxil olması da Bakının artan geosiyasi çəkisinin təsdiqidir.

Vensin Bakıya gözlənilən səfəri və Azərbaycan-ABŞ yaxınlaşması Ermənistandakı müəyyən siyasi dairələrdə və revanşist qüvvələrdə ciddi təşvişə səbəb olub. Erməni politoloq Suren Sarkisyan iddia edib ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan lideri ilə Davosda görüşündən öncə vitse-prezident Ceyms Devid Vensin Bakıya səfər məsələsi gündəmdə olmayıb. Onun sərsəmləməsinə görə, Vensin təkcə Ermənistana səfəri gözlənilirmiş: "ABŞ-nin vitse-prezidentinin Bakını ziyarətini xüsusilə izləmək lazımdır". Ermənistandakı radikal dairələr uzun müddətdir ki, ABŞ-nin regiondakı siyasətinin yalnız İrəvanın maraqlarına xidmət edəcəyi barədə illüziya formalaşdırmağa çalışıblar. Vensin Bakı səfəri bu mifi dağıdacaq. Ermənilər üçün Vaşinqtonun Bakını Sülh Şurası və "TRIPP" layihəsi kimi qlobal təşəbbüslərdə əsas tərəfdaş seçməsi diplomatik balansın tamamilə Azərbaycanın xeyrinə dəyişməsi deməkdir.

Ermənistan daxilindəki müəyyən qrupları narahat edən mühüm məqamlardan biri də Donald Trampın Prezident İlham Əliyevin liderlik keyfiyyətlərinə verdiyi yüksək qiymətdir. Bu, Ermənistanın "Qərblə yalnız biz dil tapırıq" tezisini tamamilə alt-üst edir və Bakının həm Şərq, həm də Qərb üçün əvəzedilməz strateji mərkəz olduğunu sübuta yetirir.

Nəticə etibarilə, Azərbaycanın apardığı məqsədyönlü sülh siyasəti ilə Donald Trampın qlobal barışıq çağırışları eyni müstəvidə kəsişir. ABŞ vitse-prezidentinin Bakıya səfəri Prezident İlham Əliyevin şəxsi nüfuzunun və onun yaratdığı yeni regional reallıqların beynəlxalq səviyyədə tanınmasıdır. İki ölkə arasında münasibətlərin dinamik inkişafı dünyanın super gücünün dövlət başçısı tərəfindən Azərbaycan liderinin ünvanına səslənən yüksək fikirlərlə daha da möhkəmlənir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Prezident İlham Əliyev Azərbaycanı strateji mövqeyə çıxarıb"

**"Sülh Şurası təşəbbüsünə qoşulan ölkələr arasında Azərbaycan xüsusi yer tutur. Bu addım Azərbaycanın son dərəcə çətin, lakin uzaqgörən qərarının müdrikliyini bir daha təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibə və dağıntıların bəşəriyyət və Yer kürəsi üçün dözülməz olduğunu yaxşı bilən və qəbul edən ən praqmatik lider kimi ön plana çıxır".**



Bunu AZƏRTAC-a açıqlamasında Dini Azadlıq üzrə Amerika Mərkəzinin baş icraçı direktoru, ABŞ Daxili Təhlükəsizlik Departamentinin sabiq direktor müavini Janna Skot deyib.

J.Skot qeyd edib ki, Prezident İlham Əliyev mövcud reallıqlarla məhdudlaşmayan, geniş perspektivə əsaslanan liderlik baxışı nümayiş etdirib: "Otuzillik müharibədən sonra ölkəsinin ərazi bütövlüyünü tam bərpa edən bir lider kimi Prezident Əliyev bu addımın Azərbaycan xalqının gələcəyi üçün əhəmiyyətini yaxşı başa düşür. O, digər dünya liderləri ilə birgə "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanması mərasimində iştirak edərək Azərbaycanı qlobal dəyişikliklər dövründə strateji mövqeyə çıxarıb. Prezident İlham Əliyev Azərbaycanın Sülh Şurasındakı iştirakının gələcək nəsillər üçün uzunmüddətli və müsbət təsir yaradacağını bilir".

# "Ankara ilə Bakı arasındakı birliyə zərbə vurmaq cəhdləri uğursuzluğa məhkumdur"

**"Bəzi xarici media orqanları və fərdi sosial media istifadəçiləri tərəfindən yayılan dezinformasiya Türkiyə-Azərbaycan münasibətlərinə zərər verməyi hədəfləyir. Müəyyən dairələrin yaydığı bu yanlış məlumatlar Ankara ilə Bakı arasındakı birliyə zərbə vurmaq cəhdidir və bu cəhdlər uğursuzluğa məhkumdur.**



Bu sözləri AZƏRTAC-a açıqlamasında türk jurnalist Zəki Gümüş söyləyib.

O bildirib ki, Türkiyə və Azərbaycan beynəlxalq arenada, müxtəlif platformalarda və ittifaqlarda hər zaman birgə hərəkət edir və ortaq mövqedən çıxış edirlər. Dezinformasiya yayanların məqsədi Bakı ilə Ankara arasında süni gərginlik yaratmaq, soyuqluq formalaşdırmaq və birgə hərəkəti zəiflətməkdir.

"Ancaq Türkiyə ilə Azərbaycan arasındakı dostluq və birlik o qədər güclüdür ki, bu cür cılız dezinformasiya cəhdləri onu sarsıda bilməz. Bu kimi fitnə xarakterli yanaşmalar iki ölkə arasındakı əməkdaşlığı və qarşılıqlı etimadı sarsıda bilməz, əksinə, daha da gücləndirir. Türkiyə və Azərbaycan prezidentləri dostluq münasibətlərini təkcə siyasi səviyyədə deyil, şəxsi və səmimi münasibətlər çərçivəsində də inkişaf etdirən liderlərdir. Bu birliyi pozmağa çalışanlar hər iki tərəfin düşmənidir. Onlar Ankara ilə Bakının birlikdə hərəkət etməsini istəmirlər. Çünki iki dövlət birlikdə hərəkət etdikdə beynəlxalq arenada daha güclü mövqeyə sahib olurlar", - deyə Z.Gümüş vurğulayıb.

Türk jurnalist əlavə edib ki, bu gün dünyada açıq şəkildə bloklaşmalar mövcuddur. Müxtəlif güc mərkəzləri öz ittifaqlarını formalaşdırırlar. Türkiyə və Azərbaycan da türk dövlətləri ilə birlikdə bu qlobal sistemdə möhkəm əməkdaşlıq və güclü dostluq nümunəsi ortaya qoyur. Əlbəttə, zaman-zaman sosial mediada və bəzi media orqanlarında cılız səslər eşidilə bilər. Bu, gözləniləndir. Lakin hazırkı şəraitdə Türkiyə ilə Azərbaycan arasında nifaq salmaq, bu tarixi qardaşlığı zədələmək mümkün deyil. Çünki aramızda dərin tarixi bağlar, möhkəm dostluq və sarsılmaz birlik var. Gələcəkdə bu əməkdaşlıq daha da güclənəcək və iki ölkə birlikdə çox uğurlu işlərə imza atacaq.

Bir məsələni xüsusi olaraq vurğulamaq istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasındakı əsas şüar "Bir millət, iki dövlət" prinsipinə əsaslanır. Burada "iki dövlət" ifadəsini xüsusilə qeyd etmək lazımdır. Türkiyə və Azərbaycan müstəqil dövlətlərdir və öz siyasətlərini milli maraqları əsasında müəyyən etmək hüququna malikdirlər. Bu baxımdan, istər daxili siyasətdə, istərsə də xarici siyasətdə müəyyən mövzularda fərqli qərarların verilməsi tamamilə təbiidir. Dövlətlərin qarşılıqlı əməkdaşlıqları, ticarət əlaqələri, iqtisadi münasibətləri mövcuddur və bu çərçivədə fərqli addımlar ata bilərlər. Lakin bu, Azərbaycanın, yaxud Türkiyənin hansısa addım atdığı zaman bir-birinin maraqlarını nəzərə almadığı, yaxud münasibətlərə zərər verəcəyi anlamına gəlmir".

# Heç kim uğurlarımıza kölgə sala bilməz

## Dezinformasiya yaymaqla ölkəmizi hədəfə alanların məkrli niyyətləri iflasa məhkumdur

**Günümüzdə rəqəmsal texnologiyaların sürətli inkişafı informasiya mühitinin də genişlənməsinə səbəb olub. Lakin bu, həm də manipulyasiya və dezinformasiyaların yayılması üçün yeni imkanlar açıb. Faktdır ki, qlobal informasiya müharibəsinin əsas vasitələrindən biri ölkələrin daxili və xarici təhlükəsizliyini təhdid edən dezinformasiyadır. Mövcud reallıqları təhrif etmək, ictimai rəyi çaşdırmaq və beynəlxalq imicə zərbə vurmaq məqsədilə saxta məlumatlar, feyk xəbərlər rəqəmsal texnologiyalar vasitəsilə sürətlə yayılır. Bu üsulların məqsədi yalnız saxta məlumatların yayılması deyil, həm də ictimai rəyin formalaşdırılmasına təsir göstərmək, beynəlxalq ictimaiyyətdə şübhə yaratmaq və siyasi qərarların qəbuluna dolayı yolla təsir etməkdir.**




Bu mənada Azərbaycanın da intensiv və sistemli şəkildə dezinformasiya hücumlarına məruz qalması həm diqqət çəkir, həm də müəyyən suallar doğurur.

Bu günlərdə Davosda Dünya İqtisadi Forumu "Qlobal Risklər Hesabatı"nı ("Global Risks Report") açıqlayıb. Dezinformasiyanın qlobal miqyasda ciddi təhlükə kimi qiymətləndirildiyi hesabata görə, dezinformasiya, saxta məlumatlar Azərbaycan üçün 2026-cı ildə əsas risk kimi göstərilib.

### Ölkəmizi informasiya müharibəsinin hədəfinə çevirən səbəblər

Azərbaycan daxili inkişafı, beynəlxalq müstəvidə mövqelərinin güclənməsi ilə dünyanın diqqət mərkəzinə çevrilib. Dünyanın enerji təhlükəsizliyində tutduğu yer, qlobal nəqliyyat dəhlizləri üçün körpü rolunu oynaması, yürütdüyü beynəlxalq diplomatik fəaliyyət ölkəmizin strateji əhəmiyyətini daha da artırıb. Bakının postmünaqişə dövründə irəlilətdiyi sülh gündəliyinin uğurlu bəhrələri hazırda regional sabitlik, təhlükəsizlik və əməkdaşlıq mühitinin timsalında özünü göstərir. Qlobal çağırışlara fəal qoşulması, dünya nizamının formalaşdırılmasında birbaşa rol oynaması ilə ön plana çıxan ölkəmiz, həm də çoxqütblü dünyada sərbəst siyasət yürütməsi, Şərqlə Qərb, Şimalla Cənub arasında milli maraqlarının tələb etdiyi qızıl orta və prinsipial mövqe sərgiləməsi sayəsində də diqqətləri üzərinə çəkir. Habelə Azərbaycanın türk dünyasının lokomotivinə çevrilməsi, Orta Asiya, yaxın Şərq, Avropa ölkələri ilə hərtərəfli əlaqələri, dünyanın iqtisadi-siyasi nəhəngləri ABŞ və Çinlə dostluğa və etibarlı tərəfdaşlığa əsaslanan və uğurla inkişaf edən münasibətləri də bunu təsdiqləyir. Bütün bu uğurların fonunda Azərbaycana qarşı dezinformasiya və feyk xəbər kampaniyalarının intensivləşməsi də müşahidə olunur. Yuxarıda misal çəkdiyimiz və daha sadalamadığımız faktorlar bəzi güclər üçün Azərbaycanı informasiya müharibəsinin hədəfinə çevirir. Bu da danılmaz və təəssüfləndirici reallıqdır ki, bir ölkənin uğuru nə qədər çox görünürsə, onun etibarını sarsıtmaq üçün dezinformasiya bir o qədər intensivləşir ki, buna Azərbaycana davamlı edilən informasiya hücumlarının, hibrid müharibələrin timsalında da şahidlik edirik.

Bu günlərdə sosial şəbəkə platformalarında fəaliyyət göstərən bir sıra hesablar vasitəsilə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin adından "deepfake" texnologiyası tətbiq olunmaqla hazırlanmış, reallığı əks etdirməyən və saxta məzmunlu video yayılıb.

Bununla bağlı Medianın İnkişafı Agentliyindən bildirilib ki, süni intellektin köməyi ilə hazırlanmış, ictimai rəyi çaşdırmağa yönələn bu dezinformasiya Azərbaycan ilə Türkiyə arasındakı münasibətləri zədələməyə, iki qardaş ölkə arasında mövcud olan strateji müttəfiqliyə xələl gətirməyə və qarşılıqlı etimadı sarsıtmağa xidmət edir: "Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deepfake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik.

Eyni zamanda sosial şəbəkə platformalarının sahiblərini və müvafiq qurumları zərərli və saxta məzmunun operativ şəkildə aradan qaldırılması, bu tip halların qarşısının alınması üçün effektiv mexanizmlərin tətbiqi istiqamətində tədbirlər görməyə dəvət edirik".

### Sistemli təhlükə mənbəyi

Təbii ki, ölkəmizə qarşı informasiya hücumları bununla məhdudlaşmır və davamlı xarakter daşıyır. "Qlobal Risklər Hesabatı"na görə, dezinformasiya, saxta məlumatlar Azərbaycan üçün bu il əsas risk kimi göstərilib. Bu isə ona qarşı sistemli şəkildə mübarizə aparmağın vacibliyini ortaya qoyur.

Yanvarın 21-də Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təşkilatçılığı, Medianın İnkişafı Agentliyinin və Azərbaycan Mətbuat Şurasının tərəfdaşlığı ilə keçirilən "Dezinformasiya: qlobal miqyasda və Azərbaycan reallığında ən ciddi təhlükə kimi" mövzusunda ictimai müzakirənin də məqsədi dezinformasiyanın müasir dövrdə yaratdığı çağırışların, onun qlobal, regional və milli səviyyələrdə təsirlərinin müzakirə edilməsi və bu çağırışlara qarşı mümkün birgə yanaşmaların qiymətləndirilməsi idi.

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, dezinformasiya müasir dövrdə təkcə informasiya sahəsini deyil, ictimai sabitliyi, dövlət-vətəndaş münasibətlərini, demokratik institutları hədəfə alan sistemli təhlükəyə çevrilib: "Bu mövzuda vətəndaş cəmiyyəti həmişəkindən daha həssas olmalı, saxta məlumatları vaxtında ifşa etməli, onun tirajlanmasının qarşısında səddə çevrilməlidir. Dünya İqtisadi Forumunun dezinformasiyanı Azərbaycan üçün əsas risk kimi göstərməsi ciddi siqnaldır".

Müasir dövrdə informasiya təhlükəsizliyi həm də dövlət təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilib. Azərbaycanın əldə etdiyi siyasi, iqtisadi və geosiyasi uğurlar onun beynəlxalq mövqelərini möhkəmləndirdikcə, bu mövqeləri zəiflətməyə yönəlmiş dezinformasiya kampaniyalarının artması qaçılmazdır.

Bu çağırışlara qarşı effektiv mübarizə yalnız dövlət institutlarının deyil, həm də media, vətəndaş cəmiyyəti və fərdi istifadəçilərin informasiya savadlılığının gücləndirilməsinə bağlıdır. İnformasiya müharibəsində qalibiyyət həqiqətlərin, reallığın düzgün təqdimatından birbaşa asılıdır. Bu mənada hər kəsin üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirməsi sayəsində Azərbaycan da informasiya cəbhəsində mövqelərini daha da möhkəmləndirəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ




# Sənaye zonaları - dayanıqlı inkişafın möhkəm dayağı

## **Prezident İlham ƏLİYEV:** "Sənaye zonaları iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun sürətli inkişafı üçün əsas rol oynayır"

**Müasir qlobal iqtisadi çağırışlar şəraitində neftdənkənar sahənin inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətində əsas prioritet kimi ön plandadır. Ölkə iqtisadiyyatının dayanıqlığının möhkəmlənməsi, rəqabətqabiliyyətli istehsal sahələrinin formalaşması və ixrac imkanlarının artması ardıcıl və məqsədyönlü dövlət siyasətini zəruri edir. Məhz bu baxımdan sənaye zonalarının yaradılması və inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır.**

Bu hədəfin reallaşdırılması istiqamətində həyata keçirilən dövlət siyasətinin mərkəzində Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan sənaye zonaları dayanır. Prezident sənaye potensialının gücləndirilməsinin ölkənin iqtisadi təhlükəsizliyinin əsas təminatlarından biri olduğunu dəfələrlə vurğulayaraq deyib ki, biz neftdənkənar sahədə sənaye istehsalını artırmalı və sürətli sənayeləşmə prosesini təmin etməliyik: "Sənaye zonaları iqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun sürətli inkişafı üçün əsas rol oynayır. Bu zonalar yeni istehsal sahələrinin yaradılmasına, yüksəktexnologiyalı məhsulların istehsalına, ixrac imkanlarının genişlənməsinə və innovativ sahibkarlığın inkişafına şərait yaradır. Onlar qeyri-neft məhsullarının həcmini artırır, ölkəmizin rəqabətqabiliyyətini yüksəldir və minlərlə yeni iş yerinin açılmasına töhfə verir".

Sənaye zonalarının yaradılması təkcə yeni istehsal sahələrinin formalaşması ilə məhdudlaşmır. Onların müasir texnologiyaların tətbiqi, innovativ yanaşmaların təşviqi və rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi baxımından da əhəmiyyəti çoxdur. Dövlət tərəfindən təqdim olunan vergi və gömrük güzəştləri, eləcə də infrastruktura göstərilən dəstək sahibkarların sənaye zonalarına marağını artırır, yerli və xarici investisiyaların cəlb olunması üçün geniş imkanlara yol açır. Həmin imkanların reallaşması və sənaye zonalarının davamlı inkişafının təmin edilməsi üçün dövlət başçısı sənaye parkları və məhəllələrinin hüquqi və təşkilati əsaslarını möhkəmləndirmək istiqamətində ardıcıl tədbirlər görür.

Hazırda Azərbaycanda 8 sənaye zonası mövcuddur. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür. Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıq fəaliyyətinin inkişafında xeyli rol oynayır. Bu gün həmin zonalarda fəaliyyət göstərən 104 müəssisədə yüksəkkeyfiyyətli məhsullar istehsal olunur. İndiyədək bu zonalara 7 milyard manatdan çox investisiya yönəldilib və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə isə mövcud layihələr üzrə təxminən 1,74 milyard manatlıq investisiya yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyə kimi ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, onun da 6,1 milyard manatlıq hissəsi dünyanın 70 ölkəsinə ixrac olunub.

Dövlət başçısının təşəbbüsü və nəzarəti ilə yaradılan sənaye parkları və məhəllələri ölkənin müxtəlif regionlarını əhatə edir. Bu, regional inkişafın sürətlənməsinə, bölgələrdə yeni iş yerlərinin açılmasına və əhalinin sosial rifahının yüksəlməsinə səbəb olur. Prezidentin sənaye zonalarına mütəmadi səfərləri, rezident statusu almış müəssisələrin açılışında iştirakı, istehsal müəssisələrinin fəaliyyəti ilə yerində tanışlığı və qarşıya qoyulan vəzifələrin icrasına şəxsi nəzarəti yüksək səviyyədə bu sahəyə göstərilən diqqət və qayğının göstəricisidir. Dövlət başçısının iki gün öncə Sumqayıt Sənaye Parkında "Azərmirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun, "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirakı, həmçinin "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyması sübut edir ki, ölkədə fəaliyyət göstərən sənaye zonaları və məhəllələri formal deyil, real iqtisadi nəticələr verən mexanizmdir.

Bu mexanizmin uğurla işləməsi və iqtisadiyyata konkret töhfələr verməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü sənayeləşmənin dövlət siyasətinin əsas prioritetinə çevrilməsinin bariz nəticəsidir. Bu gün sənaye zonalarında fəaliyyət göstərən müəssisələr üçün vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlığın inkişafını stimullaşdırır. Həmin güzəştlər nəticəsində yerli istehsal güclənir, daxili bazar keyfiyyətli məhsullarla təmin olunur, eyni zamanda Azərbaycanın ixrac potensialı əhəmiyyətli dərəcədə artır. Çünki dövlət başçısının əsas hədəfi dayanıqlı iqtisadi inkişafı təmin etmək, neftdənkənar sektoru gücləndirərək rəqabətqabiliyyətli məhsul istehsalını təşviq etmək və Azərbaycanı regional sənaye mərkəzinə çevirməkdir.

Sənaye zonalarının inkişafı həm də ölkənin iqtisadi təhlükəsizliyini möhkəmləndirir. İşğaldan azad olunmuş ərazilərdə sənaye zonalarının yaradılması təşəbbüsü isə Prezident İlham Əliyevin uzaqgörən və strateji baxışının daha bir göstəricisidir. Bu addımlar həmin ərazilərin iqtisadi dirçəlişini təmin etməklə yanaşı, onların ölkə iqtisadiyyatına inteqrasiyasını təmin edir. Bu baxımdan, Ağdam Sənaye Parkı və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı işğaldan azad olunmuş ərazilərin dayanıqlı inkişafında xüsusi əhəmiyyət daşıyır. Həmin parklar müasir infrastrukturla təmin olunaraq sənaye, logistika, kənd təsərrüfatı məhsullarının emalı və ixracyönümlü istehsal sahələrinin formalaşdırılmasına geniş imkanlar yaradır.

Sözsüz ki, Prezident İlham Əliyevin sənaye zonalarının inkişafına göstərdiyi ardıcıl diqqət Azərbaycanın dayanıqlı iqtisadi inkişafını təmin etməyə yönəlib. Bu siyasət ölkəmizin regional sənaye mərkəzi kimi mövqeyini möhkəmləndirməklə yanaşı, sosial-iqtisadi sabitliyin təmin olunmasına da xidmət edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Ölkəmizin əlverişli işgüzar mühiti avropalı investorlar üçün geniş imkanlar təqdim edir"

**İqtisadiyyat Nazirliyində Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə baş direktoru ilə keçirilmiş görüşdə Avropa İttifaqı ilə qarşılıqlı iqtisadi əlaqələrə dair müzakirə aparılıb.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə baş direktoru Gert Yan Koopman ilə görüşüb.

Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə iqtisadi əməkdaşlığa önəm verdiyi vurğulanıb. Bildirilib ki, ölkəmizin əlverişli işgüzar mühiti avropalı investorlar üçün geniş imkanlar təqdim edir.

Tərəflər qarşılıqlı iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri ətrafında müzakirələr aparıblar. Aİ-nin Azərbaycanın regional nəqliyyat və əlaqəlilik təşəbbüslərinə dəstək imkanları dəyərləndirilib.

## SOCAR-da Çin şirkətləri ilə əməkdaşlıq əlaqələri müzakirə olunub

**SOCAR-ın prezidenti Rövşən Nəcəf "CITIC Construction Co.,Ltd."nin İdarə Heyətinin sədri Yanq Cianşiyanq ilə görüşüb.**



Görüşdə SOCAR ilə Çinin müxtəlif şirkətləri arasında uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edilib. Bu xüsusda, SOCAR ilə "CITIC Construction Co.,Ltd." şirkəti arasında enerji infrastrukturu, eləcə də "downstream" layihələrinin həyata keçirilməsi, birgə müəssisələrin yaradılması imkanları nəzərdən keçirilib.

Söhbət zamanı SOCAR-ın Azərbaycanda və onun hüdudlarından kənarda həyata keçirdiyi layihələr, şirkətin korporativ strateji hədəfləri barədə məlumat verilib.

Görüşdə potensial əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə şirkətlər arasında Çərçivə Sazişi imzalanıb.

## Ötən il işğaldan azad olunmuş ərazilərin bərpasına 4,5 milyard manata yaxın vəsait ayrılıb

**İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2025-ci ilin dövlət büdcəsindən 4 milyard 465,7 milyon manat vəsait ayrılıb.**



AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, həmin vəsaitin 3 milyard 781,9 milyon manatı və ya 84,7 faizi işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı nəzərdə tutulmuş məqsədli vəsaitin, 373,2 milyon manatı və ya 8,3 faizi dövlət büdcəsinin ehtiyat fondunun vəsaitinin, 258,5 milyon manatı və ya 5,8 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üzrə vəsaitin, 52,1 milyon manatı və ya 1,2 faizi dövlət büdcəsinin digər ehtiyatlarından ayrılmış vəsaitin payına düşür.

# ARDNF ötən ilin hesabatını açıqlayıb

## 2025-ci ildə fondun aktivləri 22,5 faiz artaraq 73,5 milyard dollardan çox olub

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) keçən il üzrə gəlir və xərclərinə dair məlumat yayıb. Məlumatda bildirilir ki, fondun aktivləri 2025-ci ilin əvvəlinə 60031,4 milyon dollar (102 053,3 milyon manat) təşkil edib. Dekabr ayının 31-nə isə ilin əvvəli ilə müqayisədə 22,5 faiz artaraq 73541,5 milyon dollara (125 020,5 milyon manat) çatıb.**

İl ərzində ARDNF-nin ümumi gəlirləri 37 594,4 milyon manat təşkil edib. Büdcə gəlirləri 17 160,4 milyon manat, valyuta məzənnələrinin və qızıl qiymətinin dəyişməsindən yaranan fərq ilə bağlı büdcədənkənar gəlirləri isə 20 434 milyon manat olub. Büdcə xərcləri isə hesabat dövrü üzrə 14 627,2 milyon manat təşkil edib.

Öncə fondun büdcə gəlirləri açıqlanıb. Belə ki, keçən il ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 10 266,3 milyon manat olub. O cümlədən mənfəət neftinin və qazın satışından 9 497 milyon manat, bonus ödənişləri və tranzitdən 765,7 milyon manat, akrhesabı ödənişlərdən 3,6 milyon manat əldə edilib. Bu dövrdə ARDNF-yə "Azəri-Çıraq-Günəşli"yataqlar blokundan 8 292,9 milyon manat, "Şahdəniz"yatağından (qaz və kondensat) 958,8 milyon manat məbləğində vəsait daxil olub.

İnvestisiya gəlirlərinə aid olanlar isə bunlardır: fondun vəsaitlərinin idarə olunması üzrə gəlirlilik 6,2 faiz təşkil edib, nəticədə 6 894,1 milyon manat həcmində gəlir əldə edilib.

İllik hesabatın "Büdcə xərcləri" bölməsində büdcəyə transfert haqqında bildirilir ki, hesabat dövrü ərzində ARDNF-nin 2025-ci il büdcəsinin icrası çərçivəsində 14 481 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Bu bölmədə layihə və idarəetmə xərclərinə aid faktlar göstərilib. Belə ki, 2025-ci ilin yanvar-dekabr aylarında icrası davam edən bu layihələrə 105,5 milyon manat yönəldilib - "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 18,6 milyon manat və "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə 86,9 milyon manat, fondun idarə edilməsi ilə bağlı xərcləri isə 40,7 milyon manat təşkil edib.

Bəs maliyyə bazarlarının cari vəziyyəti portfelə necə təsir göstərib? Bildirilir ki, 2025-ci il ərzində maliyyə bazarlarındakı tendensiyaların ARDNF-nin aktivlərinə təsiri müsbət olub.

ABŞ-də əmək bazarının nisbətən zəifləməsi və tariflərin tətbiqindən gözlənilən inflyasiyanın reallaşmaması səbəbindən, Avrozonada yumşaldıcı monetar siyasətin davam etməsi fonunda, Birləşmiş Krallıqda isə əsasən əmək bazarının zəifləməsi nəticəsində mərkəzi banklar uçot faiz dərəcələrini endirib. Bu da öz növbəsində istiqrazların gəlirliliyinə müsbət töhfə verib. Bununla yanaşı, istiqrazlarda hələ də müşahidə edilən yüksək faiz dərəcələri ARDNF-nin borc öhdəlikləri altportfelinin əsas gəlirlilik komponenti olub.

ARDNF-nin səhm investisiyaları da il ərzində müsbət gəlirlilik göstərib. Şirkətlərin maliyyə göstəricilərinin ümumən dayanıqlı olması, texnologiya, o cümlədən süni intellekt sahəsində əldə edilən irəliləyişlər, həmçinin qabaqcıl mərkəzi bankların faiz dərəcələrini endirməsi bazarlarda müsbət dinamikanı şərtləndirib.

Ötən ildə daşınmaz əmlak və infrastruktur investisiyalarının gəlirliliyi sektorlardan asılı olaraq fərqli nəticələr nümayiş etdirib. Ofis sektorunda müşahidə edilən təzyiqlərin davam etməsinə baxmayaraq, logistika, yaşayış tipli daşınmaz əmlaklar və infrastruktur aktivlərinə tələbin yüksək olması sözügedən sektorlarda dayanıqlı gəlirliliyi təmin edib. Nəticədə ARDNF-nin daşınmaz əmlak altportfeli 2025-ci ildə müsbət gəlirlilik əldə edib.



Mərkəzi bankların alışları, mövcud qeyri-müəyyənliklər və geosiyasi risklər fonunda qızıl qiymətləri il ərzində kifayət qədər artım göstərərək tarixi maksimum səviyyələrə çatıb. Bununla da ARDNF-nin qızıl altportfeli üzrə əhəmiyyətli büdcədənkənar gəlirlər formalaşıb.

Xatırladaq ki, ARDNF 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyevin fərmanına əsasən təsis edilib. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-in Əsasnaməsi təsdiq olunub. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edilib və qurum əməli fəaliyyətə başlayıb. Ötən 26 il ərzində bu fondun vəsaitləri ölkəmizin və xalqımızın ən zəruri ehtiyaclarına yönəldilib. Bir sözlə, Azərbaycanda neft kapitalı insan kapitalına çevrilib.

ARDNF şəffaf fəaliyyətinə görə dünyanın ən şəffaf suveren fondları sırasında özünə yer alıb. Təsadüfi deyil ki, bir çox tanınmış şirkətlər və digər qurumlar ARDNF-lə əməkdaşlıq etməkdə maraqlıdırlar.

Onu da qeyd edək ki, bu yaxınlarda keçirilən Davos Dünya İqtisadi Forumunda bir sıra dünya şöhrətli şirkətlərin rəhbərləri Prezident İlham Əliyevlə görüşlərində ARDNF-lə əməkdaşlığı genişləndirmək məqsədlərini bildiriblər. Bunlar "J.P.Morgan", "Global Infrastructure Partners" (GIP), "Brookfield Asset Management" və digər şirkətlərdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Zəngəzur dəhlizi regional və qlobal geosiyasətdə

**"...keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu".**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Xarici siyasətdə həlledici mərhələ

Azərbaycanın xarici siyasətinin dinamik inkişaf etdiyi və mövcud siyasi, geosiyasi çağırışlara qətiyyətlə cavab verdiyi barədə fikirlər artıq dünyada birmənalı qəbul edilir. Xüsusilə Azərbaycan Ordusunun Zəfəri ilə bitən Vətən müharibəsindən keçən 5 il göstərdi ki, Prezident İlham Əliyevin xarici siyasətin cari və strateji prioritetlərini müəyyən etməsi konseptual baxımdan dərin düşünülmüş və əsaslandırılmış, siyasi reallıqlar kontekstində isə dövrün tələblərinə uyğunlaşdırılmış yaradıcı prosesdir. Buna görədir ki, ekspertlər regional miqyasda və hətta türk dünyası səviyyəsində əsas siyasi və geosiyasi dinamikanı müəyyən etmək üçün təməl faktorlardan biri kimi Azərbaycanın xarici siyasətinin ümumi məzmununa istinad edirlər.

Hazırda Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasət kursu çox sürətli və yüksək dinamika ilə fərqlənir. Bu fonda dövlət başçısının ifadə etdiyi fikirlər yeni tarixi mərhələnin əsas prinsipləri kimi qiymətləndirilir. Bu baxımdan, Prezident İlham Əliyevin 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə söylədiyi fikirlər çox böyük maraq doğurmuşdur. Ölkə rəhbəri xarici siyasətin əsas məqamları ilə bağlı çox aktual tezislər irəli sürmüşdür.

Bu kontekstdə Prezident İlham Əliyevin bir neçə fikrinə nəzər salaq. Azərbaycan lideri müsahibəsində vurğulamışdır: "...keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu".

Bu fikirlərdə xarici siyasət kontekstində çox aktual olan üç mühüm məqam ifadə edilmişdir. Əvvəla, Azərbaycanın xarici siyasətinə tarixi rakursda yanaşma özünü göstərir. Müstəqillik əldə edilənə qədərki dövrü siyasi və geosiyasi kontekstdə ümumiləşdirilmiş şəkildə "Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır" kimi qiymətləndirmək xüsusi məna daşıyır. Ölkə rəhbəri Azərbaycanın dövlət kimi tarixinin bir aspektini ifadə edir və bunun fonunda müstəqil olmağın əhəmiyyətini vurğulayır.

İkincisi, dövlət başçısı xüsusi olaraq müstəqillik illərində müharibə mərhələsindən sülh dönəminə keçidin prinsipial tarixi hadisə olduğunu qeyd edir. Burada "müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr" keçidlərindən sonra sülh şəraitinin yaranması önə çəkilir.

Üçüncüsü, "sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik" tezisi dahiyanə bir yenilikdir. Əlbəttə, burada Prezident İlham Əliyev müstəqil dövlət kimi uğur qazanmaq üçün sülh şəraitində hansı addımların və necə atılmalı olduğunu müəyyən etməyi önə çəkir. Bu yazının məzmununda həmin tezis mərkəzi yer tutur. Yəni qısa bir fikirdə ifadə edilən mükəmməl məna işığında müharibədən sonrakı mərhələdə uğurlu müstəqil dövlət quruculuğu prosesinin müxtəlif aspektləri böyük aktuallıq kəsb edir. Burada siyasi, mədəni, iqtisadi, geosiyasi, hərbi, ekoloji və digər sferalarda sistemli və davamlı fəaliyyətin müxtəlif tərəflərinin tədqiqi çox vacibdir.

Həmin kontekstdə Prezident İlham Əliyevin aşağıdakı fikirləri olduqca əhəmiyyətlidir. Dövlət başçısı vurğulanan müsahibəsində demişdir: "...Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın birnömrəli ofisində siyasi möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq. Biz artıq cəmi beş ay bu şəraitdə yaşamağımıza baxmayaraq, bunun bəhrəsini görürük - həm siyasi, həm iqtisadi müstəvidə. Cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək".

Son dövrlərdə ekspertlərin tez-tez işlətdiyi "TRIPP" (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu), yəni Zəngəzur dəhlizi məsələsinə ölkə rəhbərinin yuxarıda vurğuladığımız fundamental tezislərinin işığında nəzər salmaq daha faydalı olardı.

## TRIPP-ın tarixçəsi

"TRIPP" ingiliscə "Trump Route for International Peace and Prosperity" ifadəsinin qısa adıdır. Mənası "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur. Bu ifadəyə 2025-ci il 8 avqust tarixində Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə paraflanmış Azərbaycan-Ermənistan sülh sazişinin mətnində rast gəlinmir. Ancaq həmin sənədin 10-cu maddəsində qeyd edilmişdir: "Tərəflər, iqtisadiyyat, tranzit və nəqliyyat, ətraf mühit, humanitar və mədəniyyət daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlığın təsis edilməsi üçün qarşılıqlı maraq kəsb edən aidiyyəti istiqamətlər üzrə ayrıca razılaşmalar bağlaya bilərlər". "TRIPP" abreviaturası "aidiyyəti istiqamətlər üzrə ayrıca razılaşmalar"ın bağlanması imkanı sayəsində meydana gəlmişdir. Belə ki, avqustun 8-də Azərbaycan və ABŞ prezidentlərinin və Ermənistanın Baş nazirinin Vaşinqtonda keçirilən görüşünün nəticəsi olaraq Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanan Birgə Bəyannamənin 3-cü və 4-cü bəndlərində vurğulanmışdır:

"3. Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

4. Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".

Nəhayət, 2026-cı il yanvarın 13-də Vaşinqtonda Ermənistanın xarici işlər naziri A.Mirzoyanla ABŞ Dövlət katibi Marko Rubio arasında keçirilən görüşün nəticəsi olaraq "TRIPP İcra Çərçivəsi" (TRIPP Implementation Framework - TIF) imzalanmışdır.

Hazırda müxtəlif dairələrdə, o cümlədən analitik və ekspert cameələrində Tramp marşrutu - Zəngəzur dəhlizinin fərqli aspektlərdə təhlili aparılmaqda və müəyyən proqnozlar verilməkdədir. Bunun əsas səbəbi Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbədən sonra regionda aparıcı rol oynamasıdır. Çünki bu qələbə Cənubi Qafqazda geosiyasi mənzərəni kökündən dəyişmiş, ona yeni pozitiv dinamika vermişdir. Məhz bu qələbə Ermənistanı sülh sazişi üzərində daha ciddi düşünməyə məcbur etdi və eyni zamanda onun havadarlarının yaranmış vəziyyəti qəbul etmələrinə əsas təkan oldu.

Bunlarla yanaşı, TRIPP məsələsinə marağın artmasında Azərbaycanın enerji və nəqliyyat-logistika sferalarında apardığı müstəqil, qətiyyətli və əməkdaşlığa istiqamətlənmiş sistemli siyasəti də ciddi rol oynadı.

Nəhayət, müxtəlif beyin mərkəzləri və ekspertlər TRIPP-lə bağlı bir sıra siyasi və geosiyasi məqamların təhlilini aparırlar. Bu kontekstdə bəzi məsələlərin üzərində dayanmaq lazım gəlir.

Yanaşmalar fərqlidir və geosiyasi aspektdə məsələnin müxtəlif tərəflərinin təhlilini əhatə edir. Bununla belə, bütövlükdə götürüldükdə, TRIPP-ın regional və qlobal geosiyasi miqyaslarda mövcud vəziyyəti xeyli dəyişəcəyi tezisi üstünlük təşkil edir. Məsələnin bu tərəfi də çoxsaylı detallarla zəngindir və politoloji baxımdan bir sıra maraqlı və aktual məqamları ön plana çıxarır.

## İnfrastruktur diplomatiyası

"İnfrastruktur diplomatiyası" anlayışı XXI əsrdə işlənməyə başlamışdır. Onun mənbəyi Yaponiyanın keçmiş Baş naziri Sindzo Abenin demokratiya üzrə dördtərəfli dialoq platforması yaratmaq təşəbbüsündən qaynaqlanır. 2008-ci ildə bu mexanizm fəaliyyətini dayandırmış, lakin 2017-ci ildə "Təhlükəsizlik üzrə Dördtərəfli Dialoq" (QUAD) formatında bərpa edilmişdir. Bu formata ABŞ, Yaponiya, Avstraliya və Hindistan daxildir.

Ekspertlər həmin formatın Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə alternativ kimi formalaşdırıldığını vurğulayırlar. QUAD-ın fəaliyyət fəlsəfəsi Çin modelindən fərqlənir. Belə ki, Quad, əsasən, ayrı-ayrı bölgələrdə (məs., Cənubi və Cənub-Şərqi Asiya, Afrika və b.) lokal infrastrukturların yaradılmasına üstünlük verir. Əsas məqsəd isə infrastrukturun yaradıldığı məkanlarda təhlükəsizliyin və sabitliyin təmin olunmasıdır. Mütəxəssislər yazırlar ki, QUAD-ın infrastruktur diplomatiyası Hind-Sakit okean regionunda geostrateji rəqabətin yeni sahəsinə çevrilməkdədir.




Lakin burada bir özəllik vardır. QUAD-ın infrastruktur diplomatiyasında sistemlilik və müxtəlif lokal sferalar arasında dayanıqlı bağlantı çox zəifdir. Məsələn, 2017-ci ildə QUAD üzvləri infrastrukturun keyfiyyətcə inkişafı və regiondaxili əlaqələrin daha da yaxşılaşdırılması ilə bağlı niyyətlərini bəyan etdilər. 2018-ci ildə isə ABŞ, Yaponiya və Avstraliya arasında qarşılıqlı Anlaşma Memorandumu imzalandı. Bunun sayəsində, ABŞ layihələrə 110 milyard dollardan çox, Yaponiya isə 50 milyard dollardan artıq vəsait yatırmışlar. Bu layihələr Asiya, Okeaniya və Afrika ölkələrini əhatə edir. Lakin daha çox "nöqtəvi layihələr" xarakteri daşıyan bütün bu proqramları vahid layihədə birləşdirmək və eyni məqsədə yönəltmək çox çətindir.

Çinin siyasətində infrastruktur diplomatiyası fərqli məzmuna malikdir. Pekin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində infrastrukturların yaradılması ilə onların həmin layihə çərçivəsində əlaqələndirilməsi imkanlarına da diqqət yetirir. Burada Pekinin infrastruktur diplomatiyası bir-biri ilə coğrafi bağlantısı olan geniş geosiyasi məkanı, müxtəlif regionları və onların potensialını əhatə edir.

Bu istiqamətdə infrastruktur diplomatiyasının detalları üzərində dayanmaq imkanı yoxdur. Vurğulanan xüsusiyyətlər fonunda beyin mərkəzləri və ekspertlərin TRIPP-ı infrastruktur diplomatiyası kimi necə xarakterizə etdiklərinə nəzər salaq.

## İnfrastruktur diplomatiyasının nümunəsi

Ekspertlərin bu qiymətləndirməsi Azərbaycanın xarici siyasəti kontekstində Cənubi Qafqazın geosiyasi transformasiyası baxımından çox maraqlı və aktualdır. Çünki mütəxəssislər TRIPP-ı infrastruktur diplomatiyası nümunəsi kimi qiymətləndirərkən qlobal geosiyasi reallıqla regional geosiyasi reallığın qarşılıqlı əlaqəsini nəzərə alırlar.

Bu məqam əsassız deyildir. Çünki Azərbaycanın xarici siyasətinin təsiri nəticəsində Zəngəzur coğrafi məkan və sözügedən dəhliz nəqliyyat məkanı olaraq infrastrukturun keyfiyyəti ilə onun funksional imkanlarını vahid məntiqi sahədə birləşdirir. TRIPP Azərbaycanın praqmatik, müstəqil, prinsipial xarici siyasət kursunun birbaşa nəticəsidir. Doğrudan da, əgər rəsmi Bakı müstəqil siyasətində qətiyyətli olmasaydı, Zəngəzur məsələsi qlobal güclərin siyasi gündəmində dayanıqlı aktuallıq kəsb etməzdi. Digər tərəfdən, TRIPP-ın meydana gəlməsi ilə bağlı yuxarıda vurğuladığımız faktlar göstərir ki, məhz Azərbaycanın müstəqil və qətiyyətli mövqeyindən kənara çəkilməməsi Amerika diplomatiyasını terminoloji improvizasiyaya məcbur etmişdir. Bununla isə mahiyyət dəyişmir: Zəngəzur dəhlizi məzmun, mahiyyət və funksiya baxımından Azərbaycanın təklif etdiyi formalaşma fəlsəfəsi çərçivəsində açılır.

Bununla bağlı Türkiyənin xarici işlər naziri Hakan Fidanın aşağıdakı sözləri çox mətləblərdən xəbər verir. H.Fidan İstanbulda ilin yekunlarına dair mətbuat konfransında demişdir: "Zəngəzur dəhlizinin Azərbaycanın istədiyi kimi həyata keçəcəyinə inanırıq. Azərbaycanı Naxçıvana quru yolu ilə bağlayacaq bu dəhliz həm Orta dəhliz, həm də Türkiyənin türk dünyasına açılması baxımından olduqca mühümdür".

Vurğulanan xüsusiyyətlərin məntiqi daxilində ekspertlər TRIPP-ı müasir beynəlxalq sistemdə baş verən struktur dəyişikliyinin təzahürlərindən biri kimi xarakterizə edirlər. Bu dəyişiklikdə infrastruktur "hakimiyyətin mərkəzi aləti"nə çevrilir. Həmin kontekstdə "infrastruktur realizmi" anlayışının siyasi diskursa daxil edilməsi elmi-politoloji maraq doğurur. Onun fonunda geoiqtisadi dəhlizlərin, nəqliyyat qovşaqlarının və rəqəmsal şəbəkələrin əvvəlki hərbi-siyasi alyansların substantiv və funksional analoquna (eyni təsir gücünə malik olmaq, geosiyasi məsələlərdə ciddi rol oynamaq, adekvat olmaq və s.) çevrilməsi əhəmiyyətli bir yenilikdir.

## TRIPP-ın institusional strukturlaşması

Bu, politoloji baxımdan düşündürücü təzahürdür. Burada TRIPP-ın tranzaksion kommunikativlik çərçivəsində institusionallaşması məsələsi praktiki müstəvidə qoyulmuşduir. İnstitusional strukturlaşma qarşılıqlı əlaqələrin tranzaksion modeli üzrə baş verir. Yəni, birincisi, TRIPP tərəflər üzərinə hüquqi öhdəlik qoymur, ikincisi, elə prosedur qaydaları yaradır ki, siyasi qətnamələr "idarəedici reallaşma" imkanı əldə edir. Bu yanaşma xarici siyasətdə praqmatizm və nəticəverici qarşılıqlı əlaqələr şəbəkəsinin formalaşmasına xidmət edir.

Tərəflər TRIPP-ın reallaşmasında üzərlərinə hər hansı hüquqi öhdəlik götürmürlər. Bu məqam geosiyasi aspektdə maraqlı yenilikdir. Digər tərəfdən, iştirakçı ölkələrin tranzaksion fəaliyyətinin ön sıraya çıxacağını proqnozlaşdırmaq olar. Bu isə o deməkdir ki, layihənin həyata keçirilməsində ölkələr arasında praktiki olaraq çoxaspektli qarşılıqlı əlaqəli fəaliyyətlər olacaqdır. Əsas faktor bu cür fəaliyyətlər nəticəsində hər kəsi qane edən işgüzar münasibətlər mühitinin yaradılması ilə bağlıdır.

Deməli, söhbət, faktiki olaraq, dinamik inkişafa geniş imkanlar açan bir strukturlaşmadan gedir. Hər bir mərhələdə vəziyyət konkret dövlətin fəaliyyətindən, onun təşəbbüskar və qurucu potensialından asılı olacaqdır. Bu o deməkdir ki, Ermənistan tərəfinin tez-tez ifadə etdiyi "suverenlik", "nəzarət", "icazə alınması" və s. kimi məfhumlar daha çox texniki xarakterli prosedurlara aid olacaq. Mahiyyətcə, prosesdə hansı dövlətin verə biləcəyi keyfiyyət yenilikləri əsas götürüləcək? Bu baxımdan, Azərbaycanın hansı şansları vardır?

TRIPP-ın formalaşması kontekstində Azərbaycanın xarici siyasətinin qarşıdakı mərhələ üçün çox vacib bir özəlliyinin cizgiləri özünü göstərməyə başlayır. Ölkənin xarici siyasəti yeni funksional və institusional keyfiyyətlər əldə etməyə istiqamətlənmişdir. Ekspertlər bunu "qarşılıqlı əlaqələr və dayanıqlılıq standartlarını formalaşdıran sistem subyektliyi" kimi xarakterizə edirlər.

Bu qiymətləndirmə regional və qlobal miqyasda müstəqil dövlətin xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsi baxımında çox əhəmiyyətlidir. Çünki burada, birincisi, "sistemlilik subyekti" ifadəsi milli və regional miqyasdan daha geniş geosiyasi məkanda fəaliyyəti ifadə edir. Konkret olaraq, söhbət TRIPP-ın beynəlxalq layihənin əsas idarəetmə və reallaşdırılma strukturlarından biri kimi mövcudluğu və fəaliyyət fəlsəfəsi çərçivəsində Azərbaycanın üzərinə düşən geosiyasi funksiyanın reallaşmasından gedir. Bu səviyyədə müstəqil Azərbaycan dövlətinin "sistem subyekti" olması xüsusi anlam kəsb edir. Məsələyə məhz bu prizmadan baxdıqda, digər məqamın aktuallığı aydınlaşır.

İkincisi, Azərbaycan sistem subyekti kimi "qarşılıqlı əlaqələr və dayanıqlılıq standartları"nı formalaşdırmalıdır. Bu isə artıq TRIPP-ın formalaşmasının yeni fəlsəfəsi çərçivəsində Azərbaycanın yerinə yetirməli olduğu missiyanın məzmunu ilə bağlıdır. Çünki "qarşılıqlı əlaqələr" və "dayanıqlıq standartları" dinamik yenilənən, lakin dəqiq strateji hədəfi olan ortamda müəyyən edilməlidir. Yəni qarşıya qoyulan və xarici siyasətin prioritetlərindən biri kimi qiymətləndirilə bilən həmin funksiya infrastruktur diplomatiyasının əsas rollarından birini yerinə yetirməlidir.

Burada başqa, bir mühüm geosiyasi məqam da ortaya çıxır. Ümumi səviyyədə qarşılıqlı faydalılıq prinsipi üzrə davamlı fəaliyyət göstərilməsinə nail olmaq çox vacib şərtdir. Çünki bu, iştirakçıların bərabərhüquqlu əməkdaşlıq etməsinin bazasını təşkil edir. Tramp marşrutu - Zəngəzur dəhlizinin ümumi səmərəverici işgüzar ruhunu daim qoruyub saxlamağa çalışmaq zəruridir. Çünki ekspertlərin də vurğuladığı kimi, TRIPP "institusional olaraq unikal nəqliyyat dəhlizi kimi Cənubi Qafqazda suverenlik və strateji qarşılıqlı asılılığın aləti" funksiyasını yerinə yetirməlidir. Nəzəri baxımdan bu, idarəolunan bağlılığın amerikan modelini regionun geosiyasi mənzərəsinə "yükləmək" anlamına gəlir.

Məsələnin bu şəkildə qoyuluşu daha geniş təhlil tələb edir. Çünki söhbət müstəqil Azərbaycanın qlobal səviyyədə həlledici rola malik olan bir güclə bərabərhüquqlu və nəticəyə hesablanmış siyasi fəaliyyətdə sinxron davranmasından gedir. Həm də bu vəzifə TRIPP-ın institutlaşma və funksionallaşma özəllikləri kontekstində xarici siyasətin dayanıqlı əlamətlərindən biri kimi reallaşmalıdır.

Beləliklə, Zəngəzur dəhlizinin praktiki işləməsində Azərbaycanın fəal rol oynayacağı tam aydındır. Azərbaycan bütün aspektlərdə bu cür məsuliyyətli aparıcı rolu uğurla yerinə yetirməyə hazırdır. Ölkəmizin xarici siyasətinin prioritetlərinin məzmunu bu tezisi əsaslandırmağa imkan verir. Həmin prioritetlərdə göstərilir ki, Azərbaycan xarici siyasətdə sülhə, əməkdaşlığa, təhlükəsizliyə və qarşılıqlı faydalı əlaqələrin inkişafına üstünlük verir. Bu prinsiplər Azərbaycanın həm Qərb, həm də Şərq istiqamətində həyata keçirdiyi xarici siyasətin əsas məqamlarından birini təşkil edir. Şübhəsiz ki, onlar həm də Zəngəzur dəhlizi və onun çərçivəsində TRIPP marşrutunun açılmasında da əsas yer tutacaqlar.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

---

## Berlində "Azərbaycan və Ermənistan arasında tarixi sülh" mövzusunda geniş tədbir keçirilib

### Almaniyanın xarici işlər naziri tədbirdə çıxış edib




**Yanvarın 27-də Berlində Bundestaq yanında fəaliyyət göstərən nüfuzlu Alman Parlament Cəmiyyətində "Cənubi Qafqazda dönüş nöqtəsi: Azərbaycan və Ermənistan arasında tarixi sülh" mövzusunda tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Almaniyanın ICI İnstitutu və Lüdviq Maksimilian Universiteti tərəfindən təşkil olunub. Almaniyada bu formatda ilk dəfə təşkil olunan tədbirdə bu ölkənin hökumət təmsilçiləri, Bundestaqın üzvləri, ekspertlər, jurnalistlər, Almaniyanın siyasi, iqtisadi və elmi həyatında tanınmış şəxslər iştirak ediblər.

Tədbirdə Almaniyanın xarici işlər naziri Yohan Vadeful, Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet, eləcə də Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev və Ermənistanın Almaniyadakı səfiri Viktor Yengibaryan çıxış ediblər.

Almaniyanın xarici işlər naziri Yohan Vadeful çıxışında Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun sabiq sədri kimi keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə yaxından tanış olduğunu və o zaman hər iki ölkənin səfirləri ilə bu mövzunu mütəmadi şəkildə müzakirə etdiyini diqqətə çatdırıb. Nazir sülh prosesində ötən il əldə olunan nəticələrin hər iki ölkənin böyük nailiyyəti, eləcə də Avropa tarixində mühüm hadisə olduğunu vurğulayıb. Y.Vadeful bu nailiyyətlərin gələcəyə ümidlə baxmağa əsas yaratdığını qeyd edərək bildirib ki, Almaniya bu prosesə bundan sonra da töhfə verməyə hazırdır. Nazir deyib ki, bu sülh hər iki ölkə üçün Avropa İttifaqı ilə sabit və etibarlı münasibətlər qurmaq baxımından da geniş imkanlar yaradır.

Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet hər iki ölkənin səfirlərinin iştirakı ilə Berlində belə bir tədbirin ilk dəfə keçirilməsini yüksək dəyərləndirib. O bildirib ki, bu proses təkcə Azərbaycan və Ermənistan üçün deyil, eyni zamanda Almaniya üçün də önəmlidir, çünki Mərkəzi Asiyaya yeni nəqliyyat və dəmir yolu əlaqələri açılacaq və bu, Avropa üçün də vacibdir. A.Laşet, həmçinin Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ötən il Azərbaycana və Ermənistana ilk rəsmi səfərində iştirak etdiyini xatırladaraq, ölkəmizin zəngin tolerantlıq ənənələrini və bütün dinlərin nümayəndələrinin dinc şəkildə birgə yaşamasını xüsusi vurğulayıb.

Səfir Nəsimi Ağayev çıxışında bildirib ki, 2020-ci ildə Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin uzaqgörən və strateji liderliyi ilə ölkəmiz regionda davamlı sülhün və sabitliyin əldə olunması istiqamətində əməli fəaliyyətə başlayıb. Məhz Azərbaycan sülh gündəliyinin təşəbbüskarı olub, sülh sazişinin əsas prinsiplərini irəli sürüb və onun ilk layihəsini təqdim edib. Danışıqlar ikitərəfli formatda aparılsa da, Almaniya xüsusilə həlledici mərhələdə konstruktiv rol oynayıb. Ötən ilin avqustunda Vaşinqtonda keçirilmiş tarixi Sülh Sammitində tərəflər Birgə Bəyannamə imzalayaraq və sülh sazişini paraflayaraq, münasibətlərdə yeni səhifə açıblar.

N.Ağayev dayanıqlı və hüquqi baxımdan möhkəm sülh üçün Ermənistan Konstitusiyasının sülh sazişinin prinsiplərinə tam uyğunlaşdırılmasının, Azərbaycana qarşı bütün ərazi iddialarının tezliklə aradan qaldırılmasının vacibliyini vurğulayıb.

Səfir sülhün gücləndirilməsi istiqamətində Azərbaycanın son aylarda atdığı konkret addımları diqqətə çatdırıb, həmçinin parlamentlər və vətəndaş cəmiyyətləri arasında dialoqun gücləndiyini qeyd edib.

TRIPP marşrutunun önəminə toxunan N.Ağayev bildirib ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin bərpasını nəzərdə tutan bu marşrut sülhü ortaq iqtisadi maraqlarla daha da möhkəmləndirəcək. TRIPP marşrutu bununla yanaşı, daha geniş bölgədə ticarət və bağlantıların şaxələndirilməsi baxımından vacibdir ki, bu da Avropa və Almaniya üçün təchizat zəncirlərini yaxşılaşdıracaq. Səfir bu marşrutun yaradılması üçün öhdəliklərin tam və vaxtında icrasının vacibliyini qeyd edib.

Çıxışlardan sonra səfirlər tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

---

## "Azərbaycan və Ermənistanın bir-birinə doğru atdığı addımlar son dərəcə əhəmiyyətlidir"

**"Biz bu prosesdə ilk dəfə iştirak edirik. Hesab edirik ki, hər iki ölkənin bir-birinə doğru atdığı bu addım son dərəcə böyük və əhəmiyyətli bir mərhələdir. Alman İqtisadiyyatının Şərq Komitəsi belə tədbirləri qətiyyətlə alqışlayır. Biz, həmçinin Almaniya siyasəti və Almaniya Hökumətinin bu məqsədlə belə genişmiqyaslı bir platforma yaratmasında və xarici işlər nazirinin də burada iştirakından məmnunuq. Bu, Almaniyanın dəstəyinin gələcəkdə də davam edəcəyinə dair çox müsbət siqnaldır".**




Bu fikri AZƏRTAC-a müsahibəsində Berlində "Cənubi Qafqazda dönüş nöqtəsi: Azərbaycan və Ermənistan arasında tarixi sülh" mövzusunda keçirilən konfransda iştirak edən Alman İqtisadiyyatının Şərq Komitəsinin Şərqi Avropa üzrə regional direktoru Alena Akuliç deyib.

Müzakirələrin ölkələr və iqtisadiyyatlar arasında əlaqələrin inkişafına töhfə verdiyini vurğulayan Alena Akuliç bildirib: "Biz, Almaniya iqtisadiyyatının nümayəndələri olaraq, burada bu prosesin davamlı olacağını görürük. Çünki müşahidə etmişik ki, müzakirələr nə qədər konkret və hər iki tərəf üçün iqtisadi baxımdan nə qədər faydalı olarsa, ölkələr və iqtisadiyyatlar arasında əlaqələr də bir o qədər möhkəmlənir. Bu kontekstdə Avropa ilə Cənubi Qafqaz arasında iqtisadi əməkdaşlığı da nəzərdə tuturam. Bu istiqamətdə artıq bir sıra ideyalarımız mövcuddur və konkret təşəbbüslər gündəmdədir. Növbəti mərhələdə iqtisadi layihələr və mövzular üzrə ayrıca bir dialoqun formalaşması da mümkündür. Biz məmnuniyyətlə bu dialoqu həm birgə təşkil etməyə, həm də onun icrasını yaxından müşayiət etməyə hazırıq".

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 iyun (Çərşənbə günü) tarixli 207-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 19 ramazanül-mübarək sənə 1337. 18 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, həziran ayının 19-da səhər saat 11-də Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarının (budkalarının) icarəyə verilməsi üçün torq olacaqdır. Kioskaların ikisi bulvarda, biri isə Malakan bağındadır. Təfsilatı Təsərrüfat şöbəsinin dəftərxanasında hər gün oxumaq olar.

*T-151*

## İXTAR

Bu gün ramazanül-mübarəkin 19-u birinci əhya günü olmaq münasibətilə qəzetəmizin gələn nömrəsi cümə günü çıxacaqdır.

*İdarə*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Qanun**

1917 və 1918 sənələrinin gəlir vergiləri üçün quberniya və uçastok idarələrinə üzv intixabı [seçkisi] haqqında Azərbaycan Məclisi-Məbusanının 1919 sənəsi 17 mart iclasında qəbul edilmişdir:

1. Dövləti gəlir vergisi qanunlarının 10-cu [fəsili] 3-4-cü maddələri (1916 sənəsi aprelin 26-da 106 nömrə ilə hökumət tərəfindən nəşr edilən qanun məcəlləsi, 838-ci maddə) Azərbaycan daxilində quberniya və uyezd zemstvo idarələri təşkil olunana qədər öz gücündə baqi [qüvvədə] qalsın.

2. 1919-cu sənəsi gəlir vergisi üçün təzə quberniya, uçastok idarələri təşkil edildikdə dövləti gəlir vergisinin 10-cu fəsili, 3 və 4-cü maddələrindən istifadə üçün icazə verilsin.

*Parlaman rəisi əvəzinə baş müavin:*
*Həsən bəy Ağayev*
*Katib: Əhməd Cövdət [Pepinov]*
*Dəftərxana naçalniki əvəzinə: H[üseyn] Mirzəcamalov*
*Əslinə mütabiqdir.*
*Şöbə naçalniki (imza)*

**Posta və Teleqraf Nəzarətindən verilən əmrlər**

*Əmrnamə 37*

Bu sənəsi nisan [aprel] ayının 22-dən etibarən Posta və Teleqraf Nəzarətini dəröhdə etdiyimi təhti-Nəzarətimdə bulunan [Nazirliyimin tabeçiliyində olan] müəssisələrə elan edirəm.

*Əmrnamə 39*

Bu sənəsi nisanın 23-də Azərbaycan Posta və Teleqrafxana nahiyəsi idarəsinin baş mexaniki olan mühəndis-elektrik Makuşinski müvəqqəti olaraq həman idarənin baş mexanikliyinə təyin olunur.

*Əmrnamə 40*

Yanvarın 25-də, 1919 sənədə verilən əmrnamə – ki Qutqaşen Posta və Teleqrafxana müdiri Fərəc bəy Paşabəyov Ağdaş Posta və Teleqraf bürosuna müdir təyin edilir – ləğv edilir, yəni məzkur [adı çəkilən] müdir yenə əvvəlki məhəllində [yerində] baqi qalır.

*Əmrnamə 41*

Bu sənəsi nisan ayının 27-də Göyçay Posta və Teleqraf bürosunun müdir müavini Məhərrəm Quliyev VI klaslı "Judavstvo Koltuşski" Posta və Teleqrafxana bürosuna müdir təyin olunur.

*Əmrnamə 42*

Bakı Posta və Teleqraf bürosunun dörd[üncü] dərəcəli məmuru Feodor Belousov 1919 sənəsi nisan ayının 29-da Xaçmazın VI klaslı Posta və Teleqraf bürosuna müdir təyin olunur.

*Əmrnamə 43*

Bu sənəsi mayısın 1-də dəftərxanamın 5-ci şöbə kargüzarı olan İvan Andreyeviç Piletski müvəqqəti olaraq həmin şöbənin müdirliyinə təyin olunur.

*Əmrnamə 44*

Bu sənəsi mayısın 5-də verdiyi ərizəsinə binaən [əsasən], dəftərxanamın 4-cü şöbə müdirinin müavini İbrahim Paşababayev bittamam [tamamilə] xidmətindən əzl [kənar] edilir.

*Əmrnamə 45*

Xaldan Posta və Teleqraf şöbəsinin sabiq müdiri Quliyevin məhkəməyə cəlb edildiyindən naşi [ötrü], 27 nisan tarixindəki 41 nömrəli əmrnaməm ləğv edilir.

*Əmrnamə 46*

Parlamanın qasidi Ruhulla Abbas oğlu Aslanov bu sənəsi mayısın 10-da yenə həman xidmətdə olmaqla dəftərxanama köçürülür.

*Əmrnamə 47*

Bu sənəsi mayısın 10-da Bakı Posta Teleqraf bürosunun beş[inci] dərəcəli məmuru Andrey Başkeviç Kürdəmirin VI klaslı Posta və Teleqraf bürosuna müdir təyin olunur.

*Əmrnamə 48*

Bu sənəsi mayısın 13-dən mühəndis Cəmil Vəzirov dəftərxanamın mühəndislik xidmətində təyin edilir.

*Əmrnamə 49*

Birinci Bakı Posta və Teleqraf bürosunun birinci dərəcəli məmuru Cəbrayıl bəy İmamverdibəyov və İkinci Bakı Posta və Teleqraf bürosunun birinci dərəcəli məmuru Andrey Suttoviç həmin büroların müdirliyinə mayısın 17-dən 19 sənəsi təyin olunur və Bakı Posta və Teleqraf bürosunun dörd[üncü] dərəcəli məmuru Nağı İsmayılov Judavstvo Koltuşski Posta və Teleqraf bürosuna (VI klaslı) bu tarixdən müdir təyin olunur.

*Əsillərində imza etdi Posta Teleqraf Naziri və Dəftərxana Müdiri*
*Əslinə mütabiqdir.*
*Kargüzar: [Rəsul] Rəhimli*

**Məşixət İdarəsindən**

Məşixəti-İslamiyyənin [Şeyxülislamlıq İdarəsinin] həmin iyun ayının 15-də tərtib tapan qərarnaməsi ilə Quba qəzasından Nügədi icmasının xahişinə və məhəlli [yerli] qazının təvəssütünə [vasitəçiliyinə] görə, məzkur [deyilən] icmada dörd prixod var ikən, beşincisi dəxi təşkil olunub həman qəryənin [kəndin] əhli Molla Əbdülmömin Molla Yusif oğlu məzkur prixoda molla təyin olunur.

*Axund Molla Ağa Ağaəlizadə*
*Katib: Əfəndizadə*

## BİR MÜNASİBƏTLƏ

Bakı erməni kəlisası [kilsəsi] zirzəmilərinin polis tərəfindən axtarılması, bu axtarışın surəti-icrası, axtarışdan dolayı şəhərdə dövran edən şayiə və bu şayiələrin mütəassifanə olaraq [təəssüf ki], biduni-təhqiq [təhqiq edilmədən] qəzetəmiz sütununa keçməsi – bunun hamısı Bakı ermənilərini azürdədil etmiş [ürəyini incitmiş] və iş o məqama çatmışdır ki, Parlamanımızın erməni fraksiyası bu xüsusda hökumətə sual vermək və cavab almaq istəmişdir. Parlamanın keçənki iclasında bu sual verildi və hökumət tərəfindən cavab alındı. Lakin erməni fraksiyası alınan cavabdan razı qalmayıb suallarını sorğu surətinə təhvil ilə [çevirməklə], gələn iclasın müzakirəsinə qoydular.

Erməniləri incidən kəlisalarının axtarılması və bu axtarış xüsusunda yalan xəbərlər buraxılmasıdır. Yalan xəbərlər haqqında inciməyə, əlbəttə, hər kəsin haqqı vardır. Baxüsus, bu zamanda ki, xaricdən də, daxildən də əlani [açıq] və xəfi [gizli] düşmənlər təhdidi altında olduğumuzu başa düşən camaat qəfləti kənara qoyub da dördgöz olmağı özünə fərz bilmiş və binaənileyh [buna görə], hər bir şeyə diqqət yetirmək və hər bir şübhəli əlamətlərdən ehtiyatlanmaq məcburiyyətində olduğundan, böylə yalan və həyəcanlı xəbərlərin yayılmasından qeyri-məmul [arzuolunmaz] hadisələr baş verə bilər.

Kəlisa axtarılmasından dolayı erməni camaatının hissiyyati-diniyyələrinin təhqir edilməsi məsələsinə gəldikdə, bu xüsusda hökumət rəisi Nəsib bəy həzrətlərinin bu cavabı kafidir ki, ermənilərin hissiyyati-diniyyələrini təhqir edən biz olmadıq. Bu həqarəti rəva görənlər kəlisanın anbarlarını heç də kəlisa ləvazi matına əlaqəsi olmayan bir taqım başqa şeylər ilə doldurmağa razı olanlardır.

Əslihə [silah] tutulmasına aid olan yalan xəbərlərin qəzetəmizə keçməsinə gəlincə, qəzetəmizin o biri nömrəsindəki təkzibimizdən aydındır ki, bu xəbər qəsdən buraxılmayıb, bəlkə mühərririmizin səhih bildiyi yerdən qeyri-səhih bir xəbərə təsadüf etməsindən və bu xəbərin idarə katibinin məzuniyyətə getməsinə görə gözdən keçirilməməsindən irəli gələn bir keyfiyyətdir ki, arada hər halda qəsd və təəmmüd [qərəz] yoxdur. Və bir də, əgər bu xəbər çap olmadan qabaq müdirin gözünə ilişmiş olsa idi, təhqiq etməmiş buraxmazdı və səhihliyini bildikdən sonra da, böylə bir əhəmiyyətli hadisəni yalnız bir xəbər sifəti ilə buraxmağa iktifa [kifayət] etməyib, buna bir məqalə də həsr edərdi.

Zənn edirəm, bu xəbərdən dolayı qəzetəmizi müaxizəyə [məzəmmət etməyə, günahlandırmağa] qalxmış və bu xüsusda ikinci kərə baş məqalə yazmış olan Erməni Milli Komitəsinin "Naşe vremya" qəzetəsində bir kərə deyil, bir çox kərə çap edilməkdə olan və müsəlmanları ləkələndirən müfəttinanə [araqarışdıran] xəbərlər dəxi, müdirinin bu xəbərləri təhqiq etməməzliyindən dolayı qəzetələrinin sütunlarında ərzi-vücud etməklə oxuyanları zəlalətə salır [yoldan çıxarır, çaşdırır].

Erməni kəlisası anbarlarından çıxan şeylər içində əslihə-filan olmaması hər halda bizim və zənn edirik ki, bütün sadiq azərbaycanlıların qəlblərini təskin və şübhələrini zail [yox] edəcək hallardandır. Ancaq burada bir psixoloji əhval var ki, o xüsusda bir diqqət nəzəri yetirmək lazım idi.

Erməni kəlisasından əslihə çıxdı deyə beş-on dəqiqə içində bu xəbərin bütün şəhərə yayılmasında və hətta rəsmi bir qəzetə sütununa dəxi keçməsində nə sirr olduğuna dərin, lakin bitərəfana [tərəfsiz] bir nəzər yetirən olarsa, bu işdə deyil yalan xəbərlər buraxanları, bəlkə erməni millətinə başçı olaraq xeyir əvəzində "ayı xidməti" göstərən firqələr başçılarını ittiham etməyi haqlı görər.

Əgər malxazyanlar, çubaryanlar və əmsalı, ermənilər ilə müsəlmanlar arasında qədimdən bəri bərkimiş olan qonşuluq, vətəndaşlıq, din ayrı qardaşlıq rabitəsini pozan, sarsıdan və bilaxirə [axırda] məhv edən bir politikanı özləri üçün məslək ixtiyar etməmiş olsaydılar, bu gün bu iki tayfanın arasında etimadsızlıq və etibarsızlıq olmaz və darı əkib də sarı buğda biçmək iddiasında olan Malxazyan əfəndilərə böylə bir məhsuldan şikayət etməyə məhəl [yer] qalmazdı...

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərlə dəniz müharibəsi**

Helsinqforsdan [Helsinkidən] xəbər verilir ki, Fin boğazında bolşevik paroxodları ilə ingilis gəmiləri arasında dəniz müharibəsi vaqe olmuşdur. Birisi iyunun 1-də vaqe olmuş, iki ingilis gəmisi dörd ədəd bolşevik gəmilərini qovmuşdur. İkinci müharibə də bir neçə ingilis gəmisi ilə və bolşevik gəmiləri arasında vaqe olmuşdur. Qızğın müharibə nəticəsi olaraq bolşevik gəmiləri qaçmışlardır.

**Petroqrad fəhlələri**

Petroqraddan bildirildiyinə görə, ləvazimi-hərbiyyə hazırlayan fabrika əmələlərindən başqa bütün fabrika əmələlərinin səfərbərliyə alınıb da xətti-hərbə göndərilmələri barəsində əmrnamə sadir olmuşdur [əmr verilmişdir].

**Petroqrada hücum**

London - Stokholmdan göndərilən teleqramlarda denilir ki, Petroqrada hücum etmək üçün Müttəfiqlər Helsinqforsda hərbi tədarükatda bulunurlar. Yenə əlavə edilir ki, tez bir zamanda Helsinqforsda 50 min qoşun hazır ediləcəkdir. 20 kruvazerdən [kreyserdən] ibarət olan ingilis gəmiləri bolşevik flotunu təqib edəcəkdir. Royterin Helsinqfors müxbiri yazır ki, "Karakoa" nam [adlı] admiral gəmisində admiral Kouan varid oldu [gəlib çatdı].

**Əfqanıstan ilə ingilislərin müharibəsi**

Royter acəntəliyi xəbər verir ki, ayın 16-da əfqanlılar Dakkada olan səngərlərimizə həmlə etmişlərdir. Onların həmləsi dəf edilib, gecə sakitliklə keçmişdir. Sabahı biz həmləyə başlayıb gündüz saat 2:50 dəqiqədə qayət müşkül bir vəziyyətdə ikən biz düşmənləri öz mövqelərindən çıxardıq. Bizim təyyarələrimiz də həmlədə iştirak edərək bu minval ilə Uellenbadı bombardman etmişlərdir. Əfqanlıların sülh əqd edilməsi təklifinə baxmayaraq, əfqanlılar yenə qəbilələri bizim əleyhimizə çıxmağa təşviq edirlər. Ayın 21-dən verilən son bəyanatda denilir ki, Dakkada olan müharibə zamanında biz əfqanlılardan 5 ədəd Krupp topları almışıq. Düşmənlərdən 300 məqtul [ölü] vardır. Ayın 19 və 20-də səhər biz əfqanın baş ərkani-hərbinə [baş qərargahına] həmlə eyləmişik və onların kazarmaları üzərinə bomba tökmüşük.

## SÜLH ƏTRAFINDA

**Avstriya və sülh**

Paris - Avstriya sülh müahidənaməsi [sazişi] demək olar ki, əqd edilmiş kimidir. Müharibə məsuliyyəti maddəsi Almaniya müahidənaməsinə müvafiqdir. Yalnız kayzerin məhkəməyə cəlb edilməsi maddəsi götürülmüşdür. Maddələrin birində denilir ki, müharibə qanunlarını pozanlar beynəlmiləl divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə edilməlidirlər. O ki qaldı sərhəd məsələsinə, Nijni-Petrolinin əhalisi sırf nemeslərdən [ibarət] olsa da, yenə o yer İtaliyaya verilir, ta-inki onun sərhədi şimal tərəfdən mühafizə edilsin.

**Türkiyə nümayəndələrini dəvət**

Dördlər Şurasında qət olunmuşdur ki, Osmanlı İmperiyası məsələsi müzakiratına Osmanlı nümayəndələri dəvət edilsin.

**Almaniyada matəm**

Berlindən xəbər verilir ki, Almaniya Daxiliyyə naziri Almaniya dövlətləri hökumətlərinə təklif eyləmişdir ki, sülh müahidəsinə [sazişinə] protesto olmaq və əza saxlamaq üçün bir həftə müddətində bütün Almaniya məmləkətində fərəh verici yol bağlansın. Teatrolarda isə hala münasib drama və sairə göstərilsin.

**Sülh müahidənaməsi imzası üçün müddət**

Paris - İyun ayının 13-də Vilsonun Amerikaya hərəkət edəcəyi şayiatı barəsində "Exo de Pari" yazır ki, Vilson sülh imza edilənədək Parisdə qalacaqdır. Amma almanlar məsələni uzatmamalıdırlar. Hər halda, iyunun 15-i üçün sülh məsələsini həll etməlidirlər.

**Almaniya flotunun təslimi**

Avam Kamerasında Lesli Vilson bəyan edir ki, Almaniya İngiltərəyə 22 ədəd sərnişin paroxodunu təslim eyləmişdir. Bunlar 168.000 ton həcmindədir. Bundan əlavə, 86 ədəd yük paroxodu vermişdir ki, bu da 863.210 tondur. Makazamar xəbər vermişdir ki, mütarikə [atəşkəs] zamanında Almaniyanın 249.754 ton həcmində 85 lineyni gəmi [xətt gəmisi], 3.241.439 ton həcmində olan 690 ədəd yük paroxodu əcnəbi ölkələrdə bənd olmuşdu. Bundan əlavə, 290 ədəd Almaniya gəmiləri Müttəfiqlər tərəfindən tövqif [həbs] edilmişdir.

**Sülh Konfransında**

Klemanso Dördlər Şurasında müzakirat əsnasında siyasətcə qalib gəlmişdir. İndi məlum olur ki, Klemansonun arzusuna görə saziş hüsula gəlmişdir. Almanlara veriləcək ultimatumda deyilir ki, Fransa cüzi də olsa, heç bir güzəştdə bulunmayacaqdır. Klemansonun inadı Lloyd Corca və Vilsona qalib gəlmişdir. Bu yaxın vaxtda olan müzakirat əsnasında Vilson Klemansonun nöqteyi-nəzərində durmaqdadır. Vilson sülh müahidənaməsinin bir çox yerlərinin Lloyd Corc istədiyi qədər dəyişilməsini təsvib [təsdiq] etməyir. Cümə günü almanlara veriləcək cavabda sülh şərtləri barəsində bəyanat veriləcəkdir. Hərgah almanlar beş günə qədər sülhü imza etməsələr, Müttəfiq əsgərləri hücuma keçib Berlin üzərinə yürüş edəcəklərdir. Bu münasibətlə bəzi tədarüklər görülür. Bəziləri deyirlər ki, almanlar sülhü imza edəcəklər. Bir paralarının rəyi budur ki, sülh imza edilməsi üçün almanlara genə vaxt veriləcəkdir. Yəqin edilmişdir ki, alman nümayəndəsi Rantsau sülh müahidənaməsi dəyişilmiş olsa da, müahidənaməni imza etməyəcəkdir.

## QƏZETƏLƏRDƏN

**Yaponiya hökuməti Almaniya və Rusiya ilə etilafa girişmək arzusundadır**

Liondan iyunun 14-də xəbər verirlər ki, Müttəfiq dövlətlər Kolçak hökumətinə müavinət göstərməyi qərara almışlardır. Yaponiya hökuməti öz hissəsini almaq istəyir. Müttəfiqlərin bu barədəki bəyanatı Yaponiyanın təzə bir qalibiyyətindən ibarətdir. Çünki Yaponiya hökuməti birinci olaraq Kolçak hökumətini etiraf [qəbul] edib, Sibiryada və Mançuriyada bir para haqq və səlahiyyətə malik olmaqdan ötrü Kolçak hökumətinin əl-ayağını müxtəlif sazişlərlə bağlamışdır. Yaponiyanın Almaniya və Rusiya ilə etilafa [razılığa] girişmək niyyətində olduğu haqqındakı xəbərlər alındıqdan sonra Yaponiya tərəfindən təhdid olması aşkar olmağa başlamışdır. Yaponiyanın bu etilafı [uzlaşması] bütün dünyanı təhdid edə bilər. Yaponiyanın müdaxilə etməsinə görə sülh müahidənaməsinin [sazişinin] dəyişiləcəyi məsələsi qalxır. Rəisi-cümhur Vilson cümə və şənbə günü müahidənamənin təzə dəyişəcəyi yerlərinə baxacaqdır. Yaponiya hökuməti Dördlər Şurasında vəkalətə malik sifəti ilə iştirak etməkdədir.

## TÜRKÜSTANDA

İyun ayının 15-də Türküstandan Bakıya Aşqabad və Tazəşəhərdən çıxmış olan bir neçə afiser və məmurlar gəlmişdir. Bunlar Aşqabadda vaqe olan əhvalları böylə nəql edirlər. Onlar Aşqabaddan çıxdıqda cəbhə Tecan ilə Duşak arasında imiş. İyunun 8-də Dabravol ordusu ştabı Aşqabad əhlinə əmr vermişdir ki, 18 yaşında olanlar, gərək şəhərdən və gərək ətrafdan olsun, başqa yerə getməməlidirlər. Məsai vəziri [Əmək naziri] bütün övrət və uşaqlara əmr vermişdir ki, Aşqabaddan çıxsınlar. İyunun 13-də Zakaspiyski oblastında 20 yaşından 30 yaşınadək əhali səfərbərliyə dəvət edilmişdir. Teleqrafçılar, dəmiryol qulluqçuları səfərbərlikdən azad edilmişlərdir. İyunun 9-da Aşqabadı təxliyəyə başlamışlardı. Səhhəti-ümumiyyə komitəsi düşmək üzrə idi. İyunun 13-də dəmiryol karxanalarının əmələləri dəstəsi cəbhəyə əzimət eyləmişlərdir [yola düşmüşlər].

**İyunun 13-də alınan məlumati-rəsmiyyə**

Bizim qitəatımız [hərbi hissələrimiz] Duşak yanında olan dəmiryol xəttini təxrib etdikdən sonra körpünü yandırıb saat 14:45 dəqiqədə Armansəhhətə çəkilmişlərdir. Duşakda bir zirehli avtomobil və bir də hərbiyyə eskadronu buraxmışlardır. Zirehlidən xəbər alınmışdır ki, Duşak dairəsində əmələ qatarı çəkilərkən 120 nəfər süvari və onların arxasında piyada dəstəsi görünürdü. Bu xəbərlər təhqiq edilmişdir. Gecə sakitliklə keçdi. İyunun 13-də sübh vaxtı göndərilmiş olan kəşifci dəstələri kimsəni görməmişlərdir.

**Bolşeviklərin yürüşü**

Bolşeviklər Duşakı işğal etdikdən sonra Aşqabad qarşısında olan Qəhqə istehkamına yaxınlaşmışlarsa da, fəqət Dabravol qoşunları tərəfindən Duşak tərəfə püskürdülmüşlərdir. Bolşeviklər yenidən qüvvə alıb hücuma başlayıb, iyunun 12-də Tecan çayını keçmişlərdir.

**Dabravol dəstəsi Tazəşəhərdə**

Petrovskdan Tazəşəhərə Aşqabad dabravollarına kömək üçün 500 nəfər kazak varid olmuşdur [gəlmişdir]. Petrovskdan yenə iki paroxod Dabravol qoşununun vürudu [gəlişi] gözlənir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Tovuzdan Rəisi-vükəla, Məclisi-Məbusan rəisi və Məclisi-Məbusanın Sosialist fraksiyası naminə bir böylə teleqram alınmışdır:

Bizə çatan şayiata görə, Denikinin qara irticası yaxlaşır. İngiltərə Komandanlığı və inqilab düşmənləri də buna müavinət [kömək] edirmiş. Biz inanırız ki, onların siyasəti bizə mənfəət gətirməyəcəkdir. Binaənileyh [ona görə], kəndçilərin izdihamlı mitinqlərində qət edilmişdir ki, bizə istirahət veriləcək kimi Müttəfiqlərin sözlərinə inanmayaraq, son damla qanımızadək inqilab düşmənləri ilə mübarizə edək. Biz tələb ediriz ki, silah əldə olaraq düşmənlər qarşılansınlar.

*Şəmşəddil dairəsi kəndçiləri*
*Köytayev*

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] iaşə məntəqəsi şöbəsinə müraciətən rica etmişdir ki, Balaxanı mədən dairəsindəki ağır bir hal keçirməkdə olan 350 nəfər İran rəiyyətinə məccani [pulsuz] yemək buraxılsın. Bu barədə İran konsuluna məlumat verilmişdir.

- Son vaxtlar Marqulis nam [adlı] bir nəfər özünü Ümuri-Xeyriyyə və Nafiə naziri müavini deyə qələmə verirmiş. Nəzarət həman şəxsi Səhhəti-Ümumiyyə Nəzarətinə göndərmişdir ki, ağlı müayinə edilsin. Ehtimal üzrə ağıldan çıxması təsdiq edilərsə, dəlixanaya göndəriləcəkdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Türuq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] ilə etilafa [razılığa] gəlmişdir ki, Bakıdan Batumadək 108 nəfər hərbi əsirləri aparmaq üçün 3 vaqon verilsin.

- Ağdaş dairəsi Ərəş qəzasının Seyidlər nam kənd əhalisi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən fəna əhvallarını təsvirən müavinət istəmişdilər. Nəzarət öz baş məmuru Vəkilovu əhvalı təhqiq üçün məhəllinə [yerinə] göndərmişdir. Mumaileyh [haqqında danışılan] Vəkilovun məruzəsinə görə, həqiqətən Kür çayının daşmasından kənd əhalisi böyük xəsarətlərə düçar olmuşdur. Belə ki, 100 desyatindən ziyadə əkilmiş ərazi su altında qalıb xarab olmuşdur. Əlavə, 10-15 ev də dağılmışdır. Əhali açıq havada yaşayır. Xəsarət 1.200.000 rubləyə baliğdir [çatır].

- Ağdaş ətrafında hal-hazırda 15-dək qaçqın ailə mövcuddur ki, bunların əhvalı fənadır. Məhəlli [yerli] ziyalılar Bələdiyyə rəisi müavinəti [köməyi] ilə bir neçə teatro tamaşaları tərtib verib, mədaxili onlara sərf etmişsələr də, kifayət etməmişdir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən bir çox təcili binagüzarlıqlar [sərəncamlar] verilmişdir.

- Şamaxı qəza qaimməqamı müavini Müzəffər bəy Abdullayev Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə teleqrafla xəbər vermişdir: Mayısın 28-də qəza qaimməqamı Lütfəli bəy Zülqədərovun təşəbbüsatı ilə bir cəbə [ianə qutusu] günü tərtib verilmişdi. Cəbələr böyük mədaxil vermişdir. Nəzarət onlara teleqrafən izhari-təşəkkür etmişdir.

- Məsai Nəzarəti [Əmək Nazirliyi] Türuq və Məabir Nəzarətinə müraciətən məlum etmişdir ki, Azərbaycan dəmiryollarının xidmətçilərindən bir çoxu vaxtilə Şimali Qafqaziya Cümhuriyyəti yollarında çalışmaq üçün göndərilmişdilər. Son vaxtlar orada baş qalxızmış hadisatdan naşi [ötrü] həman xidmətçilər geri qayıtmaq məcburiyyətində olmuşlardır. Nəzarət rica etmişdir ki, həman xidmətçilər sadiqanə qulluq etdikləri üçün geri qəbul edilmələri haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Şamaxı Bələdiyyə rəisi Hüseynbəyov teleqrafən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə xəbər vermişdir ki, İstiqlal bayramı günü qaçqınlar nəfinə [xeyrinə] olaraq əhali 2000 rublə toplamışdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Hüseynbəyov və əhaliyə teleqrafən izhari-təşəkkür etmişdir.

## EDADİYYƏLƏRDƏ ƏRƏB
## LİSANINA EHTİYAC VARDIRMI?

Mütəallimlər [Tələbələr] Qurultayının 6-cı iclasında qət etmişlər ki, edadiyyələrdə ərəb lisanı oxunsun. Bunu hanki nöqteyi-nəzərlə qərara almışlar, burası məlum olmadı. Çünki qəzetə müxbiri bunu yazmağı lazım görməmişdir. Hərgah edadiyyələrin axund və molla sinifini yetişdirmək məqsədi olsaydı, zənn olunardı ki, ərəb lisanını din və şəriət cəhətincə proqrama daxil etmək istəyirlər. Çünki Quran, fiqh [şəriət hüququ] və sair ehkamımız ərəbcə yazılmışdır. Fəqət edadiyyələr seminariya və akademiya kimi ruhani məktəbləri zümrəsindən olmadığından, ərəb lisanını məzkur [deyilən] nöqteyi-nəzərlə daxil etmək olmaz. Zənnimcə, qurultaydakı "ərəbçilər" iki səbəbdən birisinin mülahizəsi ilə edadiyyələrdə ərəb lisanına tərəfdar olmuşlardır. O iki səbəblər bunlardır: 1) Ərəb ədəbiyyatına dara olmaq [ərəb ədəbiyyatı haqqında dərin və ətraflı bilik sahibi olmaq]; 2) Qüruni-vüstada [Orta əsrlərdə] ərəblərin yaratdıqları ülum və fünunu [elm və fənləri], vəlhasil o vaxtın mədəniyyətini öyrənmək və ehya qılmaq [diriltmək].

Bunlardan hanki olursa-olsun, səhv və zəlalətdən [doğru yoldan çıxmaqdan] başqa bir şey deyildir. Əvvəla, ərəb lisanına onun ədəbiyyatı üçün tərəfdar olanların məqsədi yəqin ki, rusların klassikləri (əntiqiyyunları) kimi edadiyyələrdə köhnə mədəniyyətini qaib etmiş millətlərin dillərini bərqərar etməkdir. Məlum olduğu üzrə, rus mütəfəkkirini [mütəfəkkirləri] iki növdür. Bir növü həmin ərz etdiyim əntiqiyyunlardır ki, hələ indiyə qədər edadiyyələrdə latın və yunan dillərinin təliminə tərəfdar qalırlar. İkinci növü də təbiiyyunlardır (Реалисты) ki, birincilərin əleyhinə olaraq, əski dillərin təliminə heç lüzum görməzlər. Bunların uzun-uzadı elmi mübahisə və münaqişələrinə əl vurulsa, məsələnin xaricinə çıxmaq imkanında bulunarız. Lakin müxtəsərcə bunu qeyd etməliyəm ki, təbiiyyunlar tamamən haqlıdırlarsa, əntiqiy-yunlar da bir dərəcəyə qədər haqlıdırlar. Çünki edadiyyələrdə əski lisanlarla bərabər bəzi miləli-mütəməddinənin [mədəni millətlərin] də dilləri təlim olunur ki, bunlarla onların arasında ən sıxı bir rabitə mövcuddur. Məsələn, latın lisanı firəng, ispanyol, portəgiz dillərinin məxəzi [mənbəyi] ədd [hesab] olunur. Çünki bu millətlər qədim latınların balalarıdır. Binaənileyh [ona görə], bu dillərin qəvaidi [qaydaları], müştəqqatı [kəlmələrin kökləri] biri-birindən çox az fərqli olduğundan latın lisanını öyrənmiş şəxslərə burada saydığımız dilləri də çox asan vəchlə öyrənmək mümkün olur.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 iyun (Çərşənbə günü) tarixli 207-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Latın və yunan dilləri əvəzinə bizim klassiklər ərəb yaxud fars lisanlarını edadiyyə proqramlarına yükləmək istəyirlər. Lakin bunun heç bir cəhətdən faydası yoxdur. Zira ərəb lisanı nə türk dilinə, nə də indiki Yevropa dillərinin heç birinə məxəz deyildir. Doğrudur, bir qədər ərəb ibarə və kəlmələri ana dilimizə daxil olmuşdur. Lakin yer üzündə öylə bir dil yoxdur ki, ona əcnəbi lisanlarından heç də qarışmamış olsun. Binaənileyh qamusumuzdakı [lüğətimizdəki] ərəb kəlmələrinə fəqət [sadəcə] qamus dairəsində olduğumuz ehtiyacı böyüdüb də məktəblərimizin onsuz da ağır proqramını daha yeni bir lisan əlavəsi ilə qalınlaşdırmağın heç mənası yoxdur.

Keçəlim ikinci səbəbə ki, ərəb mədəniyyətindən ibarət olmuş olsun.

Sahibləri ölmüş əski mədəniyyətlərlə uğraşmaq ancaq tarixə və asari-ətiqə [qədim əsərlər] elminə aid bir vəzifə olduğundan, bunu tədris üçün məktəb proqramlarına daxil etmək olmaz. Buna dair Şəmsəddin Saminin gözəl bir təsəvvürü vardır ki, bəzi yerlərini maraqlılara təqdim edirəm. Sami yazır:

*"Biz bu gün İbn Sinanın tibbini, İbn Rüşdün hikmətini, Cahizin kimyasını yenidən ehya və bunların kitablarını kitabxanaların tozları altından çıxarıb ərəbdən əlsineyi-saireyi-islamiyyəyə [digər müsəlmanların dillərinə] tərcümə ilə meydani-intişara vaz [nəşrə başlamaq] və onların tədrisinə məxsus məktəb və mədrəsələr bina etmək üçün nə qədər hümmət və məsarifə möhtac isək, əsrimizin ən mükəmməl fənn kitablarını dəxi beynimizdə [aramızda] tədavülə çıxarmaq üçün o qədər hümmət və məsrəfə möhtacız. Halbuki İbn Sinanın tibbi ilə isitməni kəsməyə müqtədir olammayacağımız kimi, Cahizin kimyası və İbn Rüşdün hikməti ilə də nə dəmiryolu lokomotivi ilə vaporu yürüdə biləriz, nə teleqraf qullana biləriz. Bunun üçün biz üləmayi-islamın asarı [islam alimlərinin əsərləri] ilə uğraşmağı tarix və asari-ətiqə üləmasına buraxaraq təməddün [tərəqqi] etmək istərsək, ülum və fünunu Avropa mədəniyyəti-hazirəsindən almalıyız. Əshabın [Peyğəmbərin səhabələrinin, tərəfdarlarının] övladı yunan mədəniyyətini tamamilə alıb onlara peyrov olduqları [onların ardınca getdikləri] halda, biz neyçün Avropa mədəniyyətini gah küfr və şirklə və gah təqlidlə ittiham edərək ondan istifadə etmək istəməyiriz? Yoxsa əshabi-kiramın övladından dəyanətdə [dindarlıkda] daha qəvimiyiz [güclüyüzmü, möhkəmizmi]?"*

İştə sizə ən qəvi [möhkəm] dəlillər. Mədəni olmaq istəyəcək olarsaq, fövt olmuş [ölmüş, yox olmuş] millətlərin yaxasını buraxaraq, bugünkü mədəniyyətin sahibləri alman, firəng və ingilislərlə əlaqə və rabitədə bulunmalıyız. Onların dillərini, ədəbiyyatını öyrənərək istifadələrimizi [öyrəndiklərimizi] mürurі-zamanla [vaxt keçdikcə] öz türkcəmizə tərcümə etməliyiz ki, bununla həm Yevropa mədəniyyətindən uzaq düşməmək və həm də ana dilimizi ülum və fünun cəhətindən zənginləşdirmək məqsədinə nail olarız. Əks surətdə aləmi-İslamdan min fərsəxlərlə uzağa qaçmış, mədəniyyətdən daha bir yüz il geriyə atılarız ki, nəticədə yer üzündən sair cahil millətlər kimi müzməhil [məhv] olmaq qorxusu görünür.

Binaənileyh [ona görə], miləli-mütəməddinəyə qovuşmaq fikrimiz varsa, edadiyyələrimizdə ərəb lisanı əvəzinə ingilis lisanını tələb etmək lazım gəlir. Tənəzzülümüzün ümdə baisi təəssübi-cahilanəmiz olmuşdur. Buna bundan sonra damı yol veriləcəkdir? Yeni açılacaq ünivərsədə şərq lisanları zümrəsində yəqin ki, ərəb lisanına da əhəmiyyət veriləcək. Buna heç bir sözümüz ola bilməz. Lakin edadiyyələrdə ərəb lisanına heç bir lüzum yoxdur. Ümidvaram ki, bu nöqtələri proqram düzəldənlərimiz unutmasınlar.

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

**Aşqabad cəbhəsində**

- İşbu iyun ayının 7-dən etibarən Aşqabad şəhəri təxliyəsi başlanmışdır. Cəbhədən alınmış xəbərlərə görə, Qəhqədə əhval dəyişməmişdir.

- Zakaspi hökuməti Azərbaycan nəzdindəki siyasi nümayəndəsi Qnesin dəyişilib əvəzində Stepanov təyin edilir.

**Qazaxdan teleqraf**

Qazağa fövqəladə vəkalətlə göndərilmiş olan Rza bəy Qaraşarov Daxiliyyə naziri cənabları ilə Parlaman sosialist üzvlərinə böylə bir teleqraf göndərmişdir:

*“İyunun 13-də Çaylı kəndində iki dəstə arasında atışma olmuşdur. Nəticədə iki nəfər qətl edilmişdir. Məhəlli-hadisəyə [hadisə yerinə] pristav getmişdir. Hər iki tərəf müqəssirləri verməkdən imtina etmişdir. Dünən uyezd naçalnikinin [qəza rəisinin] müavini öz mühafizə dəstəsi və təzə təşkil edilən 100 nəfər milisionerlər ilə məhəlli-hadisəyə azim olmuşsa da [getmişsə də], müvəffəqiyyətə nail olmamışdır. Həmişəki kimi qanuni məmurlara tabe olmayan Çaylı əhalisi yenə də müqəssirləri verməkdən imtina etmişlər. Axşam Çaylı kəndliləri atışma başlamışlar. Atışmada milisionerlərdən biri və iki Çaylı əhli qətl edilmişdir. Bu gün səhər uyezdnı naçalnik nizami süvari dəstəsi və topxana ilə Çaylı kəndinə getmişdir. Təbəiyyət etmək [tabe olmaq] üçün bir saat möhlət verilmişdir. Bu tələbə əməl edilmədikdə, süvarilər kəndə yaxınlaşdıqda atışma başlanmışdır. Topxana süvarilərə kömək etmişdir. Bir saatdan artıq atışmadan sonra Çaylı kəndi təslim olmuşdur. Çaylılardan tələf olanlar vardır. 125 adam həbs edilmişdir ki, bunlardan bəziləri sabah azad ediləcəkdir.”*

**Yevlaxdan protesto teleqrafı**

Parlaman sədri naminə Yevlaxdan böylə bir teleqraf alınmışdır:

*“Keçən il vətənimiz Azərbaycanın hərc-mərc zamanında Nuri paşa öz sədaqətli və bacarıqlı hərəkətləri ilə həyatımızı qan dəryasında boğmaqla təhdid edən anar-xiyanı dayandırdı. Ancaq onun alicənabanə hərəkətinə görə, milli müharibə dayandırılıb biz azad nəfəs aldıq. Lakin bizə xəbər çatmışdır ki, bizi xilas edənlər bir para qara fikirli və vətənimizin sülh ilə yaşamasını gözü götürməyən adamların təhriki ilə həbs edilmişlərdir. Biz, Yevlax əhalisi bununla Parlamandan xahiş edirik ki, Nuri paşanın həbsdən azad edilməsini tezliklə tələb etsin.”*

*Camaat nümayəndələri (imzalar)*

**Ziyalılar İttifaqında**

9 həziran

İclas açıldıqda Ağa əfəndi [Axundzadə] idarəyə müraciətən ərz etdi ki, ümumi iclas qərar vermişdir ki, istiqlaliyyətimizə təcavüz edildiyi haqqında tam cahan demokratiyasına bir müraciətnamə yazılsın. Lazımdır ki, bu müraciətnamə hazırlanılsın. İdarə müraciətnamənin yazılmasını mətbuat heyətinə mühəvvəl etdi [tapşırdı].

Əxzi-əsgər [Hərbi çağırış] idarəsindən gəlmiş təzkirə oxunduqdan sonra qərar qoydu ki, təbliğat bölüyü təşkil etsin və bölük müttəsil [ara vermədən, daim] şəhərdə və kəndlərdə əhaliyə əsgər getməyin əhəmiyyətini və mənasını qandırsın.

Maarif Şöbəsindən daxil olmuş tədris kitabları nəşr olmaq xüsusunda məruzə oxundu. Bu məruzə Maarif Şöbəsinin gələcək səneyi-tədrisiyyənin ibtidasına [əvvəlinə] milliləşmiş siniflər üçün məramnamələr, kitablar və başqa ləvazimati-tədrisiyyə hazırlamaq olduğu münasibətilə idarə qərar qoydu ki, bunları Maarif nazirinə təqdim edib nazir cənablarından komissiya təşkil etmək izini istənilsin və lazım olan qədər para vermək sərəncamında olsunlar. Bunları nazirə təqdim etmək və izahat vermək üçün Səməd bəy Hacıəliyev intixab edildi [seçildi].

Mərkəzi Ev Komitəsinə təyin olunmuş nümayəndə Camo bəy ərz etdi ki, kəndlərdə komitələr təşkil edəcək heyətə kəndisindən başqa iki nəfər də nümayəndə intixab etmək lazımdır. İdarə [Bayramәlibəyov] Teymur bəyi və [Abaşidze] Abdulla bəyi intixab edib tapşırdı ki, onlar Kəndlilər İttifaqı (Krestyanski Soyuz) ilə bərabər işləməlidir.

Sonra başqa bir məsələyə də diqqət yetirildi.

**4-cü uçastok ev komitəsində**

İyun ayının 19-dan etibarən 4-cü uçastkovı ev komitəsinin 1 nömrəli dükanında məzkur [deyilən] uçastokun əhalisinə Mərkəzi Ev Komitəsi tərəfindən hazırlanmış brezent ayaqqabılar satılacaqdır.

Qiymətlər: mərdana [kişilərə] və zənana [qadınlara] 330 manat, orta sinli [orta yaşlı] uşaq üçün 275 manat, uşaq üçün 220 manat.

Arzu edənlər komitənin dükanına səhər saat 6-dan 2-dək müraciət etməlidirlər.

**Ticarət məktəbində**

Bu il Bakı Ticarət məktəbini 33 nəfər mütəəllim [şagird] bitirib şəhadətnamə almışlardır. Bunlardan 3 nəfəri müsəlman, 8 nəfəri yəhudi, 3 nəfər rus, 1 nəfər polyak, 1 nəfər latış, qalan 17 nəfəri ermənilərdir.

**Rus Milli Komitəsi**

Bakıdakı Rus Milli Komitəsi həman sabiqki qərar üzrə, Bakıda sükunət edən [yaşayan] ruslara pasport verməkdədir. Böylə ki, həmin iyun ayının 5-dən etibarən İvan Fyodoroviç Kureyevə pasport verib qalabəyi [komendant] və qubernatora təqdim etmişdir. Rus Milli Komitəsinin pasportu göy kağızda olub Rus Milli Komitəsinin böyük möhürü ilə möhürlənmişdir.

**Yeni qalabəyi**

Qradonaçalnik vəzifəsinə təyin edilmiş olan minbaşı Qudiyevin yerinə Bakı qalabəyisi müavini Zalsman təyin edilmişdir. Mumaileyh [haqqında danışılan şəxs] dünəndən etibarən kəndi vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Yeni Sabunçu qalabəyisi**

İstefaya çıxmış olan Balaxanı-Sabunçu qalabəyisi Lütfəli bəy Əmircanov yerinə Səməd bəy Əliisgəndərov təyin edilmişdir. Mumaileyh dünəndən etibarən kəndi vəzifəsini ifaya şüru etmişdir.

**Gəncədən**

*(Xüsusi teleqraf)*

Gəncədən idarəmizə böylə bir teleqraf gəlmişdir:

*“Rusiya hökumətinin ən qarışıq bir zamanında Rusiyada yaşayan millətlər bolşeviklərin kirli pəncələrindən qurtarmaq üçün çarpışdıqları bir anda, biz azərbaycanlılar da onlarla hürriyyətimiz yolunda mübarizə edib, xanimanımızı dağıdıb arvad və uşaqlarımızı doğrayan o canavar qüvvələrdən qurtulmağa çalışırdıq. Son gülləmizi atarkən bizi bu qara qüvvələrin əlindən qurtarmağa və qəsb edilən hüquq və hürriyyətimizi istirdad [geri almaq] üçün bizim yalvarmağımıza Osmanlı qardaşlarımız imdadımıza gəldi, o xainlərin əllərindən bizi qurtardı. Osmanlı ordusunun başında bulunan komandanlar Nuri və Mürsəl paşalar olmasaydı, Azərbaycan pək bir şurişlik [hərcmərclik, iğtişaş] olardı. Bu komandanların sayəsində hər fənalığın önü alındı. O gündən bu günə qədər Azərbaycanda sülh və səlamət iqa edildi [meydana gətirildi]. Osmanlı ordusu buradan getdikdən sonra Nuri və Mürsəl paşaların və onların yoldaşları[nın] Batumda İngilis Komandanlığının əmri ilə bir taqım qarafikirlərin haqsız iftiralarına qurban edilərkən həbs edildiklərini bu gün biz Gəncə müsəlmanları böyük bir təəssür və hüzünlə xəbər aldıq. Qafqaziyadakı ümum millətlərin səlamətliyinə çalışmaqdan başqa bir qəbahətləri olmayan bu möhtərəm adamların hər halda sərbəst buraxılacaqlarını müsəlmanların hamısına tanılan ingilis hökumətinin Bakıdakı qüvvələri komandanlığından ümid və bu xüsusda böyük bir mitinq tərtib edən biz Gəncə müsəlmanları sizin qəti cavabınıza şiddətlə müntəziriz.”*

Mitinq heyəti: Axund [Məhəmməd] Pişnamazzadə, “İttihad” sədri əvəzinə [Ağalar bəy] Səfikürdlü, “Müsavat” sədri [Məşhədi Əli] Rəfiyev, Müsəlman Sənətkarlar İttifaqı sədri [Yusif] Fərzixanov, “İttihad” Mərkəzi Komitəsi vəkili Əhməd Bədi’ Triniç.

**Silah çıxarılmasını qadağan etmək**

Daxiliyyə naziri Bakı qubernatoruna müraciətən məlum etmişdir ki, axır vaxtlar Azərbaycan Cümhuriyyətindən silah çıxarılması müşahidə olunur. Böylə hərəkət dövlət işlərinə böyük xəyanət əדd [hesab] edildiyindən, tezliklə önünü almaq üçün lazımi tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] rica olunmuşdur.

**Uyezd məktəbləri haqqında**

Bakı vilayəti ibtidai məktəbin müdiri qubernatora məlum etmişdir ki, qəzalarda olan məktəblərin ləvazimatını mühafizə etməkdən ötrü naçalniklərə və kənd yüzbaşılarına əmr sadir olunmuşsa da [əmr verilmişsə də], bu vaxta qədər məktəblərə mühafizə qoyulmayıb və məktəblərin ləvazimatı oğurlanmaqdadır. Hal-hazırda məktəb ləvazimatına nə qədər ehtiyac hiss edildiyini göstərərək, müdir, tezliklə həman məktəblərə mühafizə təyin edilməsini rica etmişdir.

**Quba və Cavad qəzalarında rus zabitləri**

- Quba qəzası qaimməqamı Bakı qubernatorunun əmri mövcibincə [əmrinə əsasən], şəhərdə və Qusarda sükunət edən [yaşayan] rus afiserlərinin siyahısını təqdim etmişdir. Həmin siyahı üzrə məzkur [deyilən] qəzada 7 nəfər sabiq rus ordusu afiserləri sükunət edib və heç bir işə məşğul deyildirlər. Bunlar Azərbaycan qulluğunda dəxi olmayırlar.

- Cavad qəzası qaimməqamı Salyan şəhərində və qəzasında sükunət edib Azərbaycan qulluğunda olmayan rus afiserlərinin siyahısını qubernatora təqdim etmişdir. Həmin siyahı üzrə, orada 10 nəfər rus afiserləri sükunət edib və heç bir işə məşğul deyildirlər.

**Teleqraf xəttinin xarab edilməsi**

Daxiliyyə naziri Bakı qubernatoruna məlum etmişdir ki, axır vaxtlar bəzi naməlum və xain şəxslər tərəfindən teleqraf xətlərinin xarab edilməsi müşahidə olunmaqdadır. Teleqraf işlərinin dövlət və məmləkət işlərinə nə qədər lazım və mühüm olduğunu göstərərək, nazir qubernatordan xətlərin mühafizəsi üçün ciddi tədbirlər ittixaz edilməsini tələb etmişdir.

**Əsgərlikdən qaçmaq cəzası**

Zirə kəndi əhli Əbdülməhəmməd Məşhədi Əbdürrəhmanov öz oğlunu əsgərlikdən qaçırmaq üçün gizlətməkdə müttəhim edildiyindən bir ay müddətinə həbsə alınmışdır.

## AZƏRBAYCANDA

**Zaqataladan**

1919[-cu il] 28 Mayda Azərbaycan Hökumətinin birilliyi münasibətilə camaat saat 10 radələrində Zaqatala meydanına cəm olmağa başladılar. Zaqatala meydanı gözəl bayraqlarla müzəyyən edilərək [bəzədilərək] evlərin qabaqları, balkonlar xalı-xalçalar ilə, çiçəklərlə müzəyyən edilmişdi. Atəşbazlıq dəsgahının tədarükü bir tərəfdə, şəhər camaatı, ətraf köylərdən camaat axıntısı müttəsil [arası kəsilmədən] gəlməkdə idi. Bilafərqi-millət, məzhəb [millət və məzhəb fərqi olmadan] camaatda bir şadlıq əsəri müşahidə olunurdu və hökumətimizin birilliyi münasibətilə yek-digərini [bir-birlərini] təbrik edirdilər. Camaat faxir libaslarla mülәbbəs olub [gözəl paltarlar geyinib] əllərində gül dəstələri, çiçək dəstələri olaraq başqa bir mənzərə təşkil edirdi.

Bir tərəfdən əsgərlərimiz, zabitan əfəndilər kamalinizam və intizam üzrə şərqi oxuya-oxuya gəlib meydanda sıra ilə dayandılar. Camaat miyanında [arasında] asayişi-ümumi hökmfərma idi [hökm sürürdü]. Bir tərəfdən bilafərqi-millət, məzhəb müəllim, müəllimələr öz mütəəllim, mütəəllimələri [oğlan və qız şagirdləri] ilə əllərində gül-çiçək dəstələri, qabaqlarında Azərbaycan bayrağı olaraq şərqi oxuya-oxuya meydanda sıra ilə dayandılar. Hər kəs yek-digərini təbrik edir.

Bu halda bir kürsiyi-xitabət gətirib qoydular. Vali əfəndi təşrif gətirdilər və bir çox natiqlər də hazır idilər. Ümum mülkiyyə və əsgəriyyə məmurları dəxi hazır idilər. Bu əsnada vali əfəndi nitqə başladı. Haziruna [orada olanlara] müraciətən:

*“Həzərat! Bilmiş olasınız ki, bugünkü gün bizim üçün milli, tarixi bir bayramdır. Bu bayram münasibətilə sizi təbrik edirəm.*

*Qardaşlar! Bilmiş olasınız ki, yeddi yüz il bundan əqdəm [qabaq] islam aləmində olan tərəqqi və mədəniyyət heç bir millətə müyəssər olmamışdır. Hər bir tərəqqinin bir tənəzzülü, hər bir tənəzzülün bir tərəqqisi olmaq təbii bir işdir.*

*300 milyonu təşkil edən, kürreyi-ərzin [yer kürəsinin] bir tərəfini tutan islam aləmi öylə bir zəlalətdə, məhkumiyyətdə, əsarətdə, cəhalətdə qaldı ki, o tənəzzülün intəhası [sonu, axırı] olaraq bu gün bizdə bir dürlü tərəqqi asarı [əlaməti] olaraq hökumətimizi göstərə bilərəm. Həman tərəqqinin birinci nümunəsidir ki, bu gün Azərbaycanın illiyi münasibətilə bayram edirik.*

*İndiyə kimi əcnəbilər boyunduruğu altında əzildik. Çox əsarətlər gördük. Bundan belə öz hüquqmuzu, vətənimizi, millətimizi müdafiə etmək üçün qanımız və malımızla səy etməliyik.*

*Bir il bundan əqdəm məhkum bir millət ikən, bu gün hakim olduq. Xudanəkərdə [Allah eləməsin], hakim ikən məhkum olarıqsa, nə kimi fəlakətlər bizi qarşılayacağını bir dəfə düşünməliyik və o yolda sərfi-hümmət və qeyrət etməli, camaatdan heç bir fərd öz hakimiyyəti uğrunda, öz hüququnu müdafiə yolunda, vətən və millət yolunda xidmət etməkdə müzayiqə etməməliyik.*

*Bir baxın tarixlərdə əcdadımızın şan-şöhrətinə, nələr yapmışlar. Biz də onların övladıyız. Biz də onların gedən yolları ilə getməliyik. İttihad, ittifaq ilə yaşamalıyıq.*

*Yaşasın Azərbaycan Hökuməti!*

*Yaşasın onun sadiq təbəələri!*

*Yaşasın şanlı və qəhrəman əsgərlərimiz!”*

Bədəhu [sonra] komandan cənabları, Qəbulov Abdulla əfəndi, Nurulla əfəndi Qazıyev, məbus Bayram Niyazi əfəndi [Kiçikxanov] hərəsi birər nitq irad etdilər [nitq söylədilər].

Saat 1 tamamına kimi məclis davam eylədi. Əsgərlər şərqi oxuya-oxuya qalaya rəvan oldular. Şagirdlər əllərində bayraq, şərqi oxuya-oxuya küçələri dolaşmağa başladılar. Onların əqəbincə [arxasınca] camaat çalğı ilə küçələri dolaşmağa başladılar. “Urra” sədaları asimana bülənd olurdu. Yenidən gəlib camaat meydana cəm oldular. Musiqi çalmağa başladı.

Axşam saat 11-ə kimi məclis davam eylədi. Meydanın hər tərəfi rəngbərəng fənərlərlə, çiçəklərlə müzəyyən edilmişdi. Meydanın hər tərəfində lampalar yanır, qalanın ətrafı tamamilə çırağan edilmişdi. Camaat eyş-işrətə [əylənməyə] məşğul, saat 7-də atəşbazlıq dəsgahı başlandı. Zaqatala meydanı adamlarla məmlu [dolu] idi. Hər kəs yek-digərini təbrik edir və tarixdə görünməmiş böyük bir bayram etdilər.

*Məhəmməd Rüstəmov*

**Gəncədən**

*Xüsusi müxbirimizdən*

Bir neçə gün bundan irəli dəmiryolda Hərbiyyə Nəzarəti tərəfindən şübhəli birisi tövqif edilib [tutulub] jandarmlara təslim edirlər. Şübhə üzərinə tutulan bu zatın [şəxsin] vəsiqələri tələb edildiyi vaxt biri-birinə uymayan bir çox vəsiqələr göstərir. Vəsiqələrin birisi də Gəncə bələdiyyəsindən verilmiş olduğunu rəvayət edirlər. Ən nəhayət, edilən təhqiqatdan anlaşılır ki, həman şəxs məşhur cəllad Dronun müavini və sağ əli bulunan, yenə onun kimi müsəlman qanı içənlərdən Loris-Məlik Kalantar Aşxarbekdir. Bu adam bütün mənası ilə Dronun cinayət şərikidir. Hüdudumuz daxilində ədalətin pəncəsinə düşən böylə bir qatilə hökumətimizin şiddətli bir cəza verəcəyini əhali dörd gözlə bəkləyir.

Yenə iki gün əvvəl Yevlax komandanı tərəfindən birisi tövqif edilmişdir. Bu da Azərbaycan Post və Teleqraf məmurlarından bir nəfər ermənidir. Bu hərif Yevlaxda əcələ aşağıdakı məzmunda bir məruzə yazır:

*"Yevlaxda qarnizon yoxdur. Mövqedə müsəlləh [silahlı] 20 nəfər jandarma ilə yenə müsəlləh 20 milis vardır. Yevlaxın ətrafı müsəlman köyləridir. Bunların həpsi təpədən dırnağa qədər müsəlləhdirlər."*

Bu sözləri buraya qədər yazdıqdan sonra yaxalanmış. Nerəyə yazdığı soruldugu vaxt cavab verməkdən imtina etmişdir.

Azərbaycanın bir çox yerlərində olduğu kimi, Gəncədə də qara qüvvələrlə mübarizə etmək üçün könüllü dəstəsi təşkil edilməkdədir. Bu işə ilk əvvəl iqdam edənlər [addım atanlar] Türk Müəllimlər İttifaqı ilə sair həmiyyətli zatlardır. İcab etdiyi təqdirdə lazımi qədər könüllü çıxacağı qəviyyən [möhkəm] ümid edilməkdədir. Böylə səmimi hərəkətlərlə Azərbaycan xalqı yaşamağa hər halda qabildirlər, zənn edirəm.

Bu son günlərdə Gəncədə yağmur yağdığı üçün əkinçilər təşvişdədir. Biçin vaxtı yağmurlu olması ziraətə [əkinçiliyə] zərərli olduğu məlumdur. Taxılın fiyatı hər gün bir az düşməkdədir. Gəncə həvalisində [ətrafında] bu il əkinlər çox gözəldir. Bağlar da ziyansızdır.

Bahalıq davam edir. Hökumət bir çox şeylərə qiymət təyin etmişdirsə də, dinləyən yoxdur.

**Ağdaşdan**

Baqajlarda xəyanət

Baqajlarda olan xəyanətlər hər kəscə məlumdur. Bu böyük xəyanətlərə ən çox zavallı füqəralar məruz qalırlar.

Məsələn, bu müdhiş bahalığa tab gətirəmməyib acı bir həyat içində pəncələnmiş zavallılar ev əşyasını yaxud malqaranı satıb əlinə keçirdiyi bir az para ilə Bakıya gedir və oradan pesok və sairə alıb mənfəət qəsdi ilə və bu surətlə bahalığın təzyiqi altında əzilən əhləyalının acı həyatını təmin edəcəyinə ümidvar olaraq məmnuniyyətlə aldığı malı baqajla gətirirlər.

Lakin bu ümidlər içində çırpınan zavallı baqajı çıxardarkən pesok yerinə torpaq, yaxud duz, parça tayın içində iki-üç top çıxardıb əvəzində kərpic ya kirəmit olduğunu görərək başaşətxəndan [şadlıq-gülüş] içində olan simasında məğmumiyyət [dərd, qüssə] hasil olaraq yanıqlı gözlərindən axan bir qaç damla yaş kirpiklər arasında dolaşıb qalır və yanıqlı bir ah çəkərək acı bir vəziyyətlə geri dönür...

İştə, bu hal bir-iki dəfə deyil, bir adət şəklini almışdır.

Hələ keçən gün Ləki istasyonunda baqajdan mal çıxardarkən Molla Əzim Əziz oğlunun bir tay parçasından bir top götürərək əvəzində kərpic qoyduqları kimi, Hacı Məhəmməd Hacı İsmayıl oğlunun və şamaxılı Səftər bəyin parça taylarından hərəsindən iki top götürərək əvəzində kərpic və kirəmit qoymuşlardır.

Hasili, baqajdan salamat mal çıxarmaq mümkün deyildir. İştə bu xəyanət Bakı istasyonunda yaxud Ləki istasyonunda vüqua gəldiyinə şübhə edilәmməz. Binaənileyh [ona görə], möhtərəm gənc Azərbaycan hökumətimiz heç bir vaxt böylə xəyanətlərə yol verməklə camaatımızı pərişan etməməlidir və etməyəcəyini qəviyyən [möhkəm] zənn ediriz.

*Məhəmmədrza Əbdizadə*

**İtibdir**

Lətif Mikayıl oğlu, 20 yaşında, şuşalı, bu gün üç gündür ki, itibdir. Onun barəsində xəbərləri olanlardan acizanə rica edirəm ki, Ramanı, 2-ci polis idarəsinə xəbər versinlər.

*10241*

**İtibdir**

Altı ay olar ki, Nüsrət Həzrətqulu oğlu, 30 yaşında, Mərdəkanlı itibdir. Harada itdiyi və nə olduğu məlum deyil. Onun barəsində məlumatı olanlardan acizanə rica edirəm ki, bu adresə xəbər versinlər: Nijni Naqornı 124, Həzrətqulu Ağaqulu oğlu.

*10240*

**Acizanə xahiş olunur**

Faytonçudan 15 həziran axşam onun faytonunda qalmış iki şlyapanı, biri qış, biri yay şlyapasını yaxşı bəxşişə olaraq gətirib bu adresə versin: Malı Krepostnoy nömrə 2. V. A. Sergeyevə.

*10242*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi [yolu] ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir. (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75.) Sifarişlər saat 5-dən 7-dək qəbul olunur.

*10228*

**İstanbuldan, İngiltərədən**
**və Fransadan mallar**

İ. V. Denisovun bankir kantorası İstanbula, Marselə (Fransa) və Liverpula (İngiltərə) mal alıb gətirmək üçün nümayəndə göndərir. Sifarişlər İ. V. Denisovun bankir kantorasında qəbul olunur (Nikolayevski və Olqinski küçələrin küncündə) hər gün axşam saat 5-dən 7-dək.

*10229*

**Tazə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi***

“Nəzarətini dəröhdə etdiyimi”: qəzetdə belə getmişdir: “Nzarətini dəröhdə etdiyimdən”.

“prixod”: camaatın ianələri hesabına saxlanılan yerli dini icma.

***Bir münasibətlə***

“ayı xidməti”: “xeyirdən çox ziyan verən kömək” mənasında işlədilən rus dilində frazeologizmin (медвежья услуга) hərfi tərcüməsi.

“malxazyanlar, çubaryanlar”: Azərbaycan Parlamentinin üzvü, eyni zamanda Daşnak-sutyun partiyasına mənsub olan ermənilər Arşak Malxazyan və Poqos Çubaryan nəzərdə tutulur. Qəzetdə “çubaryanlar” yerinə səhvən “çurbaryanlar” getmişdir.

***Sülh ətrafında***

“Kayzer”: 1888-1918-ci illərdə hakimiyyətdə olan Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

“Exo de Pari” [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

“Avam Kamerası”: ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

“lineyni gəmi” (xətt gəmisi): zirehli hərbi gəmi; güclü artilleriya silahları ilə təchiz edilirdi.

***Türküstanda***

“Tazəşəhər”: indiki Türkmənbaşı şəhəri.

“Qəhqə”: Türkmənistanın cənubundakı Kaka şəhəri.

Edadiyyələrdə ərəb lisanına ehtiyac vardırmı?

“edadiyyə”: orta təhsildə son mərhələ, indiki lisey kimi başa düşülməlidir.

“əski mədəniyyətlərlə uğraşmaq”: qəzetdə “uğraşmaq” yerinə “uğraşmış” getmişdir.

“Cahiz”: qəzetdə səhvən “Haciz” getmişdir.

“fərsəx”: 12 min addıma (təxminən 5-6 kilometrə) bərabər uzunluq ölçüsü vahidi.

***Bakı xəbərləri***

“kəndlərdə komitələr təşkil edəcək”: qəzetdə “təşkil” yerinə “təşəkkül” getmişdir.

***Azərbaycanda***

“vali əfəndi”: Zaqatala valisi (general-qubernatoru) Əliyar bəy Haşımbəyov idi.

“Loris-Məlik Kalantar Aşxar-bek”: qəzetdə bu ad təhrif edilmişdir.



**2026 Şəhərsalma və Memarlıq İli**



# Şəhərlərimizin özünəməxsus siması formalaşır

## Müasirliklə tarixilik vəhdət yaradır

**Ölkəmizin ərazisindəki tarixi memarlıq abidələri ilə həmişə fəxr edib öyünmüşük. Məlumdur ki, bəşər sivilizasiyasının ilkin meydana gəlmiş qədim məskənlərindən biri də Azərbaycandır. Bu fakt onu təsdiqləyir ki, insanların yaşaması üçün ölkəmizin ərazisində təbii şərait olub. Burada yaşamış insanlar başqa sahələrlə yanaşı, memarlıq sənətinin də bünövrəsini qoymuşlar, bir-birinə bənzəməyən mədəniyyət abidələri yaratmışlar. Aparılmış arxeoloji qazıntıların nəticələri də göstərmişdir ki, Azərbaycanda tarixən yaşamış insanlar zamanla yaradıcılıqla məşğul olmuş, özlərindən sonrakı nəsilləri heyran edən memarlıq abidələri tikmişlər. Bu sənətin yaranması şəhərsalma sahəsinin inkişafına böyük təkan vermiş, onu irəli aparmışdır.**



İpək yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi tanınan Azərbaycan daha çox Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr qurmuşdur. Bu əlaqələrin nəticəsində iri şəhərlərimizin özünəməxsus siması formalaşmışdır. Formalaşma prosesində memarlıq abidələri də müstəsna rol oynamışdır. Şəhərsalma və memarlıq sənətinin bənzərsiz ənənələri bir çox müsbət xüsusiyyətlərini indi də qoruyub saxlamaqdadır.

Yaşadığımız günlərədək gəlib çatmış qala şəhərlər, bir-birinə bənzəməyən memarlıq abidələri qədim tariximizin daş yaddaşıdır, dünənindən xəbər verən pozulmaz izdir. Texnikanın olduqca zəif inkişaf etdiyi dönəmlərdə inşa olunan və hələ də memarlıq əhəmiyyətini qoruyub saxlayan, gözəlliyi ilə insanları heyran edən tikililər əcdadlarımızın hələ min illər bundan əvvəl yaradıcılıq təxəyyülünün yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Bütün bunlar onu göstərir ki, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin əsrlərin sınağından çıxmış zəngin tarixi var.

Azərbaycanda şəhərsalma sahəsinin tərəqqisi, müasir infrastrukturun qurulması və bölgələrin sistemli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx şəkildə bağlıdır. Ümummilli Liderin 1969-cu ildən 1982-ci ilə qədər respublikamıza rəhbərlik etdiyi dövrdə, eləcə də 1993-2003-cü illərdə Bakı və digər şəhərlərin siması əsaslı surətdə dəyişmişdir. Həmin illər ərzində 250-dən çox zavod, fabrik və yüzlərlə sosial obyektin tikilərək istifadəyə verilməsi şəhərsalma işlərini xeyli dərəcədə sürətləndirmiş, Bakının görkəmini gözəlləşdirmişdir.

Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə Ulu Öndər Heydər Əliyev ölkənin memarlıq abidələri ilə zənginləşdirilməsinə, gözəlliyi ilə bir-birindən fərqlənən binalarla, heykəllərlə gözəlləşdirilməsinə xüsusi diqqət yetirmişdir. "Dünya, ümumiyyətlə, quruculuqla, tikib yaratmaqla yaşayıb, inkişaf edib", - deyən Ümummilli Lider şəhərsalma, memarlıq və inşaat sahəsində də böyük tərəqqi əldə edilməsinə xüsusi önəm vermişdir. Məhz Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində paytaxtımızda və digər şəhərlərimizdə memarların yüksək ustalığını göstərən ictimai və yaşayış binaları tikilmiş, parklar, memarlıq ansamblları salınmışdır.

Əvvəlki illərdə olduğu kimi, hazırda da Azərbaycanda şəhərsalma və infrastruktur layihələri müasir standartlara uyğun şəkildə həyata keçirilir, şəhərsalma və memarlıq işlərinə xüsusi diqqət yetirilir. Məhz elə bunun nəticəsidir ki, ilk həftələrini yaşadığımız 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bununla bağlı Prezident İlham Əliyev 22 dekabr 2025-ci ildə sərəncam imzalamışdır.

Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi təsadüfi deyil. Bildiyimiz kimi, 2024-cü ildə respublikamızda BMT-nin ən mühüm və ən böyük tədbirlərindən biri olan iqlim konfransı - COP29 böyük uğurla keçirildi. 2026-cı il 17-22 may tarixlərində isə Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) keçiriləcək. Əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, yenə də dünyanın nəzərləri Azərbaycana dikiləcək. Çünki müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq, ən mühüm qərarlar burada qəbul olunacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında imzaladığı sərəncamda işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq və şəhərsalma işləri də xüsusi olaraq vurğulanır. Sərəncamda qeyd olunur ki, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi milli iradənin təzahürüdür.

İşğaldan azad edilmiş ərazilərdə bir-birindən gözəl yeni şəhər və kəndlər salınır. Hərtərəfli şəraiti olan yaşayış məntəqələri "ağıllı şəhər" və "ağıllı kənd" layihələri əsasında tikilir. Salınan şəhər və kəndlərin memarlıq görkəminə də xüsusi diqqət yetirilir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunmasının çox böyük tarixi əhəmiyyəti var. İnanırıq ki, bu il sərəncama uyğun olaraq ölkəmizdə müasir memarlıq və şəhərsalma layihələri daha da sürətlə icra olunacaq. Ölkəmizin şəhər və kəndlərinin görkəmi dəyişəcək, gözəlləşəcək, yeni tikiləcək memarlıq nümunələri könül oxşayacaq, ürək açacaq. Müvafiq layihələrə uyğun olaraq inşa ediləcək binalar, ölkəmizdə şəhərsalma və memarlıq sənətinə yeni nəfəs gətirəcək, inkişafına güclü təkan verəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Tanınmış memar və ictimai xadim

**Gəncənin qədim məhəllələrini gəzdikcə, göylərə boy verən xan çinarların yanından ötdükcə hər biri tarixin nağıl dastanına çevrilən əzəmətli mülkləri tikənləri, tikdirənləri yada salmaq, ruhlarına min rəhmət demək istəyirsən. Bu zaman ağbirçək nənələrin, ağsaqqal babaların nağıllaşan xatirələri hər şeyi yerbəyer edir. İllər ötdükcə tarixiləşən, tarixiləşdikcə abidələşən, taleləşən binaların keçmişini vərəqlədikcə ötən əsrin birinci yarısında xüsusi bir dövr təşkil edən milli dövlət quruculuğunda əqidə və əməlləri ilə yaddaşlarda yaşayan neçə-neçə şəxsiyyət yada düşür. Onlardan biri də Rəfibəylilər nəslindən, tanınmış memar, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü Abuzər bəy Rzayevdir.**



Abuzər bəy Əsgər bəy oğlu Rzayev 1873-cü ildə Gəncədə anadan olub. Orta təhsilini mollaxanada, sonra isə Şah Abbas məscidindəki mədrəsədə alıb. O dövrün qədim mədəniyyət mərkəzlərindən sayılan Tiflis şəhərində realnı məktəbdə təhsilini davam etdirib. On bir yaşında məktəbi əla qiymətlərlə bitirən Abuzəri əmisi Cabbar Rzayev Moskvaya aparır, texniki məktəbə qoyur. 1899-cu ildə Abuzər bəy artıq inşaatçı-mühəndis kimi vətənə qayıdır. Bakıya gələn Abuzər bəy Musa Nağıyev və Murtuza Muxtarovun Bibiheybətdəki neft mədənlərində işə düzəlir. Bir müddət sonra mədənlərdən birinə müdir təyin edilir. Lakin o, neft sənayesində baş qaldıran böhranla əlaqədar 1909-cu ildə Gəncəyə qayıtmalı olur. Az sonra Gəncə şəhər idarəsi başçısının (şəhər qlasnısı) müavini seçilir. Şəhərin içməli su təchizatı sahəsində böyük fəallıq göstərir, inzibati və yaşayış binalarının layihələşdirilməsində, mərkəzi hissədəki evlərin planauyğun tikilməsində əsas simalardan biri olur. Onun rəhbərliyi və bilavasitə layihəsi əsasında ucaldılmış neçə-neçə bina indi də öz möhtəşəmliyini saxlayır. Hazırda Nizami küçəsindəki 86 nömrəli bina vaxtilə Abuzər bəyin xüsusi mülkü olub, sovet dönəmində uşaq bağçası kimi istifadə edilib.



Abuzər bəy Rzayev Gəncəbasarın, eləcə də İrəvanın azərbaycanlı ziyalıları, həmçinin Tiflisin və Bakının demokratik fikirli adamları ilə yaxından əlaqə saxlayıb. 1916-cı ildə Hacı Zeynalabdin Tağıyevin məsləhəti ilə Bakıya köçüb köhnə univermağın tinindəki evdə yaşayıb. Abuzər bəy H.Z.Tağıyevlə dostluq edib, ailəvi gediş-gəlişləri olub.

A.Rzayev fevral inqilabından (1917-ci il) sonra təşkil edilmiş Gəncə Quberniya İcraiyyə Komitəsinin üzvü olmuşdur. Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una (1918-ci il, 19 noyabr) əsasən Gəncə şəhərindən Cümhuriyyət Parlamentinin tərkibinə seçilmişdir. Parlamentdə "Bitərəflər" fraksiyasını, 1919-cu ilin oktyabrında bu fraksiyanın parçalanmasından və böyük əksəriyyətin "Müsavat" fraksiyası ilə birləşməsindən sonra "Müsavat" və "Bitərəflər" fraksiyasını təmsil etmişdir. Eyni zamanda parlamentin maliyyə-büdcə komissiyasının üzvü, sonralar sədri olmuşdur. Bu dəyərli ziyalının cümhuriyyət dövrü ictimai-siyasi fəaliyyəti "Parlament hesabatları və şərhlər" üççildliyində genişliyi ilə öz əksini tapıb.

Memar-mühəndis Abuzər bəy Rzayev Azərbaycanda demokratik bir dövlətin yaradılması üçün geniş ictimai-siyasi iş aparıb. Sonralar o, məslək dostları M.Rəsulzadə, N.Yusifbəyli, M.Rəfizadə, R.Vəkilov, H.Axundzadə, F.Xoyski və başqaları ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin parlament üzvü kimi fəaliyyət göstərib. AXC-nin süqutundan sonra Abuzər bəy yenidən Gəncəyə qayıtmaq məcburiyyəti qarşısında qalıb...

Gəncədə dünyasını dəyişmiş kişilərin oğul və qızları - indi yaşlaşmış adamlar Abuzər bəyin xeyirxahlığı, rəhmdilliyi barədə də çox şey bilirlər, çox şey eşidiblər. A.Rzayevin kasıb-kimsəsizə, ehtiyac içində yaşayanlara kömək göstərməkdə, xeyriyyəçilikdə əvəzsiz xidmətləri olub.

Abuzər bəyin iki oğul, bir qız övladı olub. 1915-ci ildə anadan olmuş qızı Züleyxa Rzayeva orta məktəbi bitirdikdən sonra həkim olmaq arzusu ilə Azərbaycan Tibb İnstitutuna (indiki ADTU) qəbul olunub. Lakin Böyük Vətən müharibəsi illərinin çətinlikləri, ailə, ev-eşik qayğıları üzündən IV kursdan sonra təhsilini davam etdirə bilməyib. Ailə qurub, Bakıda yaşayıb, oğul-qız, nəvə-nəticə sahibi olub.

Abuzər bəyin Almaniyada ali təhsilli mühəndislik ixtisasına yiyələnən övladları təhsillərini başa vurduqdan sonra sovet hökumətinin qorxusundan vətənə qayıda bilməyiblər. Səməd 1922-ci ildə Türkiyəyə, Əsgər isə 1925-ci ildə İrana getməyə, orada yaşayıb-işləməyə məcbur olublar.

Qızı Züleyxa xanımın xatirələrindən:

- Atam Gəncədə yerli tikinti materiallarından, xüsusən də qırmızı kərpicdən istifadə olunmaqla milli memarlıq ənənələrinə uyğun inşa edilmiş bir neçə tarixi binanın müəllifidir. Onlar öz möhtəşəmliyi ilə indi də gənc nəsildə, eləcə də şəhərimizə gələn qonaqlarda böyük maraq doğurur. Ovaxtkı imkanlı şəxslərin xahişi ilə atamın layihələri əsasında Gəncəyə yaxın rayonlarda da binalar tikilmişdir. Bu binalar gözəlliyi ilə deyil, həm də qədim Gəncənin keçmişini, zirzəmilərində və divarlarında izi qalmış Gəncə üsyanının amansızlıqlarını özündə yaşadır. Memar olaraq sənətinin vurğunu olub, işindən və təmənnasız yaxşılıqlardan zövq alarmış... Çox təəssüf ki, belə bir dəyərli insanı o vaxtlar "ÇK" deyilən təşkilatın üzvləri aparıblar. O zaman 5-6 yaşım vardı, mən bunu tam təfsilatı ilə başa düşməsəm də, görürdüm ki, evimizdə böyük narahatçılıq var. Atamı hara aparıblar, hara sürgün ediblər, harada güllələyiblər, günahı nə imiş bilmirdilər. Bu barədə anama, qardaşlarıma da, qohum-əqrəbamıza da heç bir məlumat verməyiblər. Qardaşlarım Səməd 1922-ci ildə, Əsgər isə 1925-ci ildə elə o gedən olublar. Çox sonralar ondan-bundan eşitdik ki, biri Türkiyədə, biri də Təbriz şəhərində yaşayıb işləyir. Səməd oğul-uşaq sahibiymiş, Əsgər isə ömrünün axırına kimi evlənməyib. Azərbaycana gəlmək arzusuyla yaşayıb, ancaq qismət olmayıb. İndi hər ikisi haqq dünyasındadır...

"Şəhərsalma və Memarlıq İli"nın işığında Azərbaycanın çox da uzaq olmayan XX əsrin əvvəllərinə nəzər salanda məlum olur ki, ölkəmizdə tarixi memarlıq abidəsi hesab olunan binaların ucaldılmasında adı böyük ehtiramla xatırlanan memar-mühəndislər sırasında Gəncənin ilk memar-mühəndisi, cümhuriyyət qurucularından olan tanınmış ziyalı və ictimai xadim Abuzər bəy Rzayevin də yeri var. Bu qürur hissi ilə yanaşı, insanları məyus edən həm də odur ki, Abuzər bəy Rzayev 1920-ci ilin yazında bolşevik-erməni məmurları tərəfindən əks-inqilabçı adıyla həbs edilmiş və həmin il iyunun 15-də, 43 yaşında Azərbaycan Fövqəladə Komissiyasının qərarı ilə güllələnmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Şəkidə "dəyirmi masa": "Azərbaycanın mədəni irsi və müasir memarlıq"

**Prezident İlham Əliyevin sərəncamına əsasən, 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə əlaqədar yanvarın 28-də Şəki şəhər Heydər Əliyev Mərkəzinin və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə "Azərbaycanın mədəni irsi və müasir memarlıq" mövzusunda "dəyirmi masa" keçirilib.**

Mərkəzdən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, tədbirdə ölkəmizdə şəhərsalma və memarlıq sahəsində görülən işlərdən, tarixi və mədəni irsin qorunmasının vacibliyindən, şəhərlərin müasir tələblərə uyğun inkişafı, yaşayış şəraitinin yaxşılaşdırılması və bu sahədə qarşıda duran əsas vəzifələrdən danışılıb.

"Dəyirmi masada" cari ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər və bu istiqamətdə qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub.

# Dubayda dünyanın ilk robot tikinti texnikası ilə villalar inşa ediləcək

**Dubay şəhər bələdiyyəsi robot tikinti sistemlərindən istifadə edərək tikiləcək dünyanın ilk villasının maketini təqdim edib.**



AZƏRTAC rəsmi "Emirates" agentliyinə istinadla xəbər verir ki, layihə 25-dən çox qabaqcıl texnologiya şirkəti, akademik qurumdan ibarət yerli və beynəlxalq konsorsium vasitəsilə həyata keçirilir. Təşəbbüs, Dubayı qabaqcıl tikinti texnologiyaları mərkəzi kimi təqdim edərkən, gələcək tikinti üçün miqyaslı modellər hazırlamaq, məhsuldarlığı, dayanıqlığı və tikintinin keyfiyyətini artırmaq məqsədi daşıyır.

"Robot-villa" layihəsi tikinti robot texnologiyaları şirkətlərinin yerli podratçılar və mühəndislik firmaları ilə birlikdə iştirakı ilə "Zacua Ventures" və "Würth Group" ilə tərəfdaşlıqda həyata keçirilir. Onun anonsu tikinti materialları, sistemləri və texnologiyaları sahəsində innovasiya və tədqiqat üçün xüsusi bir mərkəz yaratmaq üzrə müqavilə imzalandıqdan sonra "Expo City Dubai" çərçivəsində Tikinti İnnovasiyası və Tədqiqat Mərkəzinin (04 ConTech Valley) işə başlaması münasibətilə keçirilən tədbirdə verilib. Bu mərkəz yeni nəsil tikinti həllərinin, şəhər sistemlərinin və gələcək şəhər infrastrukturunun inkişafını dəstəkləməyi hədəfləyir.

Tədbir zamanı təqdim edilən hesabatda tikinti texnologiyalarının qlobal miqyasda sürətlə tətbiq olunması və layihələrin təhlili fonunda bu sektora investisiyaların 2033-cü ilə qədər 30 milyard dolları keçəcəyi bildirilib. Həmçinin süni intellekt, robototexnika, infrastruktur texnologiyası və prefabrikasiya da daxil olmaqla, sektoru formalaşdıran ən görkəmli texnologiyalar vurğulanıb.

Dubay bələdiyyəsi, həmçinin Çin Dövlət Tikinti Mühəndisliyi Korporasiyasını modul tikinti sistemi üçün akkreditasiya edib.

# Horovlu kəndində daha 20 ailəyə evlərinin açarları təqdim olunub

**İşğaldan azad olunan Cəbrayıl rayonunun Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.**










AZƏRTAC xəbər verir ki, Horovlu kəndi bu gün 20 ailə olmaqla, 77 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub, doğma yurdlarında yaradılan gözəlliyi seyr ediblər.

Kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi ilə - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binası, 220 yerlik körpələr evi-uşaq bağçası, ikimərtəbəli inzibati bina, bazar kompleksi, çoxfunksiyalı iaşə obyektləri, tibb məntəqəsi və idman-sağlamlıq mərkəzi tikilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq Meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonunun Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Diqqət əskikliyi niyə artır?

**Son illərdə bəzi insanlar eyni şikayəti dilə gətirirlər. Deyirlər ki, diqqəti cəmləmək əvvəlkindən xeyli çətinləşib. Kitab oxuyarkən telefonun ekranı işıqlanır, iş görərkən mesaj gəlir, bir xəbəri oxumağa başlamışkən elektron poçta baxmaq ehtiyacı yaranır. Bu hal artıq fərdi problem olmaqdan çıxaraq qlobal bir tendensiyaya çevrilib. Araşdırmalar göstərir ki, son 20 ildə insanların bir işə fasiləsiz diqqət yetirə bildiyi vaxt kəskin şəkildə azalıb. Əgər 2000-ci illərin əvvəllərində bu müddət orta hesabla 2,5 dəqiqə idisə, bu gün 40 saniyəyə qədər düşüb.**



"National Geographic" jurnalının hesabatına görə, diqqət müddətinin bu qədər qısalması ciddi nəticələrə səbəb olur. Mütəxəssislər diqqətin tez-tez dağılmasının stres səviyyəsini artırdığını, səhvlərin sayını çoxaltdığını və ümumi məhsuldarlığı azaltdığını bildirirlər. Lakin alimlər vurğulayırlar ki, bu proses geri dönməz deyil. Doğru strategiya və düzgün vərdişlərlə diqqəti yenidən gücləndirmək mümkündür.

Diqqət, ümumiyyətlə, zehni müəyyən bir obyektə və ya tapşırığa yönəltmək qabiliyyəti kimi izah olunur. Bu sahədə uzun illər tədqiqat aparan alimlərdən biri, "Diqqət aralığı: balans, xoşbəxtlik və məhsuldarlığı bərpa etməyin yenilikçi yolu" kitabının müəllifi Qloriya Mark diqqətin iki əsas növünün olduğunu bildirir. Birincisi, qeyri-ixtiyari diqqətdir. Bu, qəfil səs, parlaq işıq və ya ani hərəkət kimi xarici stimullara refleksiv reaksiyamızdır. İkincisi isə, diqqətin cəmlənməsidir. Yəni şüurlu şəkildə müəyyən bir tapşırığa fokuslana bilmə qabiliyyətidir. Alimlər diqqət müddətini ölçərkən, əsasən, məhz bu ikinci növü araşdırırlar.

Qloriya Mark 2000-ci illərin əvvəllərindən etibarən insanların bir tapşırığa nə qədər müddət diqqət yetirdiyini araşdırıb. İlk tədqiqatlarda iştirakçılar ofis şəraitində birbaşa izlənilib. Sonrakı illərdə isə kompüterlərdə davranışları analiz edən xüsusi proqram təminatlarından istifadə olunub. Markın sözlərinə görə, 2003-cü ildə aparılan araşdırmalarda insanların bir tapşırığa orta hesabla 2,5 dəqiqə diqqət yetirdiyi müəyyən edilib. Son beş ildə aparılan tədqiqatlar isə bu müddətin 40 saniyəyə düşdüyünü göstərib.

Alim vurğulayıb ki, bu nəticələr insanların diqqət toplamaq qabiliyyətinin tamamilə zəiflədiyini göstərmir. Əslində, bu göstəricilər gündəlik həyatda diqqətin nə qədər tez-tez kəsildiyini əks etdirir. Çünki əksər tapşırıqlar 40 saniyədən daha uzun vaxt tələb edir. Diqqətin bu qədər tez dəyişməsi isə insanların başladığı işi yarımçıq qoyub başqa bir işə keçməsinə səbəb olur. Bu keçidlər zahirən zərərsiz görünsə də, beyində ciddi idrak yükü yaradır.

Marka görə, insan zehni hər yeni tapşırıq üçün xüsusi bir sxem formalaşdırır. Diqqət başqa bir işə yönəldikdə, əvvəlki sxem tərk edilir və yenisi aktivləşir. Bu proses enerji və səy tələb edir. Üstəlik, diqqət dəyişdikdən sonra əvvəlki tapşırığın izləri tamamilə silinmir. Mark bu vəziyyəti "diqqət qalığı" adlandırır. Onun sözlərinə görə, bu hal ağ lövhənin silinməsinə bənzəyir, yəni lövhə nə qədər təmizlənsə də bəzi izlər qalır. Həmin izlər yeni tapşırığa mane olur və diqqəti zəiflədir.

2024-cü ildə aparılan laboratoriya tədqiqatları da bu fikri təsdiqləyib. Araşdırmalar göstərib ki, tapşırıqlar arasında tez-tez keçid performansı yavaşladır və səhvlərin sayını artırır. Bu isə çoxtapşırıqlılığın birbaşa idrak xərci olduğunu sübut edir. Bir çox insan eyni anda bir neçə işi görə bildiyini düşünsə də, alimlər bunun mümkün olmadığını bildirirlər.

Mayami Universitetinin psixologiya professoru Amişi Jha qeyd edir ki, insan beyni eyni anda yalnız bir tapşırığa diqqət yetirə bilər. Onun sözlərinə görə, diqqət təkamül baxımından informasiyanı seçmək və prioritetləşdirmək ehtiyacından yaranıb. "Beynimiz hər şeyi eyni anda emal edə bilmir. Diqqət projektor kimidir, yalnız bir sahəni işıqlandırır, qalanını isə kölgədə saxlayır. Bizim yalnız bir fənərimiz var və onu eyni vaxtda iki istiqamətə yönəldə bilmərik", - deyə Jha bildirir.

Alimlər vurğulayırlar ki, çoxtapşırıqlılıq, əslində, sürətli tapşırıq dəyişikliyindən başqa bir şey deyil və bu, diqqət resurslarını ən səmərəsiz şəkildə xərcləmək deməkdir. Bəzi tədqiqatlara görə, tapşırıqlar arasında keçid məhsuldarlığı 40 faizə qədər azala bilər. Elə buna görə də eyni anda bir neçə iş görə bilən insanlar diqqət nəzarəti testlərində, adətən, daha zəif nəticə göstərirlər.

Mütəxəssislər diqqəti qorumağın mümkün olduğunu deyirlər. Qloriya Marka görə, ilk addım insanın öz "diqqət pikləri"ni müəyyən etməsidir. Bunun üçün bir neçə gün ərzində hansı saatlarda daha ayıq və fokuslu olduğunuzu müşahidə etmək kifayətdir. Məhz bu vaxtlarda diqqət tələb edən işləri görmək daha effektiv nəticə verir. Həmin dövrlərdə bildirişləri söndürmək, sosial mediadan uzaq durmaq və fasilələri minimuma endirmək tövsiyə olunur. Eyni zamanda planlaşdırılmış fasilələr də diqqət üçün vacibdir. Xüsusilə fiziki hərəkətlərlə müşayiət olunan fasilələr beynin bərpasına kömək edir. Mütəxəssislər təbiətdə qısa gəzintilərin diqqəti yenilədiyini bildirirlər.

Bir çox insan üçün 25 dəqiqə fasiləsiz iş və 5 dəqiqəlik fasilədən ibarət Pomodoro texnikası effektiv üsul sayılır. Bundan əlavə, diqqətlilik məşqləri də diqqəti birbaşa gücləndirən üsullardan biridir. Amişi Jha həftədə ən azı dörd dəfə 12 dəqiqəlik diqqətlilik məşqlərinin yaddaşı və stresə davamlılığı artırdığını qeyd edir.

Jhanın sözlərinə görə, diqqətlilik zehnin "fənər"ini idarə etməyi öyrədir. Nəfəsə diqqət yetirmək, zehinin yayındığını hiss edib yenidən tapşırığa qayıtmaq diqqət əzələsini məşq etdirir. Zamanla bu bacarıq fiziki məşqlər kimi inkişaf edir.

Mütəxəssislər yekdil fikirdədirlər ki, diqqət itirilən deyil, zəifləyən bir qabiliyyətdir. Düzgün şərait, şüurlu vərdişlər və davamlı məşqlərlə bu "zehni əzələ"ni yenidən gücləndirmək mümkündür. Müasir dünyanın səs-küyü içində fokuslanmaq çətin olsa da, bu mümkünsüz də deyil.

***Ülkər XASPOLADOVA,* *"Azərbaycan"***

## BEYNƏLXALQ HƏYAT

# Fransada fermerlərlə polis arasında toqquşmalar baş verib

## Hökumət daha bir etimadsızlıq səsverməsindən yayındı

**Avropa İttifaqı (Aİ) və MERCOSUR (Cənubi Amerika ortaq bazarı) ticarət bloku arasında ticarət müqaviləsinə qarşı keçirilən etirazlar zamanı Tuluzada fermerlərlə polis arasında toqquşmada 5 nəfər yaralanıb. Bu barədə Fransanın "Le Monde" qəzeti yanğınsöndürmə idarəsinin məlumatına istinadən xəbər yayıb.**



Etirazlar zamanı 6 nəfərin həbs olunduğu da dəqiqləşdirilib. Qəzetin məlumatına görə, həbslər "iğtişaşlar və hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı zorakılıq" ittihamı ilə həyata keçirilib.

Aİ və Argentina, Braziliya, Paraqvay və Uruqvayın daxil olduğu MERCOSUR 25 ildən çox davam edən danışıqlardan sonra bu il yanvarın 17-də ticarət müqaviləsi imzalayıblar. Sazişə əsasən, Avropa İttifaqı və MERCOSUR ümumi əhalisi 718 milyon və ümumi daxili məhsulu 22,4 trilyon dollar olan azad ticarət zonası yaradırlar. Sazişin əsas müddəalarından biri də iki blok arasında gömrük rüsumlarının ləğv edilməsidir. Bu səbəbdən etirazçılar razılaşmanın Fransa kənd təsərrüfatına ciddi ziyan vuracağını güman edirlər.

Yerli polisin mətbuat xidməti fermerləri kütləvi iğtişaşlar təşkil etməkdə və hüquq-mühafizə orqanlarına qarşı zorakılıq tətbiq etməkdə ittiham edib. Bununla belə, kənd təsərrüfatı işçiləri öz maraqlarının müdafiəsini davam etdirməyə hazırdırlar.

Aİ-MERCOSUR ticarət razılaşmasına qarşı etirazlar sistemli xarakter daşıyır. Məlum olduğu kimi, yanvarın 13-də fermerlər Parisdə razılaşmanın şərtlərinə qəti şəkildə etirazlarını bildirərək böyük bir nümayiş keçirmişlər.

# İspaniya miqrantların sadələşdirilmiş nizamnamə proqramını təsdiqləyib

**İspaniya hökuməti sənədsiz miqrantlara qanuni status almağa imkan verən proseduru təsdiqləyib. Təxminən yarım milyon insanın bu prosesdən faydalana biləcəyi təxmin edilir.**




AFP-nin məlumatına görə, ötən ilin sonuna qədər İspaniyada ən azı 5 ay yaşadıqlarını sübut edə bilən qanunsuz miqrantlar rəsmi status üçün müraciət edə biləcəklər. Solçu koalisiya partiyası "Podemos"dan olan Avropa Parlamentinin üzvü İrene Montero əvvəllər jurnalistlərə bu barədə məlumat vermişdi. Deputatın dediyinə görə, sadəcə ərizə təqdim etmək miqranta bir il müddətinə yaşayış icazəsi və iş imkanı verəcək. İspaniya hakimiyyəti aprel ayından başlayaraq üç ay müddətinə ərizələri qəbul etməyi planlaşdırır.

Miqrasiya naziri Elma Saiz RTVE telekanalına bildirib ki, leqallaşdırmadan sonra miqrantlar İspaniyanın istənilən sektorunda və istənilən yerində işləyə biləcəklər. O, əmək miqrasiyasının İspaniya iqtisadiyyatı üçün vacib olduğunu və hökumətin qərarının İspaniyada yaşayan insanların varlığını və ləyaqətini tanıdığını vurğulayıb. Nazir bildirib ki, hökumətin təxmini hesablamalarına görə, yarım milyon sənədsiz miqrant bu yeni, birdəfəlik prosedurdan yararlana biləcək.

İspaniyanın Milli Statistika İnstitutunun son məlumatlarına görə, hər 7 sakindən biri, yəni ölkənin 49,4 milyon əhalisinin 7 milyondan çoxu miqrantdır. Onların əksəriyyəti İspaniyada qanuni yaşayır.

# İsveç hökuməti cinayət məsuliyyəti yaşını 13-ə endirir




**İsveç Ədliyyə Nazirliyi ağır cinayətlər üçün cinayət məsuliyyəti yaşının 15-dən 13-ə endirilməsini nəzərdə tutan qanun layihəsi təklif edib. Əgər layihə parlament tərəfindən qəbul edilərsə, 2026-cı il iyulun 3-də qüvvəyə minəcək.**

Hökumət yeniyetmələrin mütəşəkkil cinayətkar qruplarda iştirakı səbəbindən cinayət məsuliyyəti yaşının endirilməsinin zəruriliyini qeyd edir. "Son illər mütəşəkkil cinayətkarlıq əhalinin getdikcə daha geniş təbəqəsinə təsir göstərib. Ağır cinayətlər törədənlərin yaşı getdikcə azalır", - deyə İsveç Ədliyyə Nazirliyi veb-saytında dərc olunmuş qanun layihəsini izah edərkən bildirib.

Hazırda İsveçdə cinayət məsuliyyəti 15 yaşında başlayır. Lakin ağır cinayətlərə görə (qətl, təcavüz və ağırlaşdırılmış soyğunçuluq) məhkum edilmiş 17 yaşdan kiçik yeniyetmələr, ümumiyyətlə həbsxanaya deyil, ixtisaslaşmış mərkəzlərə göndərilir. "Aftonbladet" qəzetinin məlumatına görə, 2025-ci ildə 15 yaşdan kiçik 52 yeniyetmənin qətl və ya qətlə cəhdlə bağlı məhkəmə işlərində adı keçib. Hazırda beləlşəri heç bir cəza ilə üzləşmirlər - törətdiyi cinayətlərdən sonra sosial xidmətlərin himayəsinə verilirlər. Əvəzində İsveç Milli Cinayətkarlığın Qarşısının Alınması Şurasının məlumatına əsasən, son 10 ildə 15 yaşdan kiçik yeniyetmələrlə bağlı qeydə alınan cinayətlərin sayı ikiqat artıb.

Qeyd edək ki, İsveçdə cinayət məsuliyyəti yaşının azaldılması ilə bağlı müzakirələr uzun müddətdir davam edir. 2025-ci ilin sentyabr ayında Baş nazir Ulf Kristersson cinayət məsuliyyəti yaşının azaldılması planlarını təsdiqləyərək "cinayətkar təşkilatların uşaqları ağır cinayətlər törətmək üçün amansızcasına istismar etdiyini" bildirmişdi.

***Rizvan CƏFƏROV,* *"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**539-49-20**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları, vəkil

**KƏRİMAĞA SEYFİ OĞLU TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3281
Sifariş 142

Qiyməti 60 qəpik